Castin Makkarti, Karolin Makkarti

# TÜRKLƏR
# və
# ERMƏNİLƏR

ERMƏNİ
MƏSƏLƏSİ
ÜZRƏ
RƏHBƏRLİK

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Elmi Şurasının 24 yanvar 2011-ci il tarixli qərarları ilə çapa məsləhət görülmüşdür.

- 10450 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2011

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu**

Tərcümə edənlər:
**Yaşar Məmməd oğlu Əliyev,**
**Aydın Cəmil oğlu Əliyev**

Elmi redaktor:
**İlham Ramiz oğlu Məmmədzadə,**
*fəlsəfə elmləri doktoru, professor*

Buraxılışı məsul:
**Aydın Cəmil oğlu Əliyev**

**Makkarti C., Makkarti K. Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik** – Bakı: "Səda" nəşriyyatı, 2011. – 192 səhifə.

**ISBN 9952-438-01-4**

**© "Səda" nəşriyyatı, 2011**

## *Öz söz*

*Amerika tarixçiləri Castin və Karolin Makkartilərin 1987-ci ildə Nyu-Yorkda ingilis dilində, 1996-cı ildə isə Bakıda rus dilində nəşr olunmuş "Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik" əsərinin bu gün də öz aktuallığını saxlamış tarixi və siyasi hadisələrin obyektiv dərk edilməsinə xidmət edən ciddi bir mənbə olduğunu nəzərə alaraq azərbaycan dilinə tərcümə edərək geniş oxucu kütləsinin diqqətinə çatdırmağı lazım bildik.*

*Müəlliflərin qeyd etdiyi kimi, amerikalılar və avropalılar XIX və XX əsrlərdə ermənilər və türklər arasında baş vermiş münaqişələr və onların tarixi kökləri barədə yalnız erməni və ermənipərəst mənbələrə əsaslanan məlumatlar almışlar. Qərb oxucusunun gözünü bağlamış, onu hadisələrə düzgün qiymət vermək imkanından məhrum etmiş həmin məlumatlar əsasında tarixi hadisələrin mahiyyəti, səbəb və şəraiti haqqında yanlış təsəvvür yaradılmış, türklər barəsində "qəddar" və "zülmkar" obrazı formalaşdırılmış, ermənilər isə "əzabkeş", "alicənab" və "sivilizasiyalı" xalq kimi təqdim edilmişlər. Təssüf ki, ermənilər və türklər haqqında Qərbdə formalaşmış bu yanlış təsəvvür bu gün də qalmaqdadır. Kitabın ən qiymətli cəhətlərindən biri məhz türklərə qarşı yönəlmiş təxribat xarakterli idioloji təbliğat kompaniyasının konkret faktlar əsasında obyektiv olaraq araşdırması və düzgün qiymətləndirilməsidir.*

*Tarixi faktlar göstərir ki, əsrlər boyu baş vermiş çoxsalı millətlərarası münaqişələri doğuran səbəblər bir qayda olaraq, münaqişə tərəflərinin və vasitəçilərin birgə səyləri ilə öyrənilmiş, mövcud problemlərin aradan qaldırılması yolları araşdırılmış, sülhə aparan qarşılıqlı addımlar atılmış, tədricən barışıq əldə olunmuş və nəhayət həmin münaqişələr tarixin arxivində yer almışdır. Lakin digər tarixi problemlərdən fərqli olaraq, "erməni məsələsi" adı altında tarixin səhifələrinə daxil edilmiş problem nəinki aradan qaldırılmamış, hətta erməni millətçilərinin və üçüncü qüvvələrin qərəzli səyləri nəticəsində son dərəcə siyasiləşdirilərək region ölkələri üçün sonu görünməyən təhlükəli problemə çevrilmişdir.*

*Son illərdə müxtəlif Qərb dövlətlərinin parlamentlərində uydurma "erməni genosidi"nin tanınması uğrunda aparılan müzakirələr məhz məsələnin ifrat siyasiləşdirilməsinin bariz nümunəsidir ki, bu da təsadüfi deyil. Bu ermənilərin və ermənipərəst qüvvələrin Türkiyə və Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmaq planlarının tərkib elementidir.*

*Təəssüf ki, biz hələ də təhlükəni lazımi səviyyədə qiymətləndirmir, onun nəticələrini görmür, yaxud görmək istəmir, sadəlöhvlük göstərərək "erməni məsələsi"nin növbəti təzahür amili kimi ortaya atılmış "Qarabağ problemi"nin vasitəçilərin köməyi ilə həll ediləcəyinə ya inanır, ya da özümüzü "inandırmağa çalışırıq".*

*Lakin Osmanlı İmperiyasını parçalayıb mənimsəmək məqsədilə erməniləri öz dövlətinə qarşı xəyanətə sövq edən, onları silahlandıraraq türklərə qarşı üsyana qaldıran, əslində isə məhvə aparan böyük dövlətlərin bu gün münaqişənin həlli yolunda vasitəçilik etməsinin müsbət nəticə verəcəyinə inanmaq ən azı sadəlöhvlükdür...*

*Müəlliflərin qeyd etdiyi kimi, Amerika məktəblərində "erməni məsələsi" təhrif olunmuş şəkildə birtərəfli olaraq tədris olunur. Bu fakt öz-özlüyündə yuxarıdakı nəticənin əsaslı olduğunu, "erməni genosidi" probleminin siyasi oyunbazlıq alətinə çevrildiyini bir daha təsdiq edir. Təsadüfi deyil ki, Qərb tarixçilərinin "erməni genosidi"nin baş verməsini sual altına almalarına baxmayaraq, onların səsi rəsmi dairələrdə hələ də qulaq ardına vurulur.*

*Belə bir şəraitdə erməni-türk münaqişəsi tarixinin Azərbaycan məktəblərində tədris olunmaması təəssüf doğurur. Güman etmək olar ki, yaxın vaxtlarda bu boşluq Təhsil Nazirliyi tərəfindən aradan qaldırılacaq, Azərbaycan məktəbliləri və tələbələri problemin tarixi köklərini dərindən öyrənmək imkanı əldə edəcəklər.*

*Belə olan halda Castin və Karolin Makkartilərin "Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik" əsəri də etibarlı tarixi mənbə kimi istifadə oluna bilər. Hesab edirik ki, bu gün bu əsərdə yazılanlar həyəcan təbili kimi səslənir.*

*Həyəcan təbili çalınır. Bəs biz onu eşidirikmi...*

***Yaşar Məmməd oğlu Əliyev,***
***Aydın Cəmil oğlu Əliyev***



# I FƏSİL

# TORPAQLAR VƏ XALQLAR

## Tarix və region

XIX əsrin Avropa və Amerika qəzetləri "erməni məsələsi" adlandırdıqları problemlə bağlı çox yazırdılar. Osmanlı imperiyasında ermənilərlə necə rəftar edilməsi, onların müstəqillik əldə edib-etməyəcəkləri kimi suallarla bağlı olan problemlər o vaxtkı Qərb siyasətçiləri və jurnalistləri üçün əhəmiyyətli görünürdü. Həmin problemlər bu gün də həm türklər, həm də ermənilər üçün öz əhəmiyyətini itirməmişdir. Ermənilər türkləri vəhşilikdə ittiham edir və Şərqi Türkiyə torpaqlarına erməni vətəni kimi iddialardan əl çəkmirlər. Türklər isə erməniləri analoji vəhşilikdə ittiham edərək Şərqi Türkiyə torpaqlarına olan erməni iddialarını rədd edirlər. Birləşmiş Ştatlarda, Kanadada və Qərbi Avropa ölkələrində çoxdandır ki, siyasətçilər bu mübahisədə müəyyən mövqe tutmuşlar. Onun gedişində çoxlu mübahisəli fikirlər bildirilmiş, təntənəli şüarlar söylənilmiş, qəribə müddəalar irəli sürülmüşdür. Hətta erməni məsələsi üzrə ekspert olmayan Adolf Hitlerin də bu mövzu ilə bağlı rəyi Amerika konqresində sitat gətirilmişdir. Lakin məsələnin siyasiləşdirilmiş iç üzü ətrafında yaranmış hay-küy nəticəsində bəhs olunan hadisələrin yetmiş il və daha əvvəl baş verdiyi unudulmuşdur.

Mahiyyətcə erməni məsələsi tarixi məsələdir. Bu fakta əhəmiyyət verilməsə də nəzərə alınmalıdır ki, türklərlə er-

mənilər arasında problemlər 1915-ci ildə, yaxud ötən əsrin 90-cı illərində deyil, yüz illərlə əvvəl yaranmışdır. Odur ki, erməni məsələsinə də digər tarixi problemlərə tətbiq olunan təhlil prinsipləri tətbiq olunmalıdır. Türklər və ermənilər arasında mövcud olan qarşılıqlı münasibətləri düzgün başa düşmək üçün, həmin münasibətlərə onların coğrafi, mədəni, tarixi və siyasi kontekstlərində baxılması zəruridir.

## Region

Erməni – türk münaqişəsinin inkişaf etdiyi region Yaxın Şərqin şimal hissəsini – Şərqi Anadolunu və Qafqazı əhatə edir. Qədim imperiyalar dövründən burada silah daşman yollar kəsişirdi. Buradaca dağların qoynunda insanlar qəfil hücumlardan gizlənirdi. Ərazinin dağlıq olması müxtəlif xalqların və dinlərin nümayəndələrinin yaşayıb-qorunmasını təmin edirdi. Düzənlik yer şəraitində yaşamış olsaydılar yəqin ki, onlar assimilyasiya olunardılar. Ondoqquzuncu əsrdə xalqlar arasında hakim mövqe tutmaq uğrunda mübarizə alovlanana kimi yaşayış belə davam etmişdi.

Türklər və ermənilər coğrafi baxımdan çox yayıldıqları üçün onlar arasındakı qarşılıqlı münasibətlərin tarixi iki böyük imperiyanın – Rus və Osmanlı imperiyalarının geniş ərazilərində cərəyan edirdi. Həmçinin Avropanın və Şimali Amerikanın da cəlb olunmasına baxmayaraq, mədəni və coğrafi baxımdan bu, əsasən, Yaxın Şərq münaqişəsi idi. Qeyd olunduğu kimi, türklər, ermənilər və bəzi digər xalqlar Yaxın Şərqin şimalında – Qafqaz dağlarının cənubunda və Şərqi Anadoluda birgə yaşayırdılar. Bu regionun şimalında Qafqaz dağları ancaq Qara və Xəzər dənizlərinin sahilləri boyu asan keçilməsi mümkün olan möhtəşəm sədd yaradır.





Şərqi Anadolunun, Kilikiyanın və Zaqafqaziyanın şəhərləri

Burada ərazinin əhəmiyyətli hissəsini Qafqazın ucqarlarında məhsuldar vadilərlə əvəz olunan dağlıq təşkil edir.

Şərqi Anadolunun landşaftı da dəniz səviyyəsindən bir-biryarım mil hündürlükdə yerləşən yayla və çay vadiləri ilə birlikdə dağlıq xarakter daşıyır. Dağ zirvələrinin hündürlüyü isə iki mildən artıq olur. Torpaqların əhəmiyyətli hissəsi əkinçilik üçün əlverişsiz, lakin ev heyvanlarının yetişdirilməsi üçün yararlıdır. Kənd təsərrüfatı ilə, əsasən dağlardan çaylarla ayrılmış vadilərdə məşğul olunur. Böyük və orta şəhərlər də, bir qayda olaraq, çay vadilərində yerləşir. Şərqi Anadolunun şəhərləri arasında Qarsı, Ərzurumu və Vanı qeyd etmək olar.

Qafqazın cənubundan Şərqi Anadolunun dərinliklərinə uzanan bu dağlıq region ermənilərin vətəni hesab olunurdu. Ermənilər, həmçinin regionun ucqarlarında – Cənubda və Qərbdə məskunlaşmışdılar. Cənub-şərqin son həddində dağlar Şimali İraqın dərinliklərinə doğru uzanır. Cənub-şərqdə dağ silsilələri Aralıq dənizinin sahillərinə (Adana şəhəri) qədər uzanır. Anadolunun dəniz səviyyəsindən cəmi dördəbir mil hündürlükdə, iki dağ cərgəsi arasında yerləşən, əsasən düzənlik olan cənub-şərq hissəsi Kilikiya adlanan sahədə Aralıq dənizinə kimi uzanır. Sivas və Kayseri şəhərlərini əhatə edən Cənubi və Mərkəzi Anadolu yayladır. Burada şərait kənd təsərrüfatının inkişaf etdirilməsi üçün şərqdə olduğundan daha əlverişlidir. Odur ki, bu vilayət ənənəvi olaraq Anadolunun ümumi mədəniyyətinə və iqtisadiyyatına son dərəcə geniş inteqrasiya olunmuşdu.

**Təcrid olunma**

Kiçik etnik və dini qruplar ən çox Şərqi Anadoluda və Qafqaz dağlarının cənubunda mövcud olan şəraitə oxşar coğrafi şəraitdə qorunub yaşaya bilirdilər. Dağlar onları



qonşulardan təcrid edirdi. Belə təcrid olunma nəticəsində onların dili, dini, adət-ənənələri sonuncuların təsirinə məruz qalmır və öz müxtəlifliyini qoruyub-saxlayırdı. Çoxluqlarla olan daimi əlaqələr, onların iqtisadi və mədəni təsiri nəticəsində düzənlik ərazilərdə yaşayan azlıqların tədricən assimilyasiya olunmasına baxmayaraq, dağlarda öz fərdiliyini qoruyub-saxlamaq onlar üçün asan idi.

Etnik özəlliyin qorunub-saxlanmasına şərait yaratmaqla yanaşı, təcrid olunma, eyni zamanda dağ sakinlərinin idarə olunmasını son dərəcə çətinləşdirirdi. Bir-birindən təcrid olunmaqla onlar, həmçinin istilaçılardan və vergiyığanlardan qorunurdular. Odur ki, XX əsrə kimi Şərqi Anadolunun əhəmiyyətli bir hissəsində real hakimiyyət yerli hakimiyyət orqanlarına məxsus idi. Arabir, dağlıların qəfil hücumları təngə gətirdikdə, yaxud onlar mərkəzi hakimiyyətə qarşı çıxdıqda, onların üstünə böyük qoşun birləşmələri göndərilirdi. Lakin onları ancaq bir müddət sakitləşdirmək mümkün olurdu. Adətən qəbilə başçılarının və yerli rəhbərlərin hakimiyyəti yenidən özünü göstərirdi.

Yaşayış məntəqələrinin və bütövlükdə ayrı-ayrı vilayətlərin təcrid olunmasına baxmayaraq, region sakinlərinin xarici aləmdən tam təcrid olunduğunu demək olmaz. XIX əsrə kimi, bəlkə də çox-çox əvvəl icmalar əhalinin miqrasiyası vasitəsilə bir-birinə bağlanmışdı. İcmalar vergiyığanların gəlişinə olduğu kimi, belə əlaqələrə də sevinmirdi. Lakin buna baxmayaraq onlar öz gənclərini işləməyə, bəzi hallarda isə ticarət məqsədilə digər rayonlara göndərirdilər. Həmin gənclər xarici aləm barədə məlumatlarla qayıdırdılar. Bütün icmaların dini rəhbərləri də səyahət edir, yeni xəbərlər gətirirdilər. XIX əsrin sonlarında təhsil alan gənclər, xüsusilə də missioner məktəblərində oxuyan xristianlar təhsil almaq üçün gedir, sonradan isə onlardan bir qismi






geri qayıdırdı. Əsas məlumat ötürücülərindən biri ticarət şəhərləri idi. Ev heyvanları və mallar satış üçün bu şəhərlərə gətirilirdi. Orada da yeniliklərin, mülahizə və şaiələrin mübadiləsi baş verirdi. Şərqdəki əlaqələr regionda yaranmış şəraitin mühüm hissəsini təşkil edirdi. Bu barədə aşağıda bəhs ediləcəkdir.

## ŞƏRQİ ANADOLU VƏ QAFQAZ XALQLARI

### Xalqlar və irqlər

Erməni-türk münaqişəsinin əsası separatizm və Anadolu və Qafqaz regionu sakinlərinin qrup şəklində eyniləşdirilməsi üzərində qurulur. Əgər həmin qruplar özlərini dövlətlə, yaxud Birləşmiş Ştatlarda və Kanadada mövcud olan multietnik millətçilik prinsipi ilə eyniləşdirmiş olsaydılar, yəqin ki, nə münaqişə, nə də faciə baş verərdi. Elə bu səbəbə görə də region xalqlarının eyniləşdirilməsi məsələsinə baxmaq, onlar tərəfindən həmin eyniləşdirmənin hansı üsulla həyata keçirildiyini müəyyən etmək çox vacibdir.

Hər şeydən əvvəl Yaxın Şərq sakinlərinin kim olduqlarını müəyyən etmək lazımdır. Bu gün insanların özlərini aid etdikləri bu və ya digər birliklərin müəyyən edilməsi üçün bir sıra terminlərdən istifadə olunur – "xalqlar", "millətlər", "etnik qruplar" və s. XIX əsrin avropalıları ayrı-ayrı insan qruplarının müəyyən edilməsi üçün daha bir termin yaratmışlar – "irq". Hazırda bu söz başqa mənada istifadə olunur. Ancaq o dövrdə bu söz indiki "millət" termini ilə müəyyən edilən anlayışa yaxın mənada istifadə olunurdu. O zamanlar hesab olunurdu ki, bu və ya digər insan birlik-

lərini qan eyniliyi, yaxud hər bir fərddə mövcud olan qeyri-müəyyən irqi ruh birləşdirir. Alman irqinin, ingilis irqinin, hətta Amerika irqinin mövcud olduğu güman olunurdu. Bu anlayışın Yaxın Şərqə tətbiqinə görə avropalılar türkləri, ərəbləri, ermənilləri, yaxud yunanları ayrı-ayrı irqlər hesab edirdilər. "Millət" anlayışı daha məhdud idi, lakin o da eyni prinsiplərə əsaslanırdı. Bütün bunlar belə məna daşıyırdı ki, hər bir irq hökmən millət olmalı, hər bir millət isə müstəqil və öz dövlətinə malik olmalıdır.

Avropalıların güclü təsirini öz üzərində hiss edənədək "irq" və "millət" anlayışları Yaxın Şərq sakinlərinə məlum deyildi. Hətta o zaman millətin irq kimi müəyyən edilməsi ideyası əsasən ziyalılar və siyasi liderlər tərəfindən səsləndirilirdi. Adi insanlar isə əvvəllər olduğu kimi özlərini dini əlamətlərə görə eyniləşdirirdilər. "Sən kimsən?" sualına ərəb də, türk də "Mən müsəlmanam" deyə cavab verərdi. Buna baxmayaraq, millətçilik Osmanlı imperiyasının xristian icmalarına yol açmağa başlamışdı. Osmanlı xristianları artıq dini qruplara bölünmüşdülər və çox vaxt öz dillərində danışırdılar. Odur ki, onlar üçün özləri haqqında "millət" kimi düşünmək nisbətən asan idi. Osmanlı imperiyası üçün millətçilik ideyası parçalanma ideyası olmalı idi. Osmanlı siyasətçilərinin və mütəfəkkirlərinin səylərinə baxmayaraq, osmanlı millətçiliyi ideyası köhnə separatizmi dəf edə bilmədi. İnkişaf etmiş millətçilik köhnə dini mənsubiyyət üzərində qurulurdu. Məsələn, ermənilər "erməni" anlayışını genişləndirərək protestantizmə etiqad edən, həmçinin erməni katolik (uniat) kilsəsinə aid olan erməniləri də ona daxil edirdilər. Avropada mövcud olan millətçilik tiplərindən fərqli olaraq dil və mədəniyyət erməni millətçiliyi üçün həlledici amil ola bilməzdi. Belə ki, ermənilərin çoxu dil və mədəniyyət baxımından türklərdən fərqlənmirdi.



**Ermənilər**

Ermənilərin ilkin tarixi barədə kifayət qədər dəqiq məlumat yoxdur. Onlar Hind-Avropa dil qrupuna məxsusdurlar. Onların Şərqi Anadoluya miqrasiya tarixi barədə də dəqiq məlumat mövcud deyil. Hər halda bu belə miqrasiyalar barədə yazılı məlumatların yaranmasından əvvəl baş vermişdi. Məlumdur ki, Kiçik Asiyanın şərqini əhatə edən müstəqil erməni çarlığı Tiqranın dövründə (b.e.ə. 95-56-cı illər) yaradılmışdı. Tiqrandan sonra ermənilər əsrlər boyu digər dövlətlərin, o cümlədən Roma, Fars-Sasani və Bizans imperiyalarının vassalları olmuşlar. Erməni zadəganları arasında baş verən çəkişmələr və döyüşlər onların birləşmək şansını zəifiədirdi. Lakin erməni çarlığı Şərqi Anadolunun, hər halda kiçik bir hissəsində də olsa, XI əsrədək mövcud olmuşdur. Adətən onlar bizanslıların, iranlıların və ərəblərin hökmranlığı altında olurdular. Bizans feodalları (ermənilərə hökmranlıq edən) 1071-ci ildə Mankertin dövründə məğlub olduqdan sonra ermənilər səlcuq türklərinin hakimiyyəti altına düşdülər. Digər erməni çarlığı XI əsrdən XIV əsrədək Kilikiyada mövcud olmuş, sonradan o da türk hökmdarlarının hakimiyyəti altına keçmişdir.

Erməni çarlıqlarının etnik tərkibi məlum deyil. Adətən onların hökmdarları ermənilər olmuşlar, lakin digər xalqlar da həmin çarlıqlarda yaşamışlar. Tez-tez baş verən müharibələrin, türklərin, sonralar isə monqolların qəfil hücumları ermənilərin və digər xalqların geniş ərazilərə səpələnməsinə səbəb oldu. Odur ki, hələ qədim zamanlardan ermənilərin tarixi Ərməniyyənin hüdudlarından kənarda yaşaması təəccüblü deyil.

Osmanlıların gəlişindən yüzilliklərlə qabaq ermənilər Ərməniyyədən köçməyə başlamışlar. Erməni miqrasiyasının ilkin tarixi kifayət qədəd işıqlandırılmamışdır. Lakin məlumdur ki, çoxlu sayda erməni Şərqi Anadolunu hələ bizanslıların dövründə tərk etməyə başlamışdır. Şərqi Anadolu kimi kasıb bölgələrin sakinləri iş yeri və yaxşı güzəran tapmaq məqsədilə tez-tez yaşayış yerlərini dəyişməli olurdular. Ermənilər həmçinin müharibələrdən qaçmağa çalışdıqları üçün Ərməniyyəni tərk etməli olurdular. Belə ki, osmanlılar Şərqi Anadolunu alana kimi (1514-1517-ci illər) burada daimi olaraq müharibələr baş verirdi. Konstantinopol kimi şəhərlərdə erməni icmaları hələ Bizans dövründən mövcud idi.

Ermənilər xristianlığı 301-ci ildə qəbul etmişdilər. Onların erməni qriqorian, yaxud erməni apostol adlanan kilsələri pravoslav və katolik (eretik) sayılırdı. Odur ki, erməni kilsəsi erməniləri digər xristianlarla birləşdirici faktor rolunu oynamaq əvəzinə, erməni separatizmi faktoruna çevrildi. Birmənalı şəkildə erməni kilsəsi olaraq həmin kilsə ermənilərin mədəni eyniləşdirmə faktoru oldu.

Səlcuq türkləri dövründə və sonra osmanlılar zamanı ermənilər xristian qrupu kimi yaşayırdı. Onların ayrıca mövcudluğu İslam qaydaları ilə təmin olunurdu. Başqa sözlə desək, ermənilərin öz dinlərinə bağlılığı, onların Şərqi Anadoludakı coğrafi vəziyyəti və osmanlıların dini dözümlülüyü ermənilərin xalq kimi varlığını təmin edirdi. Daha əlverişli iqtisadi imkan axtarışında olan ermənilərin doğma yerlərdən köçməsi bizanslıların vaxtında başlamış, osmanlıların dövrəndə isə davam etmişdir. Erməni koloniyaları Qərbi Anadoluda, Balkan şəhərlərində və İstambulda mövcud idi. Maraqlıdır ki, Osmanlı imperiyasının mövcudluğunun sonuna yaxın ən böyük erməni məskənləri tarixi Ərməniyyədə



deyil, Şimal-Qərbi Anadoluda aşkar olunurdu. Ermənilərin artıq bütün Osmanlı imperiyasına yayılmasına və tarixi Ərməniyyədə azlığa çevrilməsinə baxmayaraq, onların tarixi vətənləri ilə eyniləşdirilməsi davam edirdi.

**Digər qeyri-müsəlman xalqları**

Osmanlı imperiyası yaranarkən Şərqi Anadoluda artıq yüzilliklərlə mövcud olmuş kiçik xristian icmaları var idi. Bu ortodoksal kilsə (eretik) hesab olunan nestorian və yakobit (*suriyalı adlananlar*) sektaları idi. Dağ şəraiti onlara Bizans hökumət orqanlarının təqiblərindən gizlənməyə imkan verirdi. İmperiyanın şərqində çox az yəhudi yaşayırdı. Lakin çiçəklənən yəhudi icmaları Qərbi Anadoluda, ölkənin Avropa hissəsində və İstambulda mövcud idi. Çoxlu sayda yunan-pravoslav xristianlar Qara dəniz sahillərində Trabzon şəhərinin ətrafında yaşayırdılar. Qafqazdakı bəzi qəbilə qrupları da qismən xristianlar idi. Ermənilərdən başqa, Qafqaz regionunda digər böyük xristian qrupu pravoslavlığa sadiq olan, paytaxtı Tiflis (Tbilisi) olmaqla Cənub-Mərkəzi Qafqazda qədim çarlıq yaratmış gürcülər idi.

**Türklər**

Türkdilli qəbilələr haqqında ilk tarixi xatırlamalar Orta Asiyadan başlayır. Onlar əhalisinin etnik tərkibinə görə bu gün də türklərə məxsus olan keçmiş sovet Orta Asiya respublikalarını, həmçinin Əfqanstanın və Çinin bir his-

səsini əhatə edən geniş düzənlik məkanında meydana çıxmışlar. Orta Asiyada türklər VIII-IX əsrlərdə İslamı qəbul etmiş və Yaxın Şərqlə əlaqələr yaratmışlar.

Ordunun başında duran türk hökmdarları şimal-şərqi İrana, Əfqanstana və Hindistana IX-X əsrlərdə gəlmişlər. Türklərin qərbi Yaxın Şərqə kütləvi axını 1037-ci ildə səlcuq birliyinin başçılıq etdiyi köçəri ordunun İran yürüşündən başlamışdır. Tezliklə İranı və İraqı fəth etdikdən sonra 1071-ci ildə səlcuqlar bizanslıları məğlubiyyətə uğratdılar və Anadolunun türklər tərəfindən alınmasına yol açdılar. Sonrakı 300 il ərzində köçəri türk tayfaları Anadoluya köçərək orada məskunlaşdılar. Nəticədə türklər Anadolunun uzaq şərqi istisna olunmaqla bütün regionda etnik çoxluğa çevrildilər.

Türk orduları şimal-qərbi Anadoluda dövlət kimi meydana gəlmiş Osmanlı imperiyasının əsasını təşkil edirdi. II Mehmetin hökmranlığı dövründə osmanlılar öz hakimiyyətini Anadolunun böyük hissəsinə və cənub-şərqi Avropaya şamil etdilər. 1453-cü ildə Mehmet Konstantinopolu fəth etdi. Onun nəvəsi I Səlim Suriyanı və Misiri ələ keçirdi, onun oğlu – Böyük Süleyman İraqı və Macarıstanı imperiyanın tərkibinə qatdı. Macarıstan, Transilvaniya və şimaldakı kiçik ərazilər istisna olunmaqla XIX əsrədək imperiya öz ərazisini qoruyub saxladı.

Anadoluda, Qafqazda (indiki Azərbaycan Respublikası), İranın şimal-şərqində və Krımda türklər ən böyük etnik və dil qrupunu təşkil edirdilər. XIX əsrin əvvəlində Şərqdə türkdilli müsəlmanlar Xəzər dənizindən Qərbi Anadoluya və Aralıq dənizindən cənuba kimi uzanan bir ərazidə üstünlük təşkil edən dil və etnik qrup olaraq qalırdı.



## Digər müsəlmanlar

Osmanlı imperiyasında əhalinin siyahıya alınması dil prinsipinə görə deyil, dini prinsipə əsasən aparıldığı üçün Şərqi Anadoluda müsəlmanların dil qruplarını bir-birindən ayırmaq çətindir. Bu səbəbə görə, həmçinin ilk növbədə özlərini dini prinsip üzrə eyniləşdirdikləri üçün, burada ancaq bu və ya digər dil qrupu konkret olaraq aşkar edildiyi halda müsəlmanlar dil prinsipinə əsasən müəyyənləşdirilirdilər. Şərqi Anadoluda türklərdən sonra kürdlər və ərəblər ən böyük dil qruplarını təşkil edirdilər.

Bəzi şərq bölgələrində kürddilli əhali türklərlə, ermənilərlə və digər qruplarla qarışmışdı. Kürdlərin məskunlaşdığı ən iri məntəqələr Anadolunun uzaq cənub-şərqində, Qərbi İranda və Şimali İraqda yerləşirdi. Eyni Hind-Avropa dilinin müxtəlif dialektlərində danışmalarına baxmayaraq kürdlər heç vaxt birləşməmişdilər. Onlar dövlətdən daha çox öz qəbilələrinə sadiq idilər. Osmanlıların dövründə kürdlərin vəziyyətini düzgün başa düşmək üçün onlara iki müxtəlif qrup kimi baxmaq lazımdır. Böyük və kiçik şəhərlərdə yaşayan, yaxud oturaq kəndli həyatı sürən birinci qrup osmanlıların siyasi və dini sistemi ilə sıx bağlı idi. Onların dörddə üçündən çoxunu, türklərdə olduğu kimi, sünnü müsəlmanlar təşkil edirdi. Slavyan dillərində danışan Balkan müsəlmanları, yaxud qafqaz dillərində danışan Anadolu qaçqınları kimi, onlar da dini və siyasi baxımdan türklərlə bağlı idilər. Ancaq dil faktoru onları ayırırdı. Qəbilə kürdlərindən ibarət olan ikinci qrup isə teztez birbiri ilə düşmənçilik edən ayrı-ayrı çoxsaylı qruplara parçalanmışdı. Onların Osmanlı dövlətinə olan bağlılığı çox da möhkəm deyidi və bir qayda olaraq qəbilə maraqlarından çıxış edən qəbilə başçılarının iradəsindən asılı olurdular.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

XIX əsrin əvvəllərində kürdlərlə müqayisə ediləcək digər dil qrupu bugünkü Suriyadan şimaldakı vilayətlərdə yaşayan ərəblər idi.

Qavqaz regionunda hər biri öz dilinə və mədəniyyətinə malik olan çoxsaylı etnik müsəlman qrupları, o cümlədən çərkəzlər, lazlar, abxazlar yaşayırdılar. Rusiyanın təzyiqi altında milyonlarla belə müsəlman Osmanlı imperiyasına qaçmaqla xilas ola bildi. Şərqi Anadolunu da daxil etməklə, onlar bütün İmperiyanın ərazisində yerləşdilər. Onların nəsilləri bu gün türk vətəndaşlarıdır, lakin onlardan çoxu öz qafqazlı əcdadlarının mədəni ənənələrinin fərdiliyini qoruyub saxlamışlar.

### Əhali haqqında

Şərqi Anadoluda əhalinin tərkibi haqqında məsələnin müəyyən edilməsi erməni məsələsinin mahiyyətinin başa düşülməsi üçün əhəmiyyətlidir. Əgər Şərqdə ermənilər çoxluq təşkil etsəydilər, yaxud heç olmasa çoxsaylı olsaydılar erməni millətçilərinin Şərqi Anadoluya olan vətən iddiaları əhəmiyyətli dərəcədə daha inandırıcı olardı. Lakin bu belə deyildi.

Aşağıda göstərilən cizgi Osmanlı Şərqi Anadolusunun altı şərq əyalətinin – bəzən Ərməniyyə adlandırılan vilayət əhalisinin 1912-ci ildə olan tərkibini təsvir edir (*Osmanlı imperiyasında əhalinin siyahıya alınması dil prinsipinə görə deyil, dini prinsipə əsasən aparıldığı üçün türklərin, yaxud kürdlərin sayını müəyyən etmək mümkün deyil*). Böyük miqrasiyalar baş verdiyi üçün əvvəlki illər üzrə əhalinin dəqiq tərkibini müəyyən etmək mümkün deyil. Osmanlı imperiyası yarananadək Şərqi Anadolu sakinlərinin tərkibinin



müəyyən edilməsi üçün heç bir siyahıyaalma aparılmırdı. İmperiyanın digər hissələrində erməniləri qeydiyyata almalarına baxmayaraq, XIX əsrin sonunadək osmanlılar Şərqi Anadolu əhalisini lazımi qaydada qeydiyyata ala bilməmişdilər. Odur ki, Osmanlı imperiyası yarananadək və onun mövcud olduğu ilk beş əsr ərzində Şərqi Anadolu əhalisinin tərkibi barədə ancaq ehtimallar etmək olar. Ərməniyyə adlanan vilayətdə hansısa bir zamanda ermənilər çoxluq təşkil etmişlərmi, yaxud feodallarının çoxu erməni olduğu üçünmü bu vilayət belə adlandırılmışdır? Bunu müəyyən etmək daha heç vaxt mümkün olmayacaq. Hətta Osmanlı hökmranlığından əvvəl də ermənilərin Şərqi Anadoluda çoxluq təşkil etməsi inandırıcı görünmür. Lakin tam qətiyyətlə demək olar ki, İmperiyanın sonuna yaxın, yəni əhali haqqında dəqiq rəqəmlərin mövcud olduğu dövrdə şübhəsiz ki, onlar azlıq təşkil etmişlər.

1700-cü il ərəfəsində elə bir geniş ərazi yox idi ki, orada ermənilər erməni dövlətində çoxluq təşkil etməyə kifayət edəcək dərəcədə çoxsaylı olsunlar. Osmanlı, İran, yaxud Rus imperiyalarının əyalətlərinin heç birində Ermənistan dövlətinin təşkil olunması üçün kifayət qədər erməni olmayıb. Məsələn, hətta sonralar da, XIX əsrin sonunda er-




**1912-ci ildə Şərqi Anadolunun altı əyalətinin əhalisi**

mənilər miqrasiya edərək daha sıx məskunlaşdıqdan sonra belə Osmanlı imperiyasının heç bir əyalətində onlar əhalinin üçdə birindən çoxunu təşkil etmirdilər. Faktiki olaraq hər yerə çoxluğu müsəlmanlar – türklər, kürdlər və çoxsaylı digər etnik qruplar təşkil edirdi. Yuxarıda qeyd olunduğu kimi, onlar özlərini əsasən dini əlamətlərə görə eyniləşdirərək müsəlman adlandırır, ermənilər də özlərini eyni əlamətə əsasən eyniləşdirərək erməni adlandırırdılar.

### Osmanlı hökmranlığı

Orta Asiyadan köçmələrin və osmanlı istilalarının sonunda türklər Anadoluda və Balkan ərazilərinin əhəmiyyətli hissəsində çoxluğa, digər regionlarda isə böyük azlığa çevrildilər. Onların sayı türk adətlərini və dilini qəbul edərək, beləliklə də türkləşənlərin hesabına artdı. Türklər Osmanlı imperiyasının əsasını təşkil edirdi. Lakin İmperiya təkcə türk imperiyası sayılmırdı. Baxmayaraq ki, avropalılar, sonralar isə həm də amerikalılar Osmanlı imperiyasını "Türkiyə" adlandırırdılar, osmanlılar özləri belə hesab etmirdilər. Onlar üçün Osmanlı imperiyası İslam qaydaları əsasında sultan tərəfindən idarə olunan islam dövləti idi. O heç bir mənada milli imperiya deyildi. Onun daxilində etnik qruplar üzrə heç bir rəsmi bölgü aparılmırdı. Ona təmiz türk imperiyası kimi baxmaq ağlasığmaz idi. Başqa etnik qrupların nümayəndələri ilə müqayisədə türklər İmperiyanın elitasında daha çox təmsil olunurdular. Lakin həmin elita slavyanların, albanların, ərəblərin və digərlərinin nümayəndələrini də əhatə edirdi. Yeganə şərt islam dini də daxil olmaqla hakim sinfin siyasi mədəniyyətinin onlar tərəfindən qəbul edilməsi idi. Sonradan bu tələb də aradan qalxmışdı. Yunan xristianları, erməni xristianları və digərləri Osmanlı dövlətində yüksək vəzifələr tutmağa başladılar.



Türklər tərəfindən yaradılmış Osmanlı imperiyası əvvəllər mövcud olmuş ən qüdrətli imperiyalardan biri idi. İslam, türk və Yaxın Şərq dövlət idarəetmə ideyalarına əsaslanmaqla o, həmçinin Avropada və Anadoluda mövcud olmuş Bizansın və digər dövlət qurumlarının dövlət ənənələrinin çoxunu qəbul etmişdi. Digər Yaxın Şərq imperiyaları kimi, Osmanlı imperiyasında da hakimiyyət sultana məxsus idi. Nəzəri baxımdan Osmanlı hökuməti onun tam nəzarəti altında idi. İxtiyar sahibi olan hər bir şəxs buna görə ona borclu idi, belə ki, ali hakimiyyət onun əlində cəmləşmişdi. Lakin bu nəzəri cəhətdən belə idi. Əslində isə, geniş əraziləri əhatə edən İmperiya primitiv kommunikasiya və nəqliyyat dövründə əks mərkəzləşməyə can atırdı. Osmanlı imperiyasının bəzi hissələrində əks mərkəzləşmə Qərbi Avropanın feodal sisteminə çox oxşar forma alırdı. Yerli feodallar sultanın razılığı ilə torpaqlara malik olur, onları idarə edir və öz növbəsində Osmanlı ordusuna əsgər verir və yerlərdə əmin-amanlığı qoruyurdular. Şərqi Anadoluda yerli hakimlər, kürd tayfaları və erməni məskunlarının çoxu əhəmiyyətli dərəcədə müstəqilliyə malik idilər. Bu araşdırmanın mövzusuna daxil olmayan müxtəlif səbəblərdən XVI əsrin sonunda mərkəzi osmanlı hökumətinin hakimiyyəti zəifləməyə başladı. Daxili problemlərə əlavə olaraq, buna həmçinin osmanlıların artıq o dövrdə iqtisadi və hərbi baxımdan Avropadan geri qalması şərait yaradırdı. Dünyanın böyük bir hissəsində olduğu kimi, Osmanlı imperiyası da bütün pozitiv nəticələr də daxil olmaqla İntibah, yaxud Avropanın Elmi İnqilabı dövrünü yaşamamışdı. Bu isə öz növbəsində döyüş meydanlarındakı və bazarlardakı məğlubiyyətlə nəticələndi. Mərkəzi hakimiyyətin zəifləməsi şərqdəki vilayətlərin çoxunun müstəqilləşməsi demək idi. İmperiyanın şərqindəki ermənilərin və müsəlmanların vəziyyəti yerli



Osmanlı imperiyası Böyük Süleymanın dövründə



hakimlərdən asılı idi. Onlardan yaxşı hakim tərəfindən idarə olunanlar çiçəklənir, digərləri isə əzab çəkirdi.

Osmanlıların İntibahı XIX əsrdə başlandı. İstehsalın texniki modernləşməsi zərurəti Osmanlı imperiyasını Qərblə geniş əlaqələr yaratmağa sövq etdi. Osmanlı gənclər təhsil almaq üçün Avropaya yollanır, avropalı müəllimlər isə osmanlıların ali təhsil müəssisələrinə dəvət olunurdu. Bunun müsbət təsiri böyük idi. Lakin osmanlı təbəələrinin çoxunun konservativ düşüncə tərzi və xarici hərbi təzyiq osmanlıların kifayət qədər tez inkişaf etməsinə imkan vermirdi. Sonrakı başlıqlardan məlum olacağı kimi, Rusiyanın hərbi təzyiqlərindən müdafiə reformalara yönəldilə biləcək əhəmiyyətli vəsait və səylər tələb edirdi.

Avropa ilə münasibətlərdə ən aktiv sahə kommersiya idi ki, onun da inkişafından xüsusilə osmanlı xristianları bəhrələnirdi. Avropalılar əsasən yunan və ermənilərdən olan yerli xristianları öz havadarları kimi qəbul edirdilər. Xristianlar ticarət və kommersiya işlərində vasitəçilik edirdilər. Onlardan çoxu tezliklə xeyli vəsait toplaya bildi. Onlar daha da varlanaraq avropalılarla yaxınlaşdılar. Bu, türklərlə ermənilər arasında yeni sədd yaratdı. İmperiyanın hər yerində missioner məktəbləri açılmağa başlandıqda onlar arasındakı soyuqluq daha da artdı. Həmin məktəblərdə təhsil alanlar, demək olar ki, bütünlüklə xristianlar idi. Onlar Avropa dillərini öyrənir, Qərb təhsilinin üstünlüklərindən bəhrələnirdilər.

### Millətlər

Yaxın Şərqdə insanları ənənəvi olaraq dinlər ayırırdı. Bu sistem İncil dövründən mövcud idi. Osmanlı imperiyası dövlət idarəçiliyinin İslam prinsiplərinə riayət edirdi. Xris-

tianların və yəhudilərin öz dinlərinə etiqad etmək hüququ qorunurdu. Dini dözümlülük dövlətin siyasi maraqlarına da cavab verirdi. İmperiyada müsəlmanların böyük qrup təşkil etməsinə baxmayaraq, hər halda xristianlar orada çoxluq təşkil edirdilər. Şəxsi azadlıqların qorunması bir çox vətəndaş iğtişaşlarından qaçmağa imkan verirdi. Beləliklə də, dini və praqmatik xarakterli düşüncələri rəhbər tutaraq Osmanlı hökuməti öz təbəələrinin dini azadlığını və dini müstəqilliyini müdafiə edirdi.

Osmanlı imperiyasında dini prinsip üzrə eyniləşdirmə qanuniləşdirilmişdi. Hər bir dinə etiqad edənlər inzibati olaraq "millət"lərə bölünmüşdü. Burada işlədilən "millət" sözü "dini millət" kimi tərcümə oluna bilər. Erməni qriqorianlar, katoliklər, yəhudilər və s. olduğu kimi, pravoslav yunanlar da millət idilər. Hər bir millət özünün dini ayinlərini saxlayır və öz həyatının mühüm sahələrinin çoxuna rəhbərlik edirdi. Təhsil, məişət, ailə hüququ (nikah, boşanma və vərəsəlik qaydaları da daxil olmaqla) və adətən hökumətin səlahiyyətinə aid edilən bir çox digər sahələr millətlərin idarəçiliyinə verilmişdi. Bir millətin üzvləri arasındakı mübahisəli məsələlər adətən millətin dini məhkəməsində həll edilirdi. Hər bir millət öz məktəblərinə, məhkəmələrinə, məişətinə və s. nəzarət edirdi. Hətta bəzi vergilərin toplanması da millətlərin liderlərinə vəzifə kimi həvalə olunmuşdu. Bu sistem uğurla işləyir, müsəlmanlar kimi, xristianların və yəhudilərin də maraqlarına cavab verirdi. Beş əsrdən artıq bir müddət ərzində dini icmalar öz etiqadını və bənzərsizliyini qoruyub saxlayırdı. O dövrün Avropasında dini təqiblərlə bağlı ziddiyyətlər olduğundan osmanlıların dini dözümlülük təcrübəsinə xüsusi diqqət yetirilməlidir.

Dinin və dövlətin ayrılmasına adət edənlər üçün bəlkə də bütün bunlar qeyri-adi görünə bilər. Lakin insanların uzun müddət ərzində əsasən dini əlamətlərə görə bir-biri ilə bağlandıqları Yaxın Şərq üçün bu sistem çox əlverişli idi. Qanunların bunu tələb etməməsinə baxmayaraq, bir millətin üzvləri ayrı-ayrı yaşayış məntəqələrində və şəhərlərin ayrı-ayrı məhəllələrində bir yerdə yaşayırdılar. Gündəlik işlər faktiki olaraq ancaq öz dininin tərəfkeşləri arasında aparılırdı. Digər millətlərin nümayəndələri isə yadlar hesab olunurdu. Osmanlılar İmperiyanın yaradılmasına kimi əsrlər boyu mövcud olmuş ənənələri sadəcə olaraq qanuniləşdirmişdilər. Millət sistemi böyük İmperiyanın idarə edilməsinin təcrübi üsulu idi. Belə ki, müasir vətəndaşların dövlətdən gözlədiklərinin hamısını o dövrün hökumətləri edə bilməzdilər. Müasir hökumətlərin sərəncamında olan imkanlara malik olmadan insanların gündəlik həyatına diqqətlə nəzarət etmək Osmanlı hökuməti üçün mümkün deyildi, heç insanların özləri də bunu istəməzdilər. Lakin sistemin çox ciddi bir nöqsanı vardı. O hər bir dini qrupun üzvləri tərəfindən hiss olunan separatizmi şirnikdirirdi.

**Xüsusi məqamlar**

1. Artıq qeyd olunduğu kimi, dini azlıqlara olan osmanlı dözümlülüyünün iki mənbəi vardı. Birnci dini mənbə idi. Məhəmməd peyğəmbərin dövründən islam qanunları xristianların və yəhudilərin öz dinlərinə etiqad etmələrinə icazə verilməsini tələb edirdi. Çox nadir istisnalarla müsəlman hökmdarları bu qaydaya həmişə riayət edirdilər. Dini dözümlülük, həmçinin əlverişli idi. Osmanlılar yəhudiləri, pravoslav yunanları, erməniləri, katolikləri, müsəlmanları və s. əhatə edən böyük bir imperiyaya hökmranlıq edirdilər. Bütün bu qrupların həyatında din ən əhəmiyyətli eyniləşdirmə faktoru idi. Əgər osmanlılar onları öz etiqadını dəyişməyə

məcbur etməyə çalışsaydılar, onda üsyan baş verməsinə şərait yaratmış olardılar. Osmanlı imperiyasının uzunmüddətli tarixi ərzində bir dəfə də olsa bütün əhalinin müsəlmanlaşdırılması hökumət tərəfindən planlaşdırılmamışdı.

2. Osmanlı imperiyasında dinin əhəmiyyətini kifayət qədər aydın təsvir etmək çətindir. XX əsrdə milli əlamətlərə görə eyniləşdirmə o dərəcədə geniş yayılmışdı ki, insanların özlərini ilk növbədə öz milləti, hətta öz etnik qrupu çərçivəsində eyniləşdirmədiyi yeri təsəvvür etmək belə bizim üçün çətindir. ABŞ vətəndaşları dəyişməz olaraq özlərini amerikalı kimi, kanadalılar – kanadalı kimi eyniləşdirirdi. Hətta əgər onlar hər hansı bir etnik qrupla qohumluq əlaqəsinin mövcudluğunu hiss edirlərsə belə, bu halda özlərini irland amerikalısı, fransuz kanadalısı, yunan amerikalısı və s. kimi eyniləşdirirdilər. Yaxın Şərqin tarixini dərk etmək üçün biz bu regionun sakinlərinin özləri haqqında başqa cür düşündüklərini anlamağı bacarmalıyıq.

3. Erməni-türk faciəsini başa düşmək üçün ermənilərin azlıq statusu çox böyük əhəmiyyət kəsb edir. Ərməniyyə adlanan ərazinin əslində müsəlman torpaqları olması faktı ermənilərin inqilabi millətçiliyinin xarakterini formalaşdırmış və Şərqi Anadoluda baş vermiş bütün faciəli hadisələrə təsir etmişdir.

4. Bu gün millətlər sistemi yaxşı işləyə bilməzdi. Bu sistem XIX əsrdə, osmanlı xalqları qərb millətçiliyi ilə yaxın təmasa girdikdə, dağılmağa başlamışdı. Buna baxmayaraq başa düşmək lazımdır ki, millətlər sistemi 500 il ərzində Osmanlı imperiyasına yaxşı xidmət göstərmişdi. Təbiidir ki, nə vaxtsa yaxşı işləmiş sistemlər vaxt ötdükcə belə uğurla fəaliyyət göstərə bilmirlər.



# II FƏSİL

# İLK KONFLİKTLƏR

## "Erməni məsələsi"nin meydana gəlməsi

Bir çox təbliğatçılar və millətçilər "erməni məsələsi"ndən Birinci Dünya müharibəsi illərində (bəlkə də, XIX əsrin 90-cı illərində) meydana gəlmiş problem kimi danışırlar. Lakin sağlam düşüncə və tarixi təcrübə heç nədən yaranaraq tez bir zamanda böyüyən problemlərin çox az olmasını nəzərə almağı tələb edir.

Əslində, tarixi konfliktlərin əksəriyyəti, xüsusilə də onlardan xalqlar arasında olan qarşılıqlı nifrət və qorxu üzərində qurulanları qanlı hadisələrdən çox-çox əvvəl tədricən yaranır. Ailə çəkişmələri, yaxud qonşular arasında olan düşmənçilik uzun müddət ərzində inkişaf edərək savaşa çevrildiyi kimi, xalqlar arasında olan konfliktlər də son həddə çatana kimi uzun müddət keçməlidir. Bir tərəfdən ermənilər, digər tərəfdən isə türklər və digər müsəlmanlar arasında mübarizə, başqa tarixi qarşıdurmalarda olduğu kimi, ayrı-ayrı kiçik konfliktlərdən başlayaraq daha böyük hadisələrə çevrilmişdi.

Erməni-müsəlman konfliktinin əsasını I fəsildə təsvir edilən əlaqəsizlik və özünü dini prinsip əsasında eyniləşdirmə təşkil edirdi. Oxşar adət-ənənələrin, hətta ümumi dilin olmasına baxmayaraq, millətçiliyin Orta Şərqdə meydana çıxmasından da çox əvvəl müsəlmanlar və ermənilər özlərini ayrı-ayrılıqda müxtəlif əlaqəsiz qruplar kimi hiss edir-

dilər. Müxtəliflik hissi onların həyat tərzindəki oxşarlıqları dərketmə hissindən daha güclü idi. Gündəlik həyatda onların separatçılığı çox nadir hallarda konfliktlərə səbəb olurdu. "Erməni faciəsi" kimi tanınan silahlı konfliktin baş verməsindən əvvəl ermənilər, türklər və digər müsəlmanlar yüz illər boyu birlikdə Osmanlı imperiyasında yaşamışdılar.

Nə müsəlmanlar, nə də ermənilər heç vaxt öz güzəranlarından razı deyildilər. Bugünkü ölçülərə görə Şərq ölkələrinin əhalisi kasıb yaşayırdı. Bu xüsusilə də Şərqi Anadolu və Qafqaz regionu əhalisi üçün xarakterik idi. Şərqdə torpaq ancaq yoxsul yaşayışı təmin edirdi. Bundan başqa, bəzən yerlərdə yeganə real hakim qüvvə olan yerli tayfa başçıları heç də həmişə yaxşı hökmdar olmurdular. Osmanlı hökumətinin zəiflədiyi uzun müddət ərzində yerli hökmdarlar çox vaxt onların nəzarəti altında olan xristianları olduğu kimi, müsəlmanları da sıxışdırırdılar. Əlverişli dövrlərdə mərkəzi hökumət güclənərkən bütün qruplar yaxşı yaşayırdı. Çətin dövrlərdə isə bütün qruplar əziyyət çəkirdi. Necə olursa-olsun 400 ildən çox davam edən Osmanlı hökmranlığı ərzində öz torpaqlarını, kəndlərini və kilsələrini saxlamış ermənilər üçün hər şey pis ola bilməzdi.

Osmanlı Şərqinin dağılmasına səbəb olan konflikt daxili səbəblərdən yaranmamışdı. Onu törədən səbəblər xaricdən, Rusiya imperializmindən və Avropanın millətçilik ideyalarından qidalanırdı. Rusiya imperializminin təsiri bu fəsildə, millətçiliyinki isə növbəti fəsildə araşdırılacaqdır.

### Rus ekspansiyası

Pravoslav xristian xalqı olan ruslar XV əsrdə monqollar üzərində qələbə çalmaqla milli və dini özünüdərketmə nümayiş etdirdilər. Bundan sonra onlar siyasi istiladan əhə-



miyyətli dərəcədə fərqlənən milli ekspansiyanı (genişlənməni) həyata keçirməyə başladılar. Çarizmin hakimiyyətini genişləndirən rus qoşunları bu zaman işğal edilmiş ərazilərdə yaşayan qeyri-xristian xalqları sıxışdırıb çıxarmaq siyasəti yürüdürdülər. Yeni rus çarlığından cənubda yerləşən ərazilər (hazırda Rusiya Federasiyasının və Ukrayna SSR-in* cənub torpaqları) o zamanlar müsəlmanlara məxsus idi. Regionun bir çox hissələrində tatarlar adlandırılan çoxlu sayda türk azlıqları yaşayırdı. Digər ərazilərdə türklər çoxluq təşkild edirdi. Krım və sahil boyu ərizilərdən içərilərə doğru uzanan torpaqlar, demək olar ki, bütünlüklə türklərə məxsus idi. İvan Qroznının çarlığı dövründən başlayaraq rus çarları həmin əraziləri öz hakimiyyəti altına alırdı. Həmin ekspansiyanın nəticələri bu gün göz qabağındadır: ***kiçik sahələr istisna olunmaqla, Krım və şimal istiqamətində torpaqlar da daxil edilməklə, geniş ərazilərdə artıq türk qalmamışdır.***

### Krım tatarları

Adətən krım tatarları adlandırılan xalqı türkdilli müsəlmanlar təşkil edirdi. Osmanlı sultanlarının vassalları hesab olunsalar da, faktiki olaraq onların ölkəsi müstəqil idi və yerli xanlar tərəfindən idarə olunurdu. Ruslar Krıma soxulduğu zaman tatarlar artıq 500 ildən çox idi ki, orada yaşayırdılar. Ruslar 1774-cü ildə onları fəth edən kimi Krım torpaqlarını Osmanlı imperiyasından və digər yerlərdən olan xristianlara təklif etməyə başladılar. Bu zaman xristianlar boş torpaq sahələri vermək və cüzi vergilər təyin etmək barədə vədlərlə cəlb olunurdular.

---

* ***Ukrayna Respublikası***

Təbii ki, tatarlar öz torpaqlarının işğalına qarşı çıxırdılar, lakin müqavimət göstərənlər təqib olunur və öldürülürdü. Buna müqavimət göstərə bilməyənlərin çoxu isə inzibati təzyiqlərin təsiri altında Krımı tərk edirdilər. Onların torpaqları ələ keçirilir, qalan tatarlar isə özlərinin keçmiş təsərrüfatlarında muzdurluq etməli olurdular. Yüksək "rəsmi" vergilərdən başqa, rus vəzifəli şəxslərinin cibini dolduran qeyri-rəsmi vergilər də mövcud idi. Silahlı birləşmələr (dinc vətəndaşlara hücum etməklə tanınmış cins atlı kazaklar) tatar kəndlərinin yaxınlığında məskunlaşır və heç nədən çəkinmədən həmin kəndlərə qəfil hücumlar edirdi.

Krım müharibəsinin (1853 - 1856) gedişində və sonra tatarların iztirabları durmadan artırdı. Tatar kəndlərində patrulluq edən kazaklar həmin kənlərin sakinlərini tez-tez öldürür, onları öz torpaqlarından qovur, yaxud sakit buraxmaqdan ötrü xərac alırdılar. Vergilər yenə də artırılır, məktəblərdə və məhkəmələrdə aktiv ruslaşdırma siyasəti aparılırdı. Nəhayət, tatarlar geri çəkilməli oldular. Onlardan ən azı 300 min nəfəri sığınacaq tapmaq məqsədilə



Etnik müsəlman qrupları 1790-cı ildə



Osmanlı imperiyasına qaçmalı oldu. Kiçik bir qrupu isə Krımda qaldı. İkinci Dünya müharibəsi dövründə Stalin onları Orta Asiyaya sürgün etdi. Geri qayıtmaq isə çox az adama nəsib oldu.

**Şərqi Qafqaz müsəlmanları**

XIX əsrin əvvəlində Şərqi və Mərkəzi Qafqaz regionu faktiki olaraq ancaq yerli əhali tərəfindən idarə olunurdu. İslam dinini qəbul etmələrinə baxmayaraq, böyük müsəlman dövlətləri olan Osmanlı imperiyasından və İrandan öz azadlığını qoruyub saxlaya bilmiş bu tayfalar son dərəcə müstəqil idilər.

Krım tatarları kimi, onlar da rus ekspansiyasının qarşısını kəsdikləri üçün öz torpaqlarından qovuldular. Ruslar onlara diqqət yetirənədək öz hakimiyyətlərini Qafqaz tayfalarından cənuba və qərbə yaymışdılar. Bu zaman artıq gürcü pravoslav xristian çarlığı zəbt edilmiş, digər Cənubi Qafqaz torpaqları müharibə yolu ilə Osmanlı imperiyasından və İrandan alınmışdı. Şərqi və Mərkəzi Qafqazda dağlı müsəlman tayfalarının müqaviməti rus işğalının tam başa çatmasını otuz il ləngitdi. Buna baxmayaraq, XIX əsrin 50-ci illərinin sonuna yaxın artıq rusların Qərbi Qafqaza soxulması üçün yol açılmışdı. Qərbdə ən böyük müsəlman tayfası onilliklər ərzində rusların hərəkətinə mane olan, rus düşərgələrinə hücumlar edib onlarla döyüşən çərkəzlər idi. Lakin güclü rus qoşunları ilə mühasirə olunduqdan sonra onlar daha müqaviməti davam etdirə bilmədilər. Onların torpaqları və qərbdəki digər ərazilər ruslar üçün ən çox arzu olunan yerlər idi. Belə ki, Qafqaz vilayətlərinin çoxundan fərqli olaraq, həmin ərazilər məhsuldar düzənliklərdən iba-

rət idi. Sahilboyu rus ticarəti üçün zəruri olan Qara dəniz limanları yerləşirdi.

Rusların və digər slavyanların məskunlaşdırılması üçün Qafqaz torpaqlarının boşaldılması metodları sadə və sərt idi. 1864-cü ildə rus ordusu torpaqların köklü sakinlərdən təmizlənməsinə başladı. Müqavimət göstərənlər məhv edildi. Sakinlərin öz evlərində olmasına baxmayaraq, təslim olmaq istəməyən müsəlman yaşayış məntəqələri top atəşinə tutulur və yerlə yeksan edilirdi. Təslim olan yaşayış məntəqələri qarət edilir, sonra dağıdılır, evlər və əkin sahələri yandırılırdı. Odur ki, öz daimi yaşayış yerlərində qalan və müqaviməti davam etdirən sakinlərin sağ qalmaq imkanı olmurdu. Geri qayıtmağa onların heç bir ümidi yox idi. Nəticədə çərkəzlər Qara dəniz limanlarına üz tutaraq Osmanlı imperiyasına yönələn gəmilərə doldular. Ruslar və digər xristianlar onların yerlərini tutdular.

1867-ci ildə öz evlərini tərk etməyə məcbur etmək məqsədilə eyni metodlar çərkəzlərdən cənubda yaşayan və böyük müsəlman qrupu olan abxazlara tətbiq olundu. Ruslar abxazlara məxsus iri buynuzlu mal-qaranın və daşınan əmlakın qorunub saxlanmasını təmin etdilər. Köçməyib qalan gənc abxazların qismətinə qəsbkarların xeyrinə məcburi əmək düşdü. Digərləri isə üç il əvvəl çərkəzləri qəbul etmiş osmanlı limanlarına üz tutdular. Yenə də ruslar və digər xristianlar, hər şeydən əvvəl gürcülər əhalisiz Abxaziya torpaqlarına gəldilər.

Osmanlı imperiyası ruslar tərəfindən qovulmuşların firavanlığını təmin etmək iqtidarında deyildi. İmperiya kasıb idi, beynəlxalq təşkilatlar və dini qruplar isə müsəlman qaçqınlarının taleyi ilə maraqlanmırdı. Krım tatarları Osmanlı imperiyasında pis təmin olunmuş qaçqın düşərgələrinə piyada gedirdilər. Ruslar çərkəzləri və abxazları heç bir



yardım göstərmədən, ərzaqla təmin etmədən gəmilərə doldururdular. Hər bir qrup Osmanlı imperiyasına gəlib çatdıqda osmanlılar onları ancaq zəruri ərzaq və sığınacaqla təmin edə bilirdilər. Çiçək xəstəliyi, səpmə və qarın yatalağı qaçqınlar arasında tüğyan edirdi. Çoxlu sayda çərkəz və abxaz həlak olduqdan sonra, nəhayət, böyük çətinliklə də olsa tatarlar, çərkəzlər və abxazlar İmperiyanın bütün ərazilərində yerləşdirildilər. Qafqazda öz evlərindən qovulmuş və Osmanlı imperiyasına gəlib çıxmış təxminən 1,2 milyon çərkəz və abxaz qaçqınından ancaq üçdə ikisi sağ qala bildi. Üçdə biri isə ruslar tərəfindən öldürüldü, yaxud xəstəlikdən və soyuqdan öldü. Həlak olmuş Krım qaçqınlarının sayı barədə məlumat azdır. Lakin ola bilər ki, tatarlar arasında da ölüm hallarının sayı çərkəzlər və abxazlar arasında olduğu kimidir.

### "Erməni məsələsi"nin əhəmiyyəti

Çox maraqlıdır ki, rus ekspansiyası nəticəsində türklərin və digər müsəlmanların çəkdikləri əziyyətlər mahiyyətcə unudulmuşdur. Onlar ancaq bəzi tarixçilər tərəfindən öyrənilən, lakin başqalarını xüsusilə maraqlandırmayan mövzu oldu. Ancaq Krım tatarlarının və Qafqaz müsəlmanlarının nəsilləri olan indiki Türkiyə vətəndaşları öz ata-babalarının müsibətli vəziyyətini unutmamışlar. Osmanlı imperiyasında xristianların müsibətləri barədə yazılmış çoxsaylı kitabların fonunda türklərin və digər müsəlmanların iztirablarına maraq göstərilməməsi olduqca səciyyəvidir. Bu, Qərbi Avropada və Birləşmiş Ştatlarda türklərə olan münasibəti nümayiş etdirir. İnsan iztirablarına olan qərəzli münasibət sonralar erməni məsələsinə yanaşmada da öz əksini tapdı.

Rusların müsəlmanlara vurduğu itkilər sonrakı hadisələrə də böyük təsir göstərdi. Anadolunun və Qafqazın hər bir müsəlman və xristian sakini Krım və Qafqaz müsəlmanlarının başına gələnləri bilirdi. Rusların məqsədi hamıya yaxşı məlum idi. Rusların niyyətləri barədə bu dərəcədə məlumatlı olmaq bilavasitə Birinci Dünya müharibəsinə kimi Anadoluda erməni-türk münasibətlərinə təsir göstərirdi. Müsəlmanlar rusları və onların müttəfiqlərini öz həyatlarına, ailələrinə və vətəninə təhlükə yaradan düşmən kimi görməyə meyilli idilər. Ermənilər isə rusları müsəlmanları sıxışdırıb-qovmağa, ermənilər kimi digər xristianların maraqlarını qorumağa qadir olan şəxslər kimi görmək istəyirdilər.

Xristianların məskunlaşdırılması üçün müsəlmanların öz torpaqlarından hansı üsulla çıxarılmasının mümkün olduğunu ruslar öz hərəkətlərilə göstərdilər. Bu dərsi nə müsəlmanlar, nə də erməni millətçiləri unutmamışdılar.

### Cənubi Qafqazın türkləri və erməniləri

İşğal etdikləri torpaqları rusların hansı hədlərə kimi ruslaşdırmağı planlaşdırdığını daha heç kim və heç vaxt bilməyəcək. Bu təhlilin özü də ilk növbədə rusların niyyətlərinin deyil, hərəkətlərinin araşdırılmasına əsaslanır. Çarlar müsəlmanların deportasiyası və onların xristianlarla əvəz olunması barədə öz niyyətlərini gizli saxlayırdılar. Lakin çar qoşunlarının və vəzifəli şəxslərin hərəkətləri onların ardıcıl siyasət yürütmədiklərini şübhə altına almağa məcbur edirdi.

Çarizm Cənubi Rusiyada, Krımda və Qərbi Qafqazda işğal olunmuş torpaqlarda rusları və digər slavyan xalqlarını məskunlaşdırırdılar. Həmin torpaqlar rus aristokratlarının maraqlarına tam uyğun gəlirdi. Müsəlman təsərrüfatlarından və yaşayış məntəqələrindən böyük malikanələr yaradılır və oralarda rus zadəganlarına və kəndlilərinə xas olan yaşayış tərzi bərqərar edilirdi. Lakin heç də Rusiyanın tutduğu ərazilərin hamısında bu mümkün deyildi. Əgər ruslar Cənubi və Mərkəzi Qafqaz regionunu (*yaxud Orta Asiyanı, Monqolustanı*) ruslaşdırmaq fikrinə düşsəydilər belə, həmin regionların coğrafi vəziyyəti və slavyan xalqlarının bunun üçün kifayət etməyən sayı belə planları pozardı. Ehtimal ki, onların belə məqsədi olmamışdır. Lakin buna baxmayaraq, onlar Qafqazı, müəyyən vaxtdan sonra isə Şərqi Anadolunu idarə etmək fikrində idilər.

Bu məqsədlərin həyata keçirilməsi üçün işğal olunmuş ərazilərdə Rusiyadan asılı olan xristian əhalisinin çoxluq təşkil etməsi arzuolunan idi. Odur ki, ermənilər rus siyasətinin aləti oldular.

### Şərqdəki ermənilər, ruslar və türklər

1790-cı ildən 1921-ci ilədək Şərqi Anadolunun və Qafqaz regionunun tarixi səfalət və fəlakət salnaməsi idi. Bu vilayətlərin sakinlərinin əksəriyyəti – istər kəndli olsun, istərsə də şəhərli, istər müsəlman olsun, istərsə də erməni, şübhəsiz ki, sülh istəyirdi. Əhalini, əsasən, əkinçilər və çobanlar təşkil edirdi. Onlar üçün ən əsası az məhsuldar olan torpaqlarda ölməyib sağ qalmaq idi. Baş vermiş bədbəxtlikləri onlar arzu edə bilməzdilər. Lakin rus ekspansiyası, etnik millətçilik və dini sektantlıq nəticəsində baş vermiş hadisələr əkinçiləri və çobanları iki düşərgəyə bölünməyə məcbur etdi: ermənilər və ruslar türklərə və digər Qafqaz müsəlmanlarına qarşı.

Ən başlıcası o zamankı dövrdə sadiqlik məsələsi idi. Nə Osmanlı imperiyasının, nə də Qafqazın müsəlman hökmdarları heç vaxt özlərinin xristian təbəələrindən bu gün başa düşülən anlamda milli sadiqlik gözləmirdi. Yüz illər boyu Osmanlı və İran imperiyalarının tərkibində yaşasalar da bir xalq kimi mövcud olmalarına baxmayaraq, ermənilər həmin dövlətlərə deyil, öz dini icmalarına və millətinə sadiq olmuşlar. Ruslar Osmanlı imperiyasının və İranın içərilərinə doğru hərəkət etdikdə ermənilərin bir çoxu xristian monarxın hakimiyyəti altında olmalarının onlar üçün daha yaxşı olacağını hiss edərək ruslara qoşuldular. Hətta bəziləri çarın nə vaxtsa, heç olmasa, erməni muxtariyyəti ideyasını dəstəkləyəcəyini güman edirdi.

Müsəlmanlar isə öz növbəsində ruslara öz xalqının və dininin düşməni kimi baxırdı. Bunun üçün onların ciddi əsasları da vardı. Rusların müdaxiləsinin son nəticəsi yüz illər boyu birlikdə yaşamış xalqlar arasında sədd yaranmasına səbəb olmuşdu.

Osmanlı imperiyasında və bir qədər də Qafqazda qeyri-rəsmi mövcud olan millətlər sistemi dini fərqliliyin tanınması yolu ilə dözümlülük ruhunda tərbiyə etmək, həmçinin dövlət nəzarətini həyata keçirmək məqsədilə nəzərdə tutulmuşdu. Yeni fərqləndirmə üsulu əks nəticə verdi. Dözümlülüyə əsaslanan fərqləndirməni əvəz edən bu üsul nifrət və qorxu – bir tərəfin üstünlük əldə edəcəyi halda digər tərəfin məskəninin, yaxud ailəsinin məhv ediləcəyi qorxusu üzərində qurulmuşdu. Bütün bunların nəticəsi olan parçalanma XIX əsr ərzində durmadan artdı və nəhayət Birinci Dünya müharibəsi dövründə və ondan sonra alovlanan vətəndaş müharibələri tarixində ən dəhşətlilərindən birində son həddə çatdı.



**Xanlıqların işğalı**

Ermənilərin öz müsəlman hökmdarlarına qarşı hərəkətləri 1796-cı ildə Şərqi Qafqaz xanlıqlarına olan rus basqınları dövründə başlandı. Bu xanlıqlar nominal olaraq İran tabeliyində olsalar da faktiki olaraq yerli hökmdarlar – xanlar tərəfindən idarə olunurdu. Onların əhalisi əsasən türklərdən, əhəmiyyətli dərəcədə digər müsəlman xalqlarından və ermənilərdən ibarət idi. Rus qoşunları basqın edərkən xanlıqların təbəələri olan ermənilər casus rolunu oynamağa başladılar. Məsələn, ermənilər Dərbəndin su təchizatı planını ruslara verməklə şəhərin süqutunu mümkün etdilər. Müsəlman xanlıqlarının işğalı zamanı silahlı erməni dəstələri rusların tərəfində vuruşurdular. Erməni arxiyepiskopu Arqutinski-Dolqorukov XVIII əsrin 90-cı illərində öz möizələrində onun ən böyük istəyinin bütün işğal olunmuş ərazilərdə müsəlman hökmranlığına məhz Rusiyanın son qoymasından ibarət olduğunu bildirirdi. Arxiyepiskomun istəyi həyata keçdi.



Azərbaycan xanliqları

Gəncə xanlığının paytaxtı Gəncə şəhəri alınarkən ruslar və onların gürcü müttəfiqləri saysız-hesabsız müsəlman öldürərək əsl qırğın törətdilər, sonra isə xanlığı talan edərək viran qoydular. İşğaldan sonra məscidlərə məxsus bütün əmlak və pul vəsaiti ələ keçirildi. Müsəlman əhali təqiblərə məruz qoyuldu. Nəhayət, Gəncə müsəlmanlarının çoxu qaç-

maqla canını qurtarmalı oldu, onların yerini isə etmənilər tutdu.

Xanlıqların işğalından sonra çar məmurları ermənilləri Rusiya imperiyasının yenicə ələ keçirdiyi ərazilərə köçməyə şirnikdirməyə və beləliklə də xristian əhalinin sayını artırmağa başladı. Ermənilərin köçürüldüyü vilayətlərdən biri də Qarabağ xanlığının ərazisi oldu (erməni-türk münasibətlərinə əngəl törədən bu problem bu gün də qalmaqdadır). Lakin 1820-ci ilədək ermənilərin köçüb gəlməsi kütləvi xarakter daşımırdı. Cənub-qərbi Qafqaz xanlıqları Çərkəzistan və Abxaziyadan əhalisinin daha kompakt yaşaması və nisbətən dinc olması ilə fərqlənirdi. Rusların məcburi köçürmə siyasəti İrəvan xanlığında daha təsirli olmuşdu.

## 1827-1829-cu illər: böyük köçürülmələrin başlanğıcı

1827-ci ildə Rusiya iki böyük müsəlman imperiyasının – Osmanlı imperiyasının və İranın işğalı ilə ciddi məşğul olmağa başladı. İki qısa müharibədə Rusiya əvvəlcə İran, sonra isə türklər üzərində qələbə çaldı. Rusların qəniməti Cənubi Qafqaz torpaqları oldu. Bundan sonra Rusiyaya ələ keçirdiyi ərazilərdə əhalinin yeni tərkibini formalaşdırmaq yolu ilə sakitliyi təmin etmək lazım idi. Çarizmin işğal etdiyi yeni ərazilərə ruslar və digər slavyanlar köçürülürdü ki, bu da tez-tez yerli türkdilli əhalinin qovulması ilə müşayiət olunurdu. Rus ərazilərinin uzaqlığı və Cənubi Qafqaza köçməyə qadir olan və bunu istəyən slavyanların kifayət qədər olmaması üzündən ruslar erməniləri həmin ərazilərə köçməyə təhrik edirdilər. Qovulmuş türklərin və digər müsəlmanların torpaqlarını ermənilər böyük həvəslə tuturdular.



İrəvan quberniyasında əhalinin tərkibinin dəyişməsi buna əyani misaldır. 1827-ci ildə İran imperiyasının əyaləti olmuş İrəvan quberniyası indiki Ermənistan SSR-dır*. Bunun nəzərə alınması böyük əhəmiyyə malikdir. Bu əyalətin əhalisinin əksəriyyətini müsəlmanlar, əsasən türklər təşkil edirdi. İşğal zamanı ruslar İrəvan xanlığının müsəlman əhalisinin təxminən 30 faizini məhv etdilər, yaxud öz torpaqlarından qovdular. Onları İrandan və Osmanlı imperiyasından olan ermənilərlə əvəz etdilər. Bununla belə, ancaq XIX əsrin ikinci yarısında (*sonrakı qovulmalar və köçürmələr nəticəsində*) indiki Ermənistan ərazisində əhalinin tərkibinə görə ermənilər üctünlük təşkil etdilər.

1827-1829-cu illər müharibələrinin nəticələri hələ sonralar baş verəcək hadisələrin prototipi oldu. Çoxlu müsəlmanlar, əsasən də türklər öz torpaqlarından ruslar tərəfindən qovuldu. Digərləri rus təbəəsi olmaq istəmədikləri üçün öz doğma vətənlərini tərk etdi. Osmanlı imperiyasında rusların Ərzuruma çatdıqları rus-türk müharibəsi dövründə bütün işğal olunmuş əraziləri onların əldə saxlaya biləcəyinə ümid edən ermənilərin bəziləri rus qoşunlarına kömək edirdi. Avropa dövlətləri Rusiyanı işğal etdiyi torpaqları qaytarmağa məcbur etdikdə isə ermənilərin çoxu rus qoşunları ilə getdi. Sözsüz ki, onların bəziləri öz həyatı üçün təşviş keçirir, digərləri isə sultan hakimiyyəti ilə müqayisədə çar hakimiyyətinə üstünlük verirdi. İrəvanı tərk edən müsəlmanlar kimi, onların da loyallığı dini xarakter daşıyırdı. Onların ruslarla getməsinin səbəbi də bundan irəli gəlirdi. Bir çox mənbələrin məlumatlarına görə o zaman 10 min erməni ailəsi Şərqi Anadolunu tərk edərək Rusiya tərəfindən işğal olunmuş torpaqlara köçmüşdü.

---

* ***Ermənistan Respublikası.***

Sonrakı 100 il ərzində baş verən demoqrafik dəyişikliklər 1827-1829-cu illər müharibələri dövründə olduğu kimi davam etmişdi.

Baş verən müharibələrdə osmanlılar ruslara məğlub olurdu.

Müharibələr zamanı Osmanlı imperiyasının ərazilərində yaşayan ermənilərin çoxu rus işğalçılarına kömək edirdi. Rus ərazilərində yaşayan müsəlmanların çoxu isə osmanlılara yardım edirdi.

Ruslara işğal etdikləri torpaqlarda qalmaq imkanı verilmədi. Qüvvələr tarazlığının pozulmasından nigarançılıq keçirən digər Avropa dövlətləri onları bəzi torpaqları osmanlılara qaytarmağa məcbur etdilər.

Müharibə vaxtı olduğu kimi, ondan sonra da Rusiyanın zəbt etdiyi ərazilərdə yaşayan türklər və digər müsəlmanlar Osmanlı imperiyasına qaçırdı.

Ruslar imtina etməyə məcbur edildikləri torpaqları tərk etdikdə ən azı on minlərlə erməni onlarla birlikdə getdi.

Müharibələrarası dövrdə ermənilərin və türklərin bir çoxu öz ailələri ilə birləşmək, iş yeri tapmaq, daha az vergi vermək və s. səbəblərdən, yaxud sadəcə olaraq dini və etnik cəhətdən onlarla birlik təşkil edənlərlə bir yerdə yaşamaq məqsədilə mühacirət edirdilər.

Hətta müharibələr arası dövrlərdə belə Rusiya imperiyası erməniləri köçməyə şirnikdirirdi. Şirnikdirmə metodları isə indikindən fərqlənmirdi – vergi güzəştləri və işlə təmin olunma. Rusiyanın Qafqazdakı ucqar əyalətlərinə köçən ermənilər azad, yaxud ucuz torpaq sahəsi vermək və əsas rus vergilərindən azad etmək barədə vədlərlə şirnikdirilirdilər. Bu vədlərin çox vaxt yerinə yetirilməməsinə və ermənilərin bir hissəsinin Osmanlı imperiyasına qayıtmasına baxmayaraq, ruslar mümkün qədər çox erməninin köçməyə



cəlb olunması üçün kifayət edəcək qədər həvəsləndirici amil yaradırdılar. Daha böyük inkişaf səviyyəsi və deməli Osmanlı imperiyası ilə müqayisədə Rusiyadakı daha yüksək həyat səviyyəsi xususilə inandırıcı görünürdü. Osmanlıların vəziyyəti daha ağır idi. Onlar indi üçüncü ölkələrin iqtisadiyyatı adlanan sahədə islahatlar aparır və rusların təkrar olunan basqınlarını dəf edirdilər. Nəticədə Rusiya ərazilərində mövcud olan üstünlükləri təmin edə bilmirdilər.

Rusların Qafqazdakı əyalətlərində neft tapıldıqdan sonra ruslar neftlə zəngin olan Bakıda və ətraf rayonlarda əhalinin əsasən türklərdən ibarət olmasına baxmayaraq, erməni sahibkarlarına açıq-aşkar lütfkarlıq göstərirdilər. Əlbəttə ki, bu, ermənilərin köçüb gəlməsi üçün yaxşı iqtisadi maraq rolunu oynayırdı.

Lakin ermənilər təkcə Rusiyaya mühacirət etmirdildər. Onlar Şərqi Anadoludan İstambula və Qərbi Anadolunun və Osmanlı Avropasının digər şəhərlərinə köçürdülər. Özü də, sonuncuların sayı Rusiyaya köçənlərdən olduqca çox idi. Bu onunla izah olunur ki, Şərqi Anadolu pis həyat şəraiti ilə seçilən region idi. Odur ki, ermənilər və digər xalqlar hələ Bizans imperiyası dövründən başlayaraq oranı tərk edirdilər. Sonuncu yüzillik ərzində onlar digər xarici ölkələrə, xüsusilə də ABŞ-a köçürdülər.

### Digər müharibələr

XIX əsrdə daha iki müharibə ermənilər və müsəlmanlar arasında gərginliyin artmasına və əhalinin mühacirətinin güclənməsinə şərait yaratmışdı.

Krım müharibəsi dövründə (1854-1856) Rusiya Şərqi Anadoluya soxuldu, lakin İngiltərənin, Fransanın və Os-

manlı imperiyasının birləşmiş qüvvələri tərəfindən məruz qoyulduğu məğlubiyyət nəticəsində geri çəkilməli oldu. Bu müharibə barədə Şərqdə məlumat az idi, lakin dəqiq məlum idi ki, ermənilər geri çəkilən rusların ardınca gedərək Rusiyanın İrəvan Quberniyasında məskunlaşdılar və beləliklə də əvvəlki türk əyalətini erməni əhalisinin üstünlük təşkil etməyə başladığı vilayətə çevirdilər. Bu müharibə dövründə və ondan sonra da yüz minlərlə türkün məcburiyyət qarşısında qalaraq köçmələri barədə yuxarıda söhbət getmişdir.



1854-1877-ci illərdə rus işğalı regionu

1877-ci ildə Rusiya yenidən Osmanlı imperiyasına müharibə elan etdi. Krım müharibəsindən fərqli olaraq bu müharibədəki hadisələr barəsində Şərqdə daha çox məlumat var. Sərhədin hər iki tərəfində müsəlmanlar türklərə, ermənilər isə ruslara yardım göstərir, beləliklə də öz hökumətlərinə münasibətdə lazımi itaətkarlıq göstərmirdilər. Bütün Qərbi Qafqazda qalan müsəlmanlar üsyan edir və osmanlıların uğursuz hücumu zamanı onlara kömək edirdilər. Bəzilərinə bu öz həyatı bahasına başa gəldi, digərləri isə mühacirət etməyə məcbur oldular.

Rusların basqın etdiyi Eleşkirt vadisində erməni əhalisi onların tərəfinə keçdi. Şərqin əsas şəhəri olan Ərzurumu zəbt etmiş ruslar erməni millətindən olan bir nəfəri polis rəisi təyin etdilər. 6.000 müsəlman ailəsi xilas olmaq üçün şəhərdən qaçdı. İngilis səfirinin məlumatına görə ruslar Ərzurumu tutduqda onların himayəsindən istifadə edən ermənilər imkan düşdükcə müsəlman əhalisini terror edirdilər. Aydın olurdu ki, hansı tərəfin hakimiyyəti altında yaşamalarından asılı olmayaraq, bütünlüklə ermənilər rusların, müsəlmanlar isə osmanlıların tərəfkeşinə çevrilirdilər.



1878-ci ildə müharibənin sonuna yaxın Osmanlı Şərqinin müsəlman və xristian əhalisinin qütbləşməsi əhəmiyyətli dərəcədə gücləndi. Avropa dövlətləri rusları zəbt etdikləri osmanlı torpaqlarından yarısını tərk etməyə məcbur etdilər. Bu zaman, çoxu Elişkirt vadisinin sakini olan ən azı 25.000 erməni rus qoşunlarını müşayiət edirdi. 60.000-dən çox müsəlman ruslar tərəfindən zəbt olunmuş Qars və Ərdağan ərazilərini tərk etdi. Çərkəzlərə və abxazlara qarşı təsirli olmuş eyni taktikadan istifadə edən ruslar Qara dəniz sahillərində ən azı 40.000 müsəlman lazı mühacirət etməyə məcbur etdi. Həmin torpaqları xristianlar – əsasən Cənub-Mərkəzi Qafqazdan olan gürcülər tutdular. Beləliklə, Rus imperiyası Batum, Qars və Ərdağana malik oldu. Müsəlmanların köçüb getməsi, ermənilərin və gürcülərin isə onların yerinə gəlməsi nəticəsində həmin ərazilərdə əhalinin tərkibi tez bir zamanda dəyişir və Birinci Dünya müharibəsinə kimi bu belə dapvam edirdi.

## Əsas məqamlar

Tatarlar adlanan türk qrupunun payına düşən iztirablara tarixdə çox az xalqlar məruz qalmışlar. Bir vaxtlar onlar Krımda, həmçinin Ukrayna və Rusiya Sovet Sosialist Respublikalarının* cənubunda yerləşən ərazilərdə və Şimalı Qafqazda yaşayırdılar. Qətllər, qovulmalar, qanunsuz vergilər və digər inzibati təzyiq vasitələri ilə onlar çar hö-

* *Ukrayna Respublikası və Rusiya Federasiyası*

kuməti tərəfindən öz torpaqlarından qovulmuşlar. Krımda qalmış az bir hissə isə İkinci Dünya müharibəsi zamanı Stalin tərəfindən Orta Asiyaya sürgün edilmişlər. Buna baxmayaraq, onlar genosid qurbanları kimi çox nadir halda yada salınmışlar, bəlkə də ümumiyyətlə bu heç vaxt baş verməmişdir. Belə etinasızlığın səbəbi nə ilə bağlıdır? Onların taleyi tarixçilər tərəfindən yaxşı sənədləşdirilmişdir. Odur ki, bunun səbəbi onların tarixini bilməməklə izah oluna bilməz. Əvvəllər çərkəzlərə və abxazlara qarşı olan rus əməliyyatlarına da belə etinasızlıq göstərilmişdi.

XIX əsrdə avropalılar və amerikalılar arasında müsəlmanlara zülm etmək imkanını inkar edən rəy üstünlük təşkil edirdi. O zaman Qərb sakinləri, bir qayda olaraq, müsəlmanların özlərinə zülmkar kimi baxırdı. Bu rəy bizim günlərdə də qüvvədə qalırmı?

2. Birinci erməni-türk konflikti rus ekspansiyası nəticəsində, sonuncu isə Birinci Dünya müharibəsi zamanı, yenə də rus ekspansiyası şəraitində baş vermişdir. Osmanlı torpaqlarına olan rus maraqlarının tarixi çərçivəsində sual ortaya çıxır: bu təsadüfən ola bilərdimi?

İkinci Dünya müharibəsindəki qələbədən dərhal sonra Stalin bir vaxtlar çarizm tərəfindən zəbt edilmiş Şərqi Anadolu torpaqlarının ona verilməsini tələb etdi. Türkiyə, Birləşmiş Ştatlar və onların müttəfiqləri bu tələblərə qarşı çıxdılar. Sovetlər çarizm tərəfində ələ keçirilmiş Qafqaz regionundakı bütün torpaqları özlərində saxladılar. Ermənilərin və türklərin tarixinə eyni zamanda rusların niyyətini təhlil etmədən baxmaq mümkün deyil.

3. Bütün tarix boyu müxtəlif imperiyalar özgə torpaqlarını zəbt etmiş və mahiyyətcə bunu öz var-dövlətini artırmaq məcburiyyətində qalan varlılar kimi başqa çıxaş yolunun olmaması ilə izah etmişlər. Sadəcə olaraq onlar torpaqları ona görə zəbt edirlər ki, sonuncular məhz bunun üçün mövcuddur. Rus istilalarının da aydın motivi vardı. Alimlər adətən bunu iki cür izar edirdilər:

– ticarət və öz hərbi gücünün artırılması üçün Rusiyanın isti dəniz limanlarına ehtiyacı vardı;

– əzəli rus torpaqları uzun müddət monqolların əsarəti altında olmuşdu. Nəticədə bu ruslarda yenidən qonşuları tərəfindən işğal olunmaq imkanı qarşısında daimi qorxu hissi yaratmışdı. Elə bu səbəbdən də Rusiya qonşu ərazilərin qabaqlayıcı işğalı siyasətini yürüdür, özü ilə ehtimal olunan rəqibləri arasında bufer zonası yaradırdı.

Ehtimal ki, bu faktlar rusların Krımdakı və Qafqazdakı hərəkətlərini izah etməyə kömək edir. Osmanlılar məhz rusların ələ keçirmək arzusunda olduqları isti limanlara nəzarət edirdilər. Rusiyanın ucqarları ilə ümumi sərhəd təşkil edən vilayətlərdə slavyanların və digər xristian xalqlarının yerləşdirilməsi (bu mümkün olduğu yerlərdə) Rusiya ətrafında olan bufer zonasının genişləndirilməsi üsullarından biri idi.

## III fəsil

## İNQİLABİ MİLLƏTÇİLİK

### Millətçilik və erməni inqilabçıları

Ərazisində çoxsaylı xalqlar yaşayan Osmanlı imperiyasının süqutunun əsas səbəblərindən biri millətçilik oldu. Orada yaşayan xalqlardan hər biri ayrıca milli dövlət yaratmaq istəsəydi Avstriya və digər böyük imperiyalar kimi, Osmanlı imperiyası da uzunömürlü ola bilməzdi. Millətçilik baş qaldıran kimi xalqların birgə yaşaması mümkünsüz oldu. Uebsterin universitet lüğəti millətçiliyin mahiyyətini dəqiq izah edir: "***Millətçilik – milli şüurun bir milləti digər bütün millətlərdən uca tutduğu, öz mədəniyyət və maraqlarının başqa millətlərin, yaxud böyük etnik qrupların mədəniyyət və maraqları üzərində ucalmasına xüsu diqqət yetirdiyi bir şəraitdə millətə vəfalı və sədaqətli olmaq deməkdir***". Başqalarının zərərinə olaraq öz qrupu ilə hədsiz dərəcədə öyünən kəs çoxmillətli imperiyada yola gedə bilməzdi.

XIX əsrdə Osmanlı erməniləri özlərini millət hesab etməyə başladılar. "***Millət***" – heç vaxt özünün asan izahını tapmayan anlayışdır. Adətən, lüğətlər milləti "***bir və ya daha çox milliyyətdən ibarət olan insanların birliyi***" kimi müəyyən edir. "***Milliyyət***" isə "***millətə mənsub olmaq***" kimi müəyyən olunur ki, bu da həmin anlayışın formalaşdırılması zamanı müəyyən problemlər yaradır. Çox vaxt millət



"***xalq***" kimi müəyyən olunur, lakin bu zaman xalqa hər hansı bir anlayış verilmir. Aydındır ki, belə anlayış dəqiq deyil. Bəzən millətin dil birlıyinə əsaslandığı zənn edilir, lakin tez-tez başqa cür də düşünülür. Bəziləri millətin ümumi mədəniyyətlə möhkəmlənməsi üzərində israr edirlər, ancaq çoxları bununla razılaşmır. Belə ki, "***mədəniyyət***" anlayışının özü qeyri-müəyyəndir. XIX əsrdə millətçiliyin əhəmiyyətli dərəcədə qüvvə topladığı bir vaxtda çoxları onu ruh, yaxud mənəviyyat birliyi (xüsusiyyəti, məxsusluğu) kimi müəyyən edirdi. Millətçilik tez bir zamanda amerikalılar və avropalılar arasında hamılıqla qəbul olunmuş "***irq***" ideyası ilə bağlı idi. Almanlar özlərini ruh birliyi ilə müəyyən olunan german irqinin bir hissəsi hesab edirdilər. İngilislər, fransızlar və hətta amerikalılar hər biri ayrılıqda öz üzvlərini birləşdirən fərdi ruha malik irq hesab olunurdular. Hər bir "***irqi qrup***" özünü digərlərindən üstün tuturdu.

Ruh birliyi (xüsusiyyəti, məxsusluğu) anlayışını səmərəli müzakirə etmək çətin olduğu üçün bəlkə də millətçiliyin metafizikasını unudaraq ona hər kəsin fərdi eyniləşdirmə işi kimi baxmaq daha yaxşı olar. Beləliklə, bu tədqiqat çərçivəsində özləri belə hesab etdiyi hallarda ermənilərə millət kimi baxılacaqdır.

Millətçilik ideologiyası osmanlı təfəkkürünə yad idi. O, Avropada meydana çıxmış və Osmanlı imperiyasına gətirilmişdi. İmperiyanın mövcud olduğu ilk 400 il ərzində orada məskunlaşmış insan cəmiyyəti dini prinsip əsasında fərqlənirdi. Məsələn, türk, ərəb, kürd sözləri dillərin müəyyən edilməsi üçün istifadə olunsa da, heç vaxt hər hansı millətçilik anlamında istifadə edilmirdi. Eyni zamanda, erməni-qriqorian kilsəsinə mənsub olduqları üçün ermənilər erməni olaraq qalırdılar. Özlərinin Şərqi Anadolu vətənin-

də ermənilər əsasən digər sakinlərlə eyni mədəniyyətə malik idilər. Ermənilərin çoxu, bəlkə də əksəriyyəti öz ana dillərində danışdıqları kimi də türkcə danışırdılar. Hətta bu gün də türk və erməni xörəkləri, türk və erməni xalçaları və digərləri o dərəcədə oxşardır ki, onları bir-birindən fərqləndirmək çox çətindir.

Tarixi olaraq erməniləri başqalarından fərqləndirən dini ənənələr idi. Din erməniləri müsəlmanlardan dəqiq ayırır, lakin eyni zamanda, onları erməni kilsəsini dönük (kafir) hesab edən yunan-pravoslav xristianlardan də fərqləndirirdi. Ermənilərin ibadəti, dini təcrübəsi, eləcə də dini incəsənəti ancaq onlara məxsus olan dəbdəbəli ənənə kimi müstəsnalıq təşkil edirdi. XIX əsrədək "erməni" anlayışı məhz kilsənin sayəsində qalmışdı.

Əvvəlki fəsildə deyildiyi kimi, Osmanlı imperiyası ermənilərin və digər qrupların dini fərdiliyini müdafiə edirdi. Bu kilsənin mövcud olmasına imkan verirdi. Lakin bu, osmanlılır üçün də sərfəli idi. İstambullu erməni patriarxının başçılıq etdiyi erməni din xadimləri hökumətdən asılı idilər. Onlar bütünlüklə Osmanlı sistemini müdafiə edir, əvəzində özləri üçün imtiyazlı vəziyyət, öz kilsələri və xalqı üçün isə xeyir əldə edirdilər. XIX əsrin sonunadək dini eyniləşdirmə sistemi saxlandı, lakin sonra köklü şəkildə milli eyniləşdirmə istiqamətində dəyişdi.

**Erməni millətçiliyinin dini katalizatoru**

Erməni kilsəsi erməni ənənələrinin qoruyucusu idi, elə buna görə də təbii ki, erməni millətçiliyinin inkişafının ilk addımları onunla bağlı idi. Erməni-qriqorian kilsəsi və



Qərb missionerləri ilkin dövrdə millətçiliyin inkişafına böyük xidmətlər göstərmişlər.

Ermənilərə təsir göstərmiş ilk Qərb missionerləri erməni kilsəsini katolisizmin ağuşuna gətirmək cəhdi ilə Anadoluya səyahət edən katoliklər olmuşlar. Ermənilərin bir hissəsinin yeni erməni katolik uniat (birlik, ittifaq – A.Ə.) kilsəsinə qoşulmasına baxmayaraq ilk dövrlərdə katoliklərin cəhdləri əsasən uğursuz alındı. Ən böyük nailiyyəti onlar yazı və mədəniyyətin dirçəlməsinin stimullaşdırılması sahəsində əldə etdilər. Mxitar Sebatski adlı erməni son nəticə olaraq Venesiyada yerləşmiş erməni katolik ordeninin əsasını qoydu. Mxitar və onun ardıcılları erməni ədəbiyyatını klassik erməni dilinin və onun dialektlərinin lüğətləri, tarixi və digər işlərlə zənginləşdirdilər. Bəlkə də məhz onların və onlarla həmqəbiləli olanların Avropaya yol açması bundan az əhəmiyyətli deyil. 1831-ci ildə sultan erməni katolik millətini tanıdı. Bu andan erməni və Avropa katolikləri Qərb təhsilinin ermənilər arasında yayılmasının alətinə çevrildilər. Ermənilər arasında təhsilin yayılması işində və onların millətçiliyinin inkişafında Amerika protestant kilsələrinin missioner fəaliyyəti böyük qüvvəyə malik idi.

**Amerika missionerləri**

Amerika missionerləri ilk dəfə Osmanlı imperiyasında müsəlmanlar da daxil edilməklə yerli əhaliyə konqreqasionalizın və presviterianlıq növündə protestant xristianlığı qəbul etdirmək məqsədi ilə gəlmişdilər. Onlar imperiyaya Xarici Missiyalar üzrə Amerika Müvəkkillər İdarəsi tərə-

fındən göndərilmişdilər. Müsəlmanlar və yəhudilər onların öz dinlərindən döndərilməsi cəhdlərinə etinasızlıq göstərdilər, yunanlar isə bütünlüklə yunan pravoslavlığının tərəfdarı olaraq qaldılar. Son nəticə olaraq missionerlər və ermənilər arasındakı münasibətlər amerika ictimai rəyinin türklərə qarşı səfərbər edilməsində (aşağıda baxılacaq) son dərəcə mühüm rol oynamalı idi. Lakin missionerlərin erməni millətçiliyinin inkişaf etdirilməsinə hansı şəkildə təsir etməsi də böyük maraq doğurur.

Təbiidir ki, missionerlərin məqsədi öz dininə döndərmə məqsədi daşıyırdı. Bunun üçün əsas vasitə təhsil idi. Amerika tədris planları və metodları üzrə dərs keçilən məktəblərin yaradılması həm ermənilər, həm də missionerlər üçün uğurlu oldu. Ermənilər bunu Qərbin bir hissəsi olmaq, qərbləşmə ilə gələn qiymətli hər nə varsa onu əldə etmək üçün nadir imkan kimi qəbul etdilər. Missionerlər isə məktəblərə məzlum hesab etdikləri xristian qardaşlarına kömək etmək imkanı kimi baxır, istər uşaqları, istərsə də onların valideynlərini ermənilər üçün yeni olan dinə döndərməyə çalışırdılar. Missionerlər türklər tərəfindən hər hansı əks təsirə rast gəlmədilər. Millətlər sisteminin mövcudluğu şəraitində xristian təhsili onları rahatsız etmirdi. Lakin protestantizmin müdaxiləsindən hiddətlənmiş erməni kilsəsi güclü müqavimət göstərdi. Ancaq erməni tələbələri təhsilin üstünlüyünü dərk edirdilər, missionerlər isə erməni patriarxatının müqavimətini dəf etmək üçün İngiltərə və Amerika siyasi nüfuzundan istifadə edirdilər. Son nəticə olaraq qarşıdurma aradan qaldırıldı və məktəblər çiçəklənməyə başladı. Onların sayı 1845-ci ildə 7-dən 1913-cü ildə 26 000 şagirdlə 450-yə çatdı.



Amerika məktəbləri erməni millətçiliyinin mərkəzinə çevrildi. Missionerlərin çoxu erməni millətçiliyinə, hətta erməni inqilabına rəğbət göstərirdi. Lakin bu məktəblərdə özözlüyündə millətçilik ideyaları tədris olunmurdu. Tələbələr və bəzi erməni professorları özləri millətçi qrupları təşkil edirdilər. Ermənilər arasında millətçiliyin missionerlər tərəfindən təbliğ olunması hələ çox cüzi hiss olunurdu. Yalnız onlar özlərinin də dərindən inandıqları xristian üstünlüyü hisslərini birbaşa, yaxud dolayı yolla şagirdlərə aşılayırdılar. Öz təbliğatlarında, həmçinin irq ideyasından (onun Qərb anlamında) metodiki olaraq istifadə edirdilər. Amerika İdarəsinin rəsmi nəşrində deyildiyi kimi: "***Onlar (ermənilər) – Şərqin anqlosaksı adlandırılan alicənab irqidirlər. Onların mənəvi normaları da ətraflarında yaşayan türklər üzərində sonsuz üstünlüyə malik olmalarından xəbər verir. Onlar malik olduqları vicdana təsir etmək, onu oyatmaq olar***" [1].

Missionerlərin və onların tərəfdarlarının başa düşdükləri kimi qəbul olunmuş xristian və irqi üstünlük ideyaları erməni millətçiliyinin psixoloji əsasını təşkil etdi.

Xristian üstünlüyü görüntüsünün təsdiqi sanki, həqiqətən də mövcud idi. XIX əsr başa çatarkən həqiqətən də ermənilər türklərdən varlı idilər. Avropanın və Amerikanın komersantları onlara yerli ticarət vasitəçiləri kimi hörmətlə yanaşırdılar. Aldıqları təhsil onları kommersiyanın, sənayenin və təşkilati fəaliyyətin Qərb metodları ilə tanış etmişdi. Osmanlıların təhsil və kommersiya sistemi təkmilləşdirildikdən sonra müsəlmanlar da nailiyyətlər əldə etməyə başladılar. Lakin bu lazım olduğundan ləng gedirdi. Ermənilərin nə təhsil almaq imkanları, nə də Qərb nümayən-

dələrinin ermənilərə verdikləri imtiyazlar onlar üçün əlçatan deyildi. Nəticədə ermənilər və türklər arasında mövcud olan iqtisadi uyğunsuzluq getdikcə artırdı. Bu gün biz etiraf edirik ki, adətən azlıqlardan hər hansı birinə üstünlük verilən inkişaf etməkdə olan ölkələrdə belə şərait mövcud olur. Aydındır ki, hər şeydən əvvəl "pis irqə" mənsubluq deyil, məhz imkan çatışmazlığı iqtisadi geriləməyə səbəb olur. Lakin sosial darvinizm və irqi düşüncə əsrində müqayisəli var-dövlətin "irqi" üstünlüyün məhsulu olmasına inanmaq asan idi.

Amerika məktəblərinin erməni millətçilərinə kömək etdikləri dolayı vasitəçilik yollarından biri Birləşmiş Ştatlarla əlaqələrin inkişaf etdirilməsi idi. Missionerlər erməni tələbələrinin və erməni protestantların Amerikaya səfərlərini maliyyələşdirirdilər. Ermənilərin Amerikaya axınının arası kəsilmirdi. Bu, Birləşmiş Ştatlarda və Kanadada olan bugünkü böyük erməni icmalarının yaranmasının əsasını qoyurdu. Ermənilərin inqilabçı təşkilatları Amerikada olan ermənilər arasında aktiv iş aparırdılar. Oradan olduqca böyük maliyyə yardımı daxil olurdu. Bundan başqa, ermənilər Osmanlı imperiyasına Amerika pasportu ilə qayıtmaq imkanına malik idilər. Bu ermənilər Siyahıların (xarici vətəndaşların Osmanlı qanunları ilə məhkum olunmasına yol verməyən razılaşmalar) verdiyi üstünlüklərdən istifadə edərək öz məqsədlərinə çatmaq üçün daha açıq fəaliyyət göstərə bilirdilər. Eləcə də Amerikada olan ermənilər Amerika ictimai rəyinə böyük təsir göstərirdilər. Birləşmiş Ştatlarda hər hansı bir nüfuzlu türk icması olmadığı üçün bu ölkədə ancaq ermənilərin səsi eşidilirdi.



**Osmanlıların mövqeyi**

İşin əsl mahiyyətini aydınlaşdırmaq üçün Osmanlı hakimiyyətinin Qərbdə yaradılan ənənəvi obrazını onların real hərəkətləri ilə müqayisə etmək ibrətamiz olardı. Bir qayda olaraq, orada osmanlıları erməni tərəqqisinin qarşısını kəsən, ermənilərin qanuni, mədəni və siyasi özünüifadə hüquqlarını heçə endirən dəfolunmaz bir maneə kimi təsvir edirdilər. Buna ermənilərin türklərə qarşı qiyam qaldırmasına mənəvi bəraət verən hal kimi istinad olunurdu. Əslində isə türklər elə dözümlülük göstərmişdilər ki, bu onlara qarşı qiyamın hazırlanmasında özlərinin iştirak etdiklərini haqlı olaraq təsdiq etməyə əsas verirdi. Tarixi sənədlər göstərir ki, türklər həmişə dini plüralizmə yol vermişlər. XIX əsrdə onların dözümlülüyü o həddə çatdı ki, onlar hətta erməniləri millətçiliyə öyrədən, onlara təhsil verən və bununla da müsəlman həmvətənliləri ilə müqayisədə onların iqtisadi üstünlüyünü təmin edən xarici vətəndaşlar tərəfindən idarə olunan ayrıca təhsil sisteminin qəbul olunmasına yol verdilər. Hər halda türklər bütün bunlara dözürdülər. Niyə? Ədəbsiz adam deyərdi ki, türklər erməniləri himayə etmədikləri halda Avropanın müdaxilə edəcəyindən qorxduqları üçün bütün bunlara dözürdülər. Əlbəttə ki, bunda müəyyən həqiqət var. Türklər ruslara qarşı mübarizədə yardım almaq üçün İngiltərənin tərəfkeşliyinə nail olmağı xüsusilə istəyirdilər. Lakin İngiltərə öz tərəfkeşliyini yalnız rəsmi bəyanatlarla məhdudlaşdırırdı. O, Osmanlı Anadolusunda cari işlərə təsir göstərməyə kifayət edəcək imkanlara malik deyildi. Bundan başqa, 1907-ci ildə İngiltərə öz siyasətini dəyişərək ruslarla bir mövqedə durduqdan

sonra daha heç nə türkləri belə davranmağa məcbur etmirdi. Hər halda osmanlılar açıq etiraf olunmuş məqsədi təhsil sahəsində əhalinin bir hissəsinin çoxluq üzərində üstünlüyünü təmin etmək olan geniş protestant təhsil sisteminin fəaliyyət göstərməsinə imkan verirdilər. Hətta ermənilərin sadəcə dini qrup səviyyəsindən hakim dairənin malik olduğu mövqeyə qaldırırılması belə ehtimal olunurdu.

Osmanlı hökuməti üçün missioner təhsil müəssisələrinin fəaliyyətini dayandırmaq xüsusi çətinlik yaratmırdı. Hətta xırda bürokratik maneələr belə həmin fəaliyyəti poza bilərdi. Məsələn, inşaatçılar çatışmaya, yaxud məktəb tikintisi üçün verilmiş icazə haradasa yoxa çıxa bilərdi. Hər hansı fəaliyyətin başlanması üçün çoxsaylı sənədlər tələb oluna bilərdi. Kitab yükləri heç zaman öz ünvanına çatmazdı. "*Vətəndaş qarşıdurmalarına yol verilməməsi üçün*" bütöv vilayətlər xarici vətəndaşlar üçün bağlana bilərdi. XIX əsrin çox hissəsi ərzində Osmanlı imperiyasında heç vaxt demokratik hökumət olmamışdı, odur ki, mərkəzi hakimiyyət missionerləri dayandırmaq üçün bütün bunları edə bilərdi. Əgər türkləri tənqid edənlər haqlıdırlarsa, şübhəsiz ki, belə hərəkətlər gözlənilə bilərdi. Təkrar edirik ki, əgər türklər missioner təşkilatlarını bağlamaq istəsəydilər bütün bunları edə bilərdilər. Lakin onlar bunu etmədilər. Türklər öz azlıqlarına münasibətdə həmişə olduğu kimi hərəkət edirdilər, tamamilə izolyasiya olunmuş təhsil sisteminə dövlətə təhlükə yaradanadək dözdülər . Dini dözümlülük ənənələri o dərəcədə kök salmışdı ki, hətta bu təhlükəyə çevrildikdə belə türklər son dərəcə ləng hərəkət edirdilər.



**İnqilabi partiyaları**

Ermənilərin üç inqilabi partiyası – Armenakan, Qnçak və Daşnak XIX əsrin sonuncu rübündə yaradılmışdı.

**Armenakan**

1885-ci ildə yaradılmış Armenakan partiyası məqsədinin erməni dövlətinin yaradılmasına imkan verəcək inqilab olduğunu öz proqramında bəyan edirdi. Bu məqsədlə İstambulda, Şərqi Anadolunun, İranın, Qafqazın və Birləşmiş Ştatların şəhərlərində partiyanın özək qrupları təşkil olunmuşdi. Partiya gizli olaraq Şərqi Anadoluya silah gətirir və müqavimət qrupları təşkil edirdi. Lakin onun inqilabi fəaliyyətinin əsas hissəsi kürdlərin və türklərin məhdud sayının siyasi qətllərinin həyata keçirilməsi idi ki, bu da cavab tədbirlərinə səbəb oldu.

**Qnçakçılar**

İnqilabi Qnçak partiyası böyük nailiyyətlər əldə etdi. 1887-ci ildə ermənilər tərəfindən Cenevrədə (İsveçrə) yaradılmış partiya marksist ideologiyasının təsiri altında idi. Ermənistanın müstəqilliyindən başqa qnçakçılar kapitalistlərə və "*müftəxor ağalara*" qarşı çıxırdılar. İnqilabçılar barəsində yazan tarixçi Luis Nalbandyan onların proqramını belə xarakterizə edirdi: "***Qnçakçılar deyirdilər ki, Türkiyə Ermənistanında mövcud olan ictimai sistem türk hökumətinə qarşı zorakılıq tətbiq etməklə dəyişdirilə bilər***" və aşağıdakı metodları təklif edirdilər: ***"təbliğat, təşviqat, ter-***

*ror, təşkilati iş və fəhlə-kəndli fəallığı"* [2]. Terror nəinki türklərin, eləcə də Qnçakın məqsədlərinə qarşı çıxan ermənilərin öldürülməsini əhatə edirdi. Terror aktlarını həyata keçirəcək xüsusi təşkilatın partiya çərçivəsində formalaşdırılması da nəzərdə tutulurdu. Bəlkə də, bu partiya Rusiya marksist partiyasının güclü təsiri altında olduğu üçün qnçakçılar oz hərəkətlərini marksist sinfi mübarizə kateqoriyaları ilə müəyyən edirdilər. İstambulda yerləşmiş, Avropada və Birləşmiş Ştatlarda tərəfdarları olan qnçakçılar Şərq istiqamətində fəaliyyət göstərirdilər. Onlar, məqsədləri qnçakçıların məqsədləri ilə oxşar olan digər etnik inqilabi qruplarla, məsələn yunanlar və makedoniyalılarla geniş əlaqələr qurmuşdular. Növbəti fəsildə bəhs olunacağı kimi, 1894-cü ildə qnçakçılar Şərqi Anadoluda, o cümlədən də Samsun bölgəsində qiyam qaldırılmasını təşkil etdilər. Onların bandaları bütünlüklə imperiyanın şərqində fəaliyyət göstərirdi.

Qnçakçılar nəinki türk hökumətinin səyləri nəticəsində, çox güman ki, adətən inqilabi qruplarla baş verdiyi kimi, öz sıralarında birliyin olmaması üzündən məğlubiyyətə uğradılar. Buna baxmayaraq, Qnçakın məqsədləri baxımından qnçakçıların Samsunda və Zeytunda qaldırdıqları qiyamlar ümumilikdə uğurlu olmuşdur. Onlar yerli ermənilərin təşkilində, türklərin güclü reaksiya verməyə təhrik edilməsində, Avropanın diqqətinin cəlb olunmasında (baxmayaraq ki, avropalılardan onlara kömək edən az tapıldı) uğurlar əldə etdilər. Lakin onlar təşkilatı saxlaya bilmədilər və 1896-cı ildən başlayaraq partiyadaxili parçalanmalar Qnçakın fəaliyyətinin səmərəsini kəskin şəkildə azatdı. İnqilab səhnəsində onun yerini Daşnak partiyası tutdu.



**Daşnaklar**

İnqilabi qruplardan ən təsirli olanı – Erməni İnqilab Federasiyası (Daşnaksutyun, "Federasiya") Rusiya erməniləri arasında yaradılmışdır. XIX əsrin 60-cı illərindən ermənilərin millətçi və inqilabi qrupları Qafqazda, Moskvada və S.-Peterburqda formalaşdırılmağa başladı. Rusiya hökuməti vaxtaşırı olaraq onları qadağan edir, lakin bu zaman Türkiyə ermənilərinin inqilabını hazırlamaq məramını gizlətməyənlərə açıq-aşkar liberallıq göstrirdi. Bir neçə belə təşkilat birləşərək 1890-cı ildə Tiflisdə Daşnak partiyasını yaratdı.

Daşnak partiyasının Rusiya imperiyasında təşkil olunmasına və onun üzvlərinin Rusiyanın inqilabi partiyaları ilə geniş əlaqələrə malik olmasına baxmayaraq partiyanın manifesti "Türkiyə Ermənistanına" tuşlanmışdı. Onun siyasi və iqtisadi proqramı sosialist yönlü olsa da Qnçakda olduğu qədər radikal ifadə olunmuş deyildi. Terror taktikası nöqteyi-nəzərindən Qnçak kimi Daşnak da ekstremist planlı idi. Partiyanın dərc olunmuş fəaliyyət planları partizan mübarizəsinin, soyğunçuluğun və hökumət idarələrinin dağıdılmasının, Türkiyə rəsmilərinə hücumların təşkilini əhatə edirdi.

Partiyanın təşkilindən dərhal sonra daşnaklar fəaliyyətə başladılar. Partiya işçiləri Rusiya imperiyasından İrana keçirdilər, belə ki, Şimal-Qərbi İran Şərqi Anadolu ilə həmsərhəd idi və Şah hakimiyyəti tərəfindən zəif idarə olunurdu. Yüngül silah istehsalı üzrə fabriklər yaradıldı. Atıcı silah və əsgəri təchizat əşyaları qaçaqmalçılıq yolu ilə Rusiyadan gətirilirdi. İnqilabi qüvvələr və silah anbarları İran-Türkiyə sərhədində baş keşişi qatı inqilabçı olan Derik

monastırı da daxil olmaqla müxtəlif məntəqələrində cəmləşdirilirdi. Daşnaklar oradan Şərqi Anadoluya keçir, erməni partizan dəstələrini təşkil edir və silahlandırırdılar. Daşnak partizan qüvvələrinin şəbəkəsi tədricən bütün Şərqi Anadoluya yayılırdılar.

### Nəticə

Öz imperiyasında missionerlərin və qərbləşmə siyasətinin digər ötürücülərinin fəaliyyətinə yol verərkən osmanlılar bunun gələcək nəticələrini görə bilmədilər. Dini dözümlülük ənənələri, İngiltərə və Amerikanın etimadını qazanmaq istəyi onları missionerləri və missioner məktəblərini qəbul etmək məcburiyyəti qarşısında qoydu. Missioner prosesinə daha geniş nəzarət etmək imkanının olmasına baxmayaraq, onlar bunu etmədilər. Ermənilər arasında millətçiliyin artmasının osmanlı nəzarətindən kənarda olan başqa faktoru da mövcuddur ki, bu da aşağıdakılardan ibarətdir.

Ermənilər həm Rusiyada, həm də Osmanlı imperiyasında yaşayırdılar. Ruslar Qafqazda erməni millətçiliyinin qarşısını almağa çalışsalar da Anadoluda onun artımına kömək etmək onların maraqlarına xidmət edirdi. Türklər Rusiyadan gələn millətçilik və inqilabçılıq ideyalarının yayılmasının qarşısını almaq üçün təsirli imkanlara malik deyildilər. Əgər türklər missioner məktəblərini bağlamaq və Rusiya ilə sərhədi möhkəmlətmək istəsələr və bu cür imkanlara malik olsalar belə çox güman ki, imperiyanın xristian azlığı arasında millətçiliyin qalxmasının qarşısını almaq iqtidarında deyildilər. XIX əsrdə türklər geriləməni



aradan qaldırmaq məqsədi ilə Avropa ilə əlaqələri kəskin surətdə inkişaf etdirdilər. Türkiyəli tələbələr Avropa ölkələrində təhsil alır, Avropa mütəxəssisləri isə türk tələbələrinə dərs demək üçün Türkiyəyə dəvət olunurdular. Ticarət əlaqələri artır, on minlərlə avropalı və amerikalı imperiyaya gəlirdi. Avropalılarla birlikdə Avropada tədrisi adi bir şey olan Avropa ideologiyası və millətçilik ideyaları da gətirilirdi. Təbii ki, onlar Osmanlı imperiyasında yayılırdı. Bundan başqa, erməni tələbələr Avropada sadəcə olaraq millətçilik ideyalarını mənimsəmir, eyni zamanda, millətçilik ideologiyasının əsasını öyrənirdilər.

XIX əsr Avropasında millətçilik hakim siyasi ideologiya idi. Osmanlıların millətçiliklə üzləşməsi qaçılmaz idi. Türklər ancaq ona görə onu ermənilərdən ləng qavrayırdılar ki, sonuncular Avropa ilə sıx bağlı idilər.

### Əsas məqamlar

1. Erməni inqilabçılarının hərəkətləri onunla müəyyən olunurdu ki, tarixi Ermənistanda ermənilər azlıqda idilər. XIX əsr Avropa inqilabçılarının çoxu üçün şərait tamamilə başqa idi. Onlar bu və ya digər ölkədə xalqın çoxunun rəğbətini qazanacaqlarına və onların köməyi, yaxud heç olmasa dinməz razılığı ilə hökuməti devirəcəklərinə ümid edə bilərdilər. İnqilab yalnız milli ola bilər və ancaq kənar müdaxilə olmadan həyata keçirilə bilərdi. Bu çox əhəmiyyətli idi, belə ki, Avropa inqilablarına müdaxilə edən xarici qüvvələr, adətən, onu boğmağa çalışırdılar. 1789-cu il Fransa inqilabını məhz xaricilər məhv etməyə çalışdılar, 1821-ci

ildə Neapolda, 1823-cü ildə İspaniyada, 1849-cu ildə Macarıstanda inqilabı yatırdılar.

Erməni inqilabçılarının məqsədləri başqa idi. Onlar heç vaxt çoxluğun dəstəyini qazanmağa ümid edə bilməzdilər. Belə ki, onların "Ermənistan" adlandırdıqları torpaqlarda müsəlmanlar say hesabı ilə erməniləri üç dəfədən çox üstələyirdilər. Aydındır ki, onlar heç vaxt onlara ağalıq edəcək erməni dövlətinin yaradılmasına razı olmazdılar. Deməli, erməni inqilabı heç vaxt demokratik ola bilməzdi. Ancaq imperializm çoxluğun idarəçiliyinə qarşı çıxa bilərdi. Ermənilərin uğuru ancaq xarici dövlətin müdaxiləsindən və sonradan çoxluğun azlığın hakimiyyətini qəbul etməyə vadar edilməsindən asılı ola bilərdi.

2. Qnçakçıların və daşnakların öz platformalarının əsasını həm sosializm, həm də millətçilik üzərində qurmaları tarixi təsadüf deyil. Onların eyni zamanda həm sosialist, həm də millətçi olmaları faktı rəhbər tutulan siyasi fəlsəfənin Avropa mənşəli olmasını əks etdirir. Bu iki ideologiya Avropa inqilabçılığının və təbii ki, eləcə də erməni inqilabı ideyalarının əsası idi.

3. Ermənilər azlıq təşkil etdikləri üçün onların inqilabı ən əvvəldən iflasa məhkum idi. Müstəqil Ermənistam əldə etməkdə ermənilərə kömək edə bilən yeganə gövlət olan Rusiya da Ermənilərin iddia etdikləri ərazilərə göz tikmişdi. Ruslar Osmanlı imperiyasının dağıdılması işində erməni inqilabçılarına böyük həvəslə kömək edə bilərdilər. Lakin rus istilası nəticəsində əldə olunmuş torpaqları onların kiməsə başqasına verə biləcəkləri inandırıcı deyildi. Odur ki, müsəlmanlar üzərində ancaq Rusiyanın hakimiyyəti bərqərar ola bilərdi.



## IV fəsil

# ŞƏRQDƏ İNQİLAB

### İlk döyüşlər

Erməni inqilabçılarının meydana çıxması Şərqi Anadoluya yeni parçalanma elementi gətirdi. Həmişə Şərqi Anadoludakı şərait, oturaq kənd və şəhər əhalisi olan türklər və kürdlərlə ermənilər arasındakı üçtərəfli gərgin tarazlıq vəziyyəti kimi təzahür edirdi. Türk hökumətinin oturaq əhalinin maraqlarını müdafiə etmək, ictimai asayişi qorumaq və müxtəlif xalqları bir-biri ilə toqquşmadan çəkindirmək bacarığı 1877 - 1878-ci illərdə Rusiya ilə olan müharibənin yaratdığı itkilər və xərclər nəticəsində təhlükə altına düşmüşdü. Lakin buna baxmayaraq, türklər həm adi, həm də jandarma sisteminin (kənd yerlərindəki hərbiləşdirilmiş polisin) təkmilləşdirilməsindən, əyalətlərin daha kiçik inzibati vahidlərə bölünməsindən (rəhbərliyin öz sərəncamlarında olan torpaqlara yaxın olmasının təmin edilməsi üçün), rabitə və nəqliyyat işinin yaxşılaşdırılmasından ibarət olan fövqəladə tədbirlərin köməyi ilə Şərqdə sakitliyi qoruyub-saxlamağa çalışırdılar.

Hətta kürd tayfalarının nümayəndələri Həmidiyyə bölmələri kimi tanınan (cultan II Əbdülhəmidin adı ilə) hərbi qurumların tərkibinə daxil edilirdilər. Osmanlı hakimiyyət dairələri hesab edirdilər ki, xidmətə görə kürdlərə

verilən məvacib, özbaşına buraxıldığı halda onların Şərqin aqrar iqtisadiyyatına vura biləcəkləri zərərdən daha az təşkil edir. Osmanlı hökuməti Şərqdə sakitliyin qorunub saxlanılmasında son dərəcə maraqlı idi. Türklər, onların əsas rəqibi olan Rusiyanın sərhədlərinə bitişik regionlarda baş verə biləcək istənilən iğtişaşlardan çəkinirdilər. 1877-ci ildə Bolqarıstanda olduğu kimi belə iğtişaşlar rusların hərbi müdaxiləsinə səbəb ola bilərdi. Ermənilərlə münasibətdə problemlərin yaranmasının Türkiyənin Qərbdəki maraqlarına böyük zərbə vuracağını da hökumət yaxşı başa düşürdü. Belə ki, kimin təqsirli olmasından asılı olmayaraq, mətbuatda türklər günahlandırılacaqdı. Əlavə edək ki, Osmanlı Türkiyəsi 1908-ci ildə hökumətin dəyişməsinə səbəb olmuş siyasi çətinliklər dövrünü yaşayırdı. Vətəndaş qarşıdurmaları hökumət üçün arzuolunmaz idi. Lakin Türkiyənin Şərqdə sakitlik yaratmaq planları öz məqsədinin təxribat fəaliyyəti olduğunu açıq şəkildə elan etmiş erməni inqilabçılarının hərəkətləri nəticəsində pozuldu.

Erməni inqilabçıları yaranmış beynəlxalq vəziyyətdə öz istəklərinə çatmaq şansı gördülər. Rusiyanın güclənməsinin qüvvələr tarazlığının pozulmasına səbəb ola biləcəyindən çəkinən Britaniya uzun müddət idi ki, Osmanlı imperiyasının ərazi bütövlüyünü müdafiə edirdi. Lakin Almaniyanın Avropada əsas qüvvələrdən birinə çevrilməsilə bağlı Britaniya maraqları tədricən Rusiya ilə yaxınlaşmağa doğru dəyişdi.

Türkiyə özünün Avropadakı əyalətlərində çətinliklərlə üzləşdi. Avropa siyasətçiləri erməni tələblərinə xeyirxah meyl göstərməyə başladılar. Belə görünürdü ki, inqilabın vaxtı artıq yetişmişdir.



**Bolqarıstan dərsi**

Bolqarıstan krallığının yaranmasının kömək etmiş üsyan erməni dövlətinin yaradılması üzrə rəhbərlik rolunu oynadı.

Bolqar inqilabçıları 1876-cı ildə üsyana başladılar.

İlk mərhələdə türk kəndlərində kütləvi qırğınlar törədildi, nəticədə 1000 nəfərə yaxın insan həlak oldu. Bu zaman Serbiyada qiyamın yatırılması ilə məşğul olan türklər Bolqarıstanda üsyana qarşı mübarizəni qeyri-müntəzəm qüvvələrə – üsyan zamanı öldürülmüş türklərin qonşularına tapşırdılar. Üsyan amansızlıqla yatırıldı və nəticədə 3.000-dən 12.000-dək bolqar həlak oldu. Avropa qəzetlərinin səhifələri "bolqar faciəsi" adlandırılan dəhşətli yazılarla doldurulur, lakin bundan əvvəl türklərin kütləvi şəkildə öldürülməsi faktı barədə heç bir məlumat verilmirdi.

Bir çox ölkələrdə, xüsusilə də Britaniyada ictimai rəy türklərə qarşı çevrildi. Britaniya Türkiyəni müdafiə edəcəyinə söz verməsinə baxmayaraq, 1877-ci ildə Rusiya Osmanlı imperiyasına hücum edərkən ictimai rəy Dizrael hökumətini bu məsələyə müdaxilə etməkdən çəkindirdi. Güclü Rusiya ilə təkbətək qalan türklər məğlub edildi və Bolqarstanı tərk etməyə məcbur oldu. Bolqarıstanda olan türk azlığı yarıdan çox azaldı.

260.000 nəfərdən çox Bolqarıstan müsəlmanı öldürüldü, yaxud qaçqınlıq zamanı xəstəlikdən və aclıqdan məhv oldu. Daha 515.000 nəfər ölkədən çıxarıldı. Beləliklə, Bolqarıstanın müsəlman əhalisi 52 faiz azaldı ki, bu da yeni bolqar dövlətinin yaranması üçün möhkəm demoqrafiq əsas yaratdı.

Ermənilər inqilaba hazırlaşarkən Bolqarıstan təcrübəsini nəzərə aldılar. Üsyanın mərhələləri aşağıdakı kimi müəyyən edilmişdi:

1. Üsyançı dəstələri təşkil etmək və silahlandırmaq.

2. Cavab hərəkətlərinə yol verəcəyi ən çox ehtimal olunan insanlara hücum etmək (bu əsasən kürd tayfalarına aid idi). Sərt cavab tədbirləri ermənilərin çoxunun məhv edilməsi ilə nəticələnəcək.

3. Ermənilərin tələf olması Avropanın ictimai rəyinə böyük təsir göstərəcək.

4. Avropanın hərbi müdaxiləsi osmanlıları Şərqi Anadoluda ermənilərə muxtariyyət, bəlkə də müstəqillik verməyə məcbur edəcək.

5. Müsəlman əhalisi yeni Ermənistanı özü tərk edəcək, yaxud oradan güclə çıxarılacaqdır. Türkiyədən, İrandan, Amerikadan və Avropadan olan ermənilər isə ora köçərək istər demoqrafik, istərsə də siyasi cəhətdən erməni dövlətini yaradacaqdır.

Üsyan planının kifayət qədər ətraflı ölçülüb-biçildiyi şübhə doğursa da inqilabçıların özlərinin də etiraf etdikləri aşağıdakı planın həyata keçirilməsi niyyətinin mövcudluğu şübhəsiz idi.

Erməni təşviqatçılarının bilavasitə məqsədinin qeyri-insani qisasçılıq aktlarının törədilməsinə bais olmaq üçün iğtişaşlar yaratmaq, beləliklə də xarici dövlətləri müdaxiləyə təhrik etmək olması ilə Türkiyədəki avropalılar da razılaşırdı. Bu səbəbdən erməni millətçiləri cavab cəza tədbirlərinin hökmən baş verməsi üçün ermənilərin son dərəcə azlıq təşkil etdikləri regionlarda iş aparmağa üstünlük verirdilər.

İnqilabçılardan biri Robert kollecinin banisi doktor Hemlinə danışmışdı ki, qnçak dəstələri "***türkləri və kürdləri öldürmək, onların kəndlərini yandırmaq imkanını qaçırmayacaq və sonra dağlarda gizlənəcəklər. Qəzəblənmiş müsəlmanlar ayağa qalxaraq köməksiz ermənilərə hücum edəcək və bu zaman onları elə vəhşiliklə öldürəcəklər ki, Rusiya humanizm və xristian mədəniyyəti xatirinə müdaxilə edəcək və regionu öz nəzarəti altına alacaqdır***". Dəhşətə gələn missioner bu planı o zamanadək məlum olanlardan ən məkrlisi və amansızı kimi pislədikdə belə cavab almışdır: "***Sözsüz ki, Sizə belə görünür. Lakin biz ermənilər azad olmaqda qətiyyətliyik. Avropa bolqar dəhşətləri barədə nağıllara diqqət yetirdi və Bolqarıstana azadlıq verdi. O, bizim də milyonlarla qadın və uşağın fəryad və qanında əks olunacaq səsimizi eşidəcəkdir. Biz cəsuruq. Biz bunu edəcəyik***"[3].

İnqilab planının iki nöqsanı vardı. Bolqarıstandan fərqli olaraq, yeni Ermənistan üçün nəzərdə tutulan torpaqlarda müsəlmanlar böyük çoxluq təşkil edirdi. Doğrudur beşinci bənd aktiv həyata keçirildiyi halda, bu da keçilməz maneəyə çevrilməzdi. Lakin məlum oldu ki, erməni inqilabının Avropa tərəfindən müdafiə olunması elə də etibarlı deyil.

**İnqilab**

Üsyanın başlanğıcı inqilabçılar üçün uğurlu oldu. Erməni inqilab partiyaları Şərqi Anadoluda kifayət qədər asanlıqla üsyançı dəstələri təşkil etməyə qadir idilər. 1892-1893-cü illərdə bütün Şərqdə çağırış plakatları göründü. İnqilabi özəklər təşkil olundu və fəaliyyətə başlanıldı. Əvvəlcə inqi-

labçıların hərəkətləri geniş miqyaslı deyildi. Onların fəaliyyəti Van şəhərinin qubernatorunun və İstambulun erməni Patriarxının həyatına qəsd etməklə, imperiya poçtuna hücumla, müsəlman kəndlərinə edilən basqınlarla, əsgərlərin və polis işçilərinin öldürülməsi və s. bu kimi əməllərlə məhdudlaşırdı.

1894-cü ildə erməni üsyançılarının böyük bandaları Samsun şəhəri ətrafında türk vəzifəli şəxslərinə, əsasən vergi yığanlara hücum etdi. Bu birinci üsyan aktı idi. Türk Ordusu qiyamın yatırılması üçün göndərilərkən qiyamçılar yol üstündə olan hər bir müsəlman kəndinin sakinlərini öldürərək artıq geri çəkilmişdilər. Ordu da öz növbəsində, əsasən də Həmidiyyə kürd hissələri üsyan rayonunda erməni qırğınları törətdi. 1895-ci ildə analoji üsyan Zeytunda və Vanda törədildi.




Erməni üsyanlarının baş verdiyi ərazilər

Zeytun üsyanı bütün Zeytun-Maraş vilayətinə yayıldı və türk nizami ordusu tərəfindən böyük çətinliklə yatırıldı. Bu zaman hər iki tərəf böyük itkilər verdi. Məsələn, erməni inqilabının rəhbəri onun tərəfdarları tərəfindən 20000 müsəlmanın öldürdüyünü təsdiq edirdi. Bu şişirtmə də ola bilər, lakin hər halda iğtişaşların yayılma miqyasını göstərir.



Vanda üsyanın yatırılması daha asan oldu. Təqribən 400 müsəlman, 1.700 erməni həlak oldu. Digər şəhərlərdə də adam öldürmə cəhdləri, ibadət yerlərinə hücumlar, müsəlmanlar və ermənilər arasında toqquşmalar və epizodik siyasi zorakılıqlar baş verirdi.

Andranikin başçılığı altında olan daşnak bandaları 1903-1904-cü illərdə Zeytunda yeni üsyan qaldırdılar. Erməni hesablamalarına görə bu üsyan1000 nəfər müsəlmanın və 20 nəfər etmənin həlak olması ilə nəticələndi. Göstərilən nisbət şişirdilmiş olsa da Qərb mətbuatı bu hadisələri erməni qırğını kimi qiymətləndirdi. Birinci dünya müharibəsindən əvvəl Adana üsyanı nəticəsində daha faciəvi hadisələr baş verdi. 1909-cu ildə erməni üsyançıları sayca onlardan çox olan müsəlmanlara hücum etdi. Yerli türk qüvvələri zorakılığın qarşısının alınması üçün olduqca zəif idilər. Odur ki, ancaq nizami ordu sakitliyi bərpa edə bildi. 17.000-dən 20.000-dək insan öldürüldü. Onlardan çoxu erməni idi. Erməni üsyançıları təklikdə duruş gətirməyin mümkünsüzlüyünü bilirdilər. "Ərməniyyədə" müsəlmanlardan əhəmiyyətli dərəcədə az olduqları, osmanlı ordusundan olduqca zəif olduqları üçün onlar aşkar məğlubiyyətin astanasında idilər. Onların niyyəti üsyan yolu ilə erməni dövləti qurmaq deyil, 1877-ci ildə rusların Bolqarstana müdaxiləsi zamanı olduğu kimi, Avropanı basqına təhrik etməkdən ibarət idi. Təkcə tələblər kifayət etmədiyi halda, inqilabçıların hərəkətləri sözsüz ki, öz rolunu oynamalı idi. Ermənilərin kürdlərə qarşı ağılsız hücumlarını da ancaq əks qırğınlara səbəb olmaq cəhdi ilə izah etmək olar. Belə hücumlar maştabca kiçik olan üsyançı əməliyyatlarının səciyyəvi xüsusiyyətiydi.

Şübhəsiz ki, kürd tayfaları nümayəndələrini cavab repressiyalarına səbəb olmaq ümidi ilə öldürürdülər. Belə cavab tədbirləri Avropanı hövsələdən çıxarmalı idi. Məsələn, 1994-cü il Samsun ixtişaşları öncəsi ermənilər Behran və Zadian tayfalarına hücum etmiş, nəticədə erməni inqilabçıları ilə kürd tayfaları arasında döyüşlər baş vermişdi. Başqa bir hal: 1897-ci ildə 250 nəfər erməni inqilabçısı Mazrik tayfasına hücum etmiş, lakin geri çəkilməyə məcbur olmuşdular.

Beləliklə, inqilabçıların planının ikinci bəndi uğurla həyata keçirilirdi. Müsəlmanlara hücumlar edilir, onlar da həmin üsulla cavab verirdilər. Üsyançıların verdiyi itkiləri hesablamaq çətindir. Lakin ehtimal etmək olar ki, ermənilər və müsəlmanlar arasında qurbanların sayı 4-ün 5-ə nisbətində olmuşdur.

Üçüncü bənd də mümkün oldu. Avropa qəzetləri türklərin ermənilərə hücum etmələri barədə yazılarla dolu olurdu, lakin ermənilərin türklərə qarşı olan hücumları haqqında demək olar ki, heç vaxt məlumat dərc edilmirdi. Türklərin cavab reaksiyasına səbəb olan erməni üsyanları çox nadir hallarda yada salınırdı. Xristianları ən yaxşı cəhətdən təsvir etməkdə və digər xalqların mövqeyinə etinasızlıq göstərməkdə Avropa və Amerika mətbuatına güvənmək olardı. Qərb xurafatının gücü baxımından təbliğat təsirli idi. Lakin buna baxmayaraq, ümid bəslənilən müdaxilə baş vermədi. Avropada qüvvələrin tarazlığı dəyişməkdə idi: Almaniyanın qüdrəti artır, Rusiya, Fransa və İngiltərə isə Yaxın Şərq avantürasına qoşulmaqdan çəkinirdi. Rusiyanın erməni inqilabının Qafqaz ermənilərini də ayağa qaldıra biləcəyindən qorxmağa əsası vardı. O, erməni dövləti yaratmaqla bağlı olan ağır mənəvi yükü daşımadan Şərqi Anadolunu əldə etmək istəyirdi. Avropadan heç bir kömək gəlmədi, osmanlılar isə üsyanı yatıra bildilər.



### Şərq xalqlarına təsir göstərilməsi

1894-1909-cu il üsyanlarının ən əhəmiyyətli nəticəsi Şərqi Anadolu əhalisinin şüuruna olan təsirdən ibarətdir. Yadda saxlamaq lazımdır ki, 1890-cı il inqilabı xristian nəzarəti altına düşmüş Qafqaz müsəlmanlarının zorakılıqla deportasiya olunması və öldürülməsindən 70 il sonra baş vermişdi. Bununla da, belə hallarda müsəlmanların başına nə gəldiyi Osmanlı imperiyasında məskunlaşmış Qafqaz qaçqınlarının nümunəsindən məlum idi. Zeytun qırğını ermənilər qalib gəldiyi halda nə baş verə biləcəyini müsəlmanlara göstərdi. Ermənilər uduzduqları halda nə baş verəcəyini Adananın misalında başa düşdülər. Gözləməməyi və aman verməməyi hər iki tərəf acı təcrübə nəticəsində öyrəndi. Belə şərait yaranmışdı ki, ermənilər də, müsəlmanlar da gələcək döyüşlərdə sağ qalmaq istəyirlərsə kimin tərəfinə keçməli olduqlarını bilirdilər.

### Qafqaz, 1905-ci il

Birinci Dünya Müharibəsində Şərq xalqlarının faciəsinin ilk müqəddiməsi Qafqazda səsləndi. 1905-ci ildə rus siyasi sistemi iflasa uğradı. Yaponiya ilə müharibəni uduzduqdan sonra rusuya hökumətinin diqqəti tətillərə və

kəndli üsyanlarına cəlb olunmuşdu. Qısa bir vaxtda iğtişaşlar Qafqaza da çatdı. Çar barışıq və hərbi qüvvə tətbiqini əlaqələndirməklə Rusiya imperiyasının böyük hissəsində inqilabçılar üzərində qələbə çaldı. Qafqazda isə ruslar başqa siyasət yeritdilər. Mülki və hərbi rəhbərlik qarışmamaq mövqeyi tutaraq inqilabın icmalararası zorakılığa çevrilməsinə imkan verdilər. Təbii ki, Qafqazda inqilabın mərkəzi sənaye şəhəri olan Bakı idi. Burada ermənilər və türklər çara qarşı çıxmaq əvəzinə bir birini öldürmək üçün inqilabdan istifadə etdilər. Britaniya konsulu məruzə edirdi ki, Bakı erməniləri və türkləri arasında qantökmənin iki dalğası olmuşdur: fevralda və sentyabrda. Onun fikrincə fevralda təxminən 900 erməni və 700 müsəlman, sentyabrda isə 275 müsəlman, 95 erməni və 150 rus həlak olmuşdu. Yəqin ki, qurbanların həqiqi sayı daha böyük olmuşdur.



Zaqafqaziya

Bakıda toqquşmaların davam etdiyi bir vaxtda ermənilər və türklər Naxçıvan kəndlərində və İravanın Cənub hissəsində bir birini öldürürdülər. Kənldlər bütünlüklə yandırılırdı. Qətllər adi bir şeyə çevrilmişdi. Qətlə yetirilmişlərin sayının müəyyən olunmamasına baxmayaraq, məlum idi ki, qırğınlar istər səbəbinə, istərsə də icrasına görə yerli xarakter daşıyırdı. Erməni kəndlərinin sakinləri türkləri və əksinə türklər erməniləri bıçaq və ağacla öldürürdü. O dövrün müşahidəçilərinin fikrincə qırğının əsas səbəbi, belə desək "irqi ədavət" olmuşdur.



1905-ci il inqilabının süqutundan sonra ruslar möhkəm əllərlə həm ermənilər, həm də türklər üzərində öz nəzarətini bərpa etdilər. Nəticə Anadoluda dərk olunanlara analoji idi – "*əgər digər tərəf qalib gələrsə, sən həlak olarsan*".

**Əsas məqamlar**

1. Osmanlı Şərqində qiyamın alovlanması üçün ermənilər malik olduqları nadir biliklərdən istifadə etdilər. Onlar Avropa metodlarını öyrənərək, dərk etdilər ki, Qərbin köməyini əldə etməyin ən yaxşı üsulu repressiyalara səbəb olmaqdır. Bununla yanaşı onlar Şərqi Anadolunu yaxşı tanıyır və təxribatla repressiyalara şərait yaratmağın yolunu bilirdilər (məsələn, kürd tayfalarına hücum etmək).

2. XIX əsrin ikinci yarısında erməni inqilabçıları Avropada fəaliyyət göstərən inqilabçı qruplar ilə əlaqə yaratdılar. Öz xarakterinə görə bütün bünlar sosialist və millətçi qruplar idi. Deməli öz fəlsəfəsinə görə erməni inqilabçıları o dövrün ən böyük inqilabi hərəkatlarının bir hissəsi idi. Lakin almanlardan, ruslardan, fransızlardan və digərlərindən fərqli olaraq, ermənilər inqilab etmək istədikləri ərazidə açıq-aşkar azlıq təşkil edirdi. Almanlar, yaxud İngilislər, ən azı, sosialist inqilabı etmək istədikləri ərazilərin əhalisini inandıra biləcəklərini güman edə bilərdilər.

Ermənilər isə Şərqi Anadolunun müsəlman çoxluğunu erməni millətçiliyini qəbul etməyə inandıra biləcəklərinə ümid bəsləyə bilməzdilər. Çoxluğun idarə etməsi zərurəti

prinsipini heç olmasa nəzəri cəhətdən qəbul edən digər inqilabçılardan erməniləri məhz bu fərqləndirirdi.

3. 1894-1896-cı il üsyanlarını çox vaxt türklər tərəfindən törədilmiş "erməni qırğını" adlandırırlar. Belə mülahizələrin ermənilər tərəfindən türklərin və kürdlərin öldürülməsi faktları ilə ziddiyyət təşkil etdiyini bir kənara qoysaq belə, onların sağlam təfəkkürə sığmadığına diqqət yetirmək lazımdır. Ermənilərin öz əzablı tarixlərinin yaradıcıları olmasını qəbul etməyənlər ermənilərin türklərə qarşı olan bütün hərəkətlərinə etinasızlıq göstərmək məcburiyyətindədirlər. Bu onlar üçün bir sıra çətin suallar doğurur. Gözlənilmədən ermənilərə hücum etmək yüz illər boyu onlarla demək olar ki, sülh şəraitində yaşamış türklərin nəyinə lazım idi? İmperiyanın şərqindəki toqquşmanın erməni inqilabçı qruplarının təşkilatlanma prosesi ilə eyni zamanda baş verməsi ağlasığmaz təsadüfdürmü? Erməni məsələsinin məddahları türklərin ayağına yazdıqları hərəkətləri izah etmək üçün "*tarixi pislik nəzəriyyəsi*"nə əl atırdılar: türklərdə olan kin-küdrət hissi qəzəbli siyasətçələr tərəfindən oyadılmışdır. Belə izahlar ancaq ən azı faktların yarısını nəzərə almayanlar, yaxud absurdluğuna baxmayaraq "*tarixi pislik nəzəriyyəsi*"sini qəbul edənlər üçün ağlabatan görünə bilər. Tarixə belə baxışın qarşılığı sağlam düşüncədir.



# V FƏSİL

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

### Dünya və vətəndaş müharibəsi

Birinci Dünya Müharibəsi hadisələrinin erməni genosidi kimi təsvir edilməsi adətən sadə bir hiylənin köməyi ilə mümkün olur: müsəlmanların qətlə yetirilməsi heç vaxt yada salınmır, ancaq erməni qətllərindən danışılır. Özü də konfliktin yüzillik tarixini nəzərə almayan belə birtərəfli qiymətləndirmə nəticəsində 1915-1921-ci illərin hadisələri ağla sığmayan nifrət dalğası kimi təsvir edilir. Baxmayaraq ki, bu dəhşətli keçmişə və müdhiş bu günə qarşı olan başa düşülən, lakin vahiməli cavab olmuşdur. Şərqi Anadoluda baş vermiş müharibə həqiqəti türklərin erməniləri məhv etməsindən ibarət deyil. Belə ki, bu kimi əsassız iddialar ermənilərin türkləri qırması faktını nəzərə almır. Əsl həqiqət isə Osmanlı Şərqinin bütün əhalisinin zərər çəkməsindən ibarətdir. Onlar belə dəhşətlər görmüşdülər ki, kimin daha çox əzaba düçar olmasını müəyyən etməyə çalışmaq mənasızdır. Ancaq 1915-ci il konfliktini bu günə gətirməyə çalışan millətçi təbliğatçılar buna cəhd edə bilər.

### Şərqdə müharibə

Şərqi Anadoluda Birinci Dünya Müharibəsi 1914-cü ilin noyabrında rusların Osmanlı sərhədinə olan kiçik masştablı



Osmanlı imperiyası 1914-cü ildə



və uğursuz hücumu ilə başladı. Dekabrda osmanlılar böyük, lakin eyni dərəcədə uğursuz hücumla cavab verdilər. Tərəflərdən heç biri irəli gedə bilmədi, ancaq osmanlılar böyük itkilər verdilər. İmperiyanın şimal-şərqində osmanlıların məruz qaldığı təhlükəni daxili düşmən – erməni inqilabı daha da şiddətləndirirdi.

Erməni inqilabı faktiki olaraq hələ döyüşlərdən əvvəl başlandı. 1914-cü ilin avqustunda Zeytun erməniləri hərbi səfərbərliyə qarşı qiyam qaldırdı. Bütün Şərqi Anadoluda erməni inqilabi qrupları təşkilatlanır və açıq fəaliyyətə keçirdi. Hökumət araşdırmalarından birinin gedişində osmanlı rəsmiləri şikayətlənirdi ki, erməni partizanları onlara qarşı olan osmanlı əskərləri ilə müqayisədə daha müasir silahlara malikdirlər. Urfa şəhərində erməni qiyamçılarının hətta pulemyotları var idi, baxmayaraq ki, müharibənin başlanğıc mərhələsində nizami orduların çoxu bununla bağlı çatışmazlıq hiss edirdi. Silah, əsgəri təchizat əşyaları və hətta hərbi geyim məhz belə konflikt üçün qabaqcadan etibarlı olaraq gizlədilib saxlanılmışdı. Ruslar müharibə olacağını qabaqcadan görərək və müharibə zamanı erməni qiyamının rus istilalarını asanlaşdıra biləcəyini düzgün ehtimal edərək erməni inqilabçıları ilə əməkdaşlıq edirdilər.

Qiyamın uğurlu olmasının təmin edilməsində bu erməni inqilabçıları üçün ən yaxşı imkan idi və onlar bundan istifadə etməyi qərara aldılar. Adi vaxtlarda şərq əyalətlərində qalmalı olan bütün əsgərlər müharibəyə səfərbər edilmişdilər. Hətta jandarmlar belə cəbhəyə göndərilmişdilər. Müsəlmanlardan ancaq qocalar, qadınlar və uşaqlar yerlərdə qalmışdı. Şərqi Anadolunun müsəlman kəndləri faktiki olaraq müdafiəsiz idi.

Müsəlman cəncləri olduğu kimi, erməni gəncləri də orduya çağrılmalı idi. Lakin partizan dəstələrinə qoşulmaq, yaxud Rusiya ərazisinə keçmək üçün onminlərlə erməni gənci səfərbərlikdən qaçır, son nəticə olaraq rus ordusuna və ya onun köməkçi erməni birləşmələrinə daxil olurdu. Bir çoxu osmanlı ordusunda onlara qarşı pis münasibət göstəriləcəyindən qorxur, digərləri isə erməni inqilabı uğrunda vuruşmağa üstünlük verirdi. (*Osmanlılar əvvəlcə ermənilləri bütünlüklə nizami hərbi hissələrə daxil etməyi plaşlaşdırsalar da fərarilik halları və qiyamlar onları bu qərarı dəyişməyə məcbur etdi. Odur ki, erməni əsgərlərini əmək taborlarına göndərirdilər.*)

**Partizan müharibəsi**

Müharibə başlananda az sonra erməni bandaları artıq bütün Şərqi Anadoluda basqınlar edirdi. Onlardan bəziləri yerli etmənilərdən təşkil olunaraq dərhal hərəkətə başlayırdı. Digərləri isə Rusiya ərazisinə keçərək orada hazırlıq keçdikdən sonra mütəşəkkil partizan dəstələrinin tərkibində qayıdan ermənilərdən ibarət olurdu. Əsasən daşnak partiyasının cəlb etdiyi və Rusiya hökuməti tərəfindən silahlandırılmış Rusiya imperiyasından olan ermənilər də Anadolu partizanlarına qoşulurdu. Türk məlumatlarına görə təkcə Sivas əyalətində 30.000 etməni partizanı vardı. Maş, Van və Bitlisdən olan təxminən 8.000 erməni Kahizmanda, digər 6.000 nəfər isə İqdırda rusların yanında hazırlıq keçmişdi. Heç kim dəqiq hesablamalar aparmırdı, lakin şübhəsiz ki, Anadolu və Rusiya ermənilərindən olan 100.000 artıq partizan və digər döyüşçü Anadoluda vuruşurdu.



Əvvəlcə etməni qiyamçıları kommunikasiyaları dağıdaraq, hərbçilərin və dövlər orqanlarının fəaliyyətinə maneələr yaradaraq və terror aktları törədərək klassik partizan ruhunda hərəkət edirdilər. Xüsusi obyektlər olan Osmanlı ordusunun səfərbərlik məntəqələrinə, poçt və teleqrafa basqınlar edilirdi. Müharibə zamanı şəbəkəsi çox seyrəlmiş jandarm postları da belə hücumlara məruz qalırdı. Bir sözlə erməni partizanları rus ordusunun ön hissələri kimi hərəkət edərək əraziləri sonrakı istilalar üçün hazırlayırdı.

Lakin tezliklə erməni əməliyyatlarının masştabı daha da genişləndi. Sıraları erməni kəndliləri və osmanlı ordusundan olan fərarilər hesabına möhkəmlənmiş erməni partizanları qısa bir zamanda geniş hücumlara başladılar. Ancaq bir çox hallarda onlar uğur qazana bilmədi. Onların ələ keçirə bildiyi şəhərlər (məsələn, Qarahisar) və müdafiə istehkamları (*məsələn, Musa Dağ*) tezliklə türklər tərəfindən geri alındı. Lakin ümumi hərbi şərait baxımından qiyamçıların hərəkətləri rus qoşunlarına kömək etdi. Ermənilər tərəfindən yaradılmış daxili təhlükənin qarşısını almaq üçün osmanlılar bütöv diviziyaları rus cəbhəsindən çıxarmağa məcbur oldular. Nəticədə Şərqi Anadolu ruslar tərəfindən istila olundu.

**Van qiyamı**

Ermənilər üçün ən uğurlusu Van qiyamı oldu. Bu şəhər ətrafında baş verən hadisələr Osmanlı Şərqindəki erməni planları və hərəkətləri üçün xarakterik idi. 1915-ci ilin martında bütün Van əyalətində alovlanan qiyam tez bir zaman-



Van və ətraf bölgələr

da icmalararası müharibə xarakteri aldı. Etməni dəstələri kürd kəndlərinə hücum edirdi. Cavabında kürdlər erməni kəndlərinə hücuma başladı. Bunun ardınca hər iki tərəfdən kütləvi qırğınlar törədildi.

Vanda və ətraf kəndlərdə erməni inqilabçılarının gizli silah anbarları var idi. 1915-ci ilin aprel ayı ərzində erməni qiyamçıları ancaq kiçik polis qüvvələri tərəfindən qorunan şəhərə daxil olurdular. Vanda osmanlı polisləri ilə döyüşlər 13 apreldə başlandı. Aprelin 20-də qiyamçılar artıq polis bölmələrini, dövlət binalarını və müsəlmanların evlərini atəşə tuturdular. Döyüşlər nəticəsində polis qüvvələri məğlubiyyətə uğradı və mayın birinci yarısında şəhəri tərk etməyə məcbur oldular.

Şəhər uğrunda döyüşlərin gedişində və ermənilər tərəfindən ələ keçirildikdən dərhal sonra Vandan qaça bilməyən bütün müsəlmanlar öldürüldülər. Erməni nəzarətinə keçən şəhərətrafı kəndlərin müsəlman sakinləri də eyni tale ilə üzləşdi. Vandan Şimalda yerləşən kəndlərin müsəlman sakinləri zorla Zeve kəndinə gətirildilər və az bir hissəsi istisna olunmaqla onların hamısı (3.000 nəfərə yaxın) məhv edildi. Analoji vəhşilik vilayətin bütün ərazisində törədilirdi. Vanın özündə bütün müsəlman məhəlləri dağıdılmışdı. Faktiki olaraq şəhərdə bir nəfər də olsa müsəlman sağ qal-



mamışdı. Çoxsaylı insanları məhv etmiş erməni partizanları yollarda qurulmuş pusqularda qaçqınları güdürdü.

Vanda qırğınlar davam edərkən ucqar erməni kəndləri də hücumlara məruz qalırdı. Digər yerlərdə müsəlman kəndliləri olduğu kimi, həmin kəndlərin sakinləri də məhv edilirdi. Beləliklə, hamının iştirakçı olduğu bir mühapibədə cəbhə xətti müəyyən olundu. Sözsüz ki, ermənilərin və müsəlmanların əksəriyyəti qətllər törətməyə can atmırdı. Lakin hər iki tərəf müdafiə məqsədilə öz həmvətənlilərinə qoşulmağa məcbur idi. Müdafiə olunmaq üçün isə onlar hücum etmək məcburiyyətində qalırdı.

Osmanlılar tələsik Vana qoşun göndərdilər, lakin ruslar gəlib çatanadək ermənilər şəhəri öz əllərində saxladılar. Önündə Qafqazdan olan erməni hərbi hissələri ilə irəliləyən Rus ordusu mayın sonunda Vana çatdı. Erməni qubernator təyin olundu və bütün Şərqi Anadoludan olan ermənilər yeni Ermənistana köçməyə təbliğ olundular. Yüz minlərlə erməni rus işğalı altında olan əraziyə yığıldı. Orada sağ qalmış müsəlman sakinlər qaçmağa məcbur oldular.

Lakin ermənilərin qələbəsi uzunsürən olmadı. Əlavə qüvvə alan türk qoşunları tezliklə şəhəri geri qaytardılar və rusları Şimala çəkilməyə məcbur etdilər. Vanın digər əyalətlərdən gələnlər hesabına sayı çoxalmış erməni sakinlərinin hamısı rus qoşunlarının ardınca getdi. Sağ qalmış müsəlmanlar qayıdır, lakin növbəti rus hücumlarından sonra qaçaraq canlarını qurtarmalı olurdular.

Ruslar və ermənilər turk ərazilərinin dərinliklərinə irəlilədikcə Van faciələri Bitlisdə və digər şəhərlərdə də təkrar olunurdu. Müsəlman kişilər, qadınlar və uşaqlar əsil mənasında geniş təqib olunur, onlar bilavasitə küçələrdə öldürü-

lürdülər. İşğalçıların hücumda olan ordularından qaçıb qurtulan kənd sakinləri yollarda erməni partizan hissələri tərəfindən məhv edilirdi. Türklər Bitlisi azad etdikdən sonra osmanlıların istintaq qrupu sağ qalmış qaçqınları dindirərək və xarabalıqlara baxış keçirərək araşdırmanın nəticələri barədə məlumat verdi. On dörd məscid, o cümlədən də mərkəzi Böyük Məscid və digər dini binalar yer üzündən silinmişdi. Tövlə kimi istifadə edildiyi üçün ancaq bir məscid dağıdılmamışdı. Müsəlman evlərinin çoxunun olduğu kimi, kommersiya anbarları, hərbi anbarlar və hökumət evləri uçurulmuşdu. Şəhər dağıntılar içində idi.

**Rusların hücumu**

Rus ordusunun bir neçə uğursuzluğundan sonra çətinliklə də olsa Şərqi Anadolunun ucqar bölgələrini 1915-ci ilin sonunadək əldə saxlamaq mümkün oldu. 1916-cı ilin yanvarında ruslar osmanlıları məğlub edərək Qərbə doğru irəlilədilər. 1916-cı ilin aprelinədək onlar Şərqi Anadolunun böyük hissəsini zəbt etdilər. Trabzon, Ərzurum, Maş, Bitlis, Van rus nəzarəti altına düşdü. Rusların qələbəsi eləcə də ermənilərin qələbəsi oldu. Əvvəlki ilin avqustunda ruslarla birlikdə Qafqaza geri çəkilənlər indi qayıda bilərdi. Müsəlmanların qaçaraq canını qurtarmaq növbəsi çatdı. Şimal-şərqin şəhərlərində rusların müəyyən dərəcədə qaydaları qorumasına baxmayaraq, erməni bandaları praktiki olaraq tam hərəkət azadlığı əldə etdi. Odur ki, müsəlman köçkünləri və qurbanlarının da ən çoxu məhz bu zonaya düşür.



**Kənd yerləri**

Rusların zəbt etdiyi geniş ərazilərdə müsəlmanların düçar olduğu soyğunçuluq və qırğın hallarını burada xırdalamağa zərurət yoxdur. Erməni dəstələri buna görə xüsusi olaraq məsuliyyət daşıyırdı. Müsəlman kəndliləri zorlama, qətl və ümumiyyətlə sarsıdıcı qeyri-insani hallar barədə danışırdı. Görünür faciənin böyüklüyünün ən yaxşı göstəricisi işğal olunmuş vilayətlərin müsəlman sakinlərinin erməni qəzəbindən qurtulmaq məqsədilə öz yaşayış yerlərini tələsik tərk etmək məcburiyyətində qalmaları faktıdır. Qaçqınlar üzrə osmanlı komissiyası ruslar tərəfindən işğal olunmuş bölgələrdən olan 850.000-dən çox müsəlman qaçqınını qeydə almışdı. Bu ancaq rəsmi qeydə alınmış qaçqınlar olduğu üçün görünür onların sayı bəlkə də bir milyondan artıq olmuşdur. Müharibənin şiddətləndiyi bir vaxtda osmanlı hökumətinin qaçqınlara əhəmiyyətli dərəcədə kömək göstərə bilməməsi vəziyyəti daha da ağırlaşdırırdı.

Müsəlman nəzarəti altında olan bölgələrdə erməni kəndliləri də bir çox hallarda müsəlmanlar kimi əzab çəkirdi. Müharibənin ilkin mərhələlərində üstünlüyün ermənilərdə olması nəticəsində onlar 1915-1916-cı illərdə müsəlmanlar qədər zərər çəkməmişdirlər. Lakin buna baxmayaraq, kürd dəstələrinin və xilas olmuş müsəlman kəndləri sakinlərinin əlinə keçmiş ermənilər də məhv edilirdi. Nə bu, nə digər tərəfdən aman verilməsindən və mərhəmət göstərilməsindən söhbət belə gedə bilməzdi. Bəzi ermənilər müsəlmanlar tərəfindən, eləcə də müsəlmanlar etrmənilər tərəfindən xilas edilmişdi. Lakin belə alicənablıq nümunələri çox az olduğu üçün onlar böyük əhəmiyyət kəsb etmirdi. Heç bir nəzarət-

də olmayan inqilab və müharibə şəraitində ermənilər üçün olduğu kimi, müsəlmanlar üçün də özünü və ailəsini düşmən tərəfindən məhv edilməkdən qorumaq məqsədilə düşməni məhv etmək yeganə müdafiə vasitəsi idi.

## Deportasiya

Erməni qiyamına qarşı osmanlı hökumətinin cavabı qiyamçı bölgənin sakitləşdirilməsində klassik yaxın Şərq taktikasının – deportasiyanın tətbiqindən ibarət oldu. Van qiyamından sonra, 27 may 1915-ci ildə ermənilərin məcburi köçürülməsini tələb edən müvəqqəti qanun qəbul olundu. Əslində bu halda səhv olduğu üçün "deportasiya" termininin tətbiqi düzgün deyil. Ermənilər bir ölkədən başqasına qovulmurdu ki, buna "deportasiya" deyilsin, həmin ölkənin tərkibində bir yerdən başqa yerə köçürülürdü. Qanun qəbul olunduğundan bir ay sonra həyata keçirildi. Bu müddət ərzində osmanlı rəsmiləri ermənilərin əmlakının və həyatının qorunması, eləcə də katoliklər də daxil olmaqla (onlar təhlükəsiz hesab olunurdu) onların müəyyən hissəsinin deportasiyadan azad olunması barədə göstəriş dərc etdirdilər.

Deportasiya prinsipi partizan hərəkatı ilə mübarizənin azsaylı məlum üsullarından biri idi, hansı ki, ən qədim zamanlardan bu günə kimi istifadə olunur. Təminat, yardım və yeni canlı qüvvələrin cəlb olunması ilə bağlı partizanlar yerli əhalidən asılı olduğu üçün deportasiyanın mahiyyəti onların həmin əhalidən ayrılması zərurətindən ibarətdir.

Hələ Bizans imperiyası dövründə ayrı-ayrı erməni qrupları İmperiyanın digər hissələrinə deportasiya olunurdu.



Osmanlılar əsrlər boyu ictimai qayda üçün təhlükə yaradanları, o cümlədən də qiyamçı türkləri deportasiya edirdilər.

Ermənilərin deportasiya olunmasının əsas məqsədi partizan dəstələrinin yardımdan məhrum olunması idi. Lakin mərkəzi hakimiyyət orqanlarının bu barədə sərəncamında daha əhəmiyyətli siyasi və hərbi motivlər də vardı. Ermənilərin köçürülməsi Qaydalarına əsasən deportasiya olunanlar hərbi əməliyyat, dəmir yol zonalarından və digər strateji bölgələrdən çıxarılmalı idi. Köçürülmədən sonra istənilən vilayətdə ermənilərin sayı yerli əhalinin ümumi sayının 10 faizindən çox olmamalı idi. Görünürdü ki, türk hökuməti strateji bölgələrdə qaldıqları halda ermənilərin İmperiya üçün təhlükə yaradacaqlarından qorxur, elə buna görə də onları həmin yerlərdən uzaqda saxlamağa çalışırdı. Eyni dərəcədə aydındır ki, osmanlılar erməni əhalisinin sıxlığını o dərəcədə azaltmaq istəyirdi ki, sonuncuların "kritik kütləsi" inqilab etmək üçün olduca əhəmiyyətsiz olsun.

Erməni deportasiyası probleminin əsas mənəvi aspekti Osmanlı imperiyası tarixinin çərçivəsindən çox kənara çıxır. Real, yaxud xəyali partizan təhlükəsinə görə mülki əhalinin deportasiya olunması müasir hökümətlərin çoxu tərəfindən tətbiq edilmişdir. Qiyamı yatırarkən hökümət hansı son tədbirlərə əl ata bilər? Əgər qiyamçı əhali öz iradəsini çoxluğa qəbul etdirməyə çalışan azlıqdırsa, bu həmin azlığın deportasiyasına mənəvi cəhətdən haqq qazandırarmı? Müharibəni başa çatdıraraq son nəticə kimi daha çox insanın həyatını xilas etmək üçün (dəlil ikinci Dünya Müharibəsində mülki əhalinin bömbalanması məsələsi ilə analojidir) deportasiya olunanları əzab-əziyyətə düçar etmək

olarmı? Müharibənin ümumiyyətlə son dərəcə əxlaqa zidd olması ilə bağlı olan bütün məsələlər kimi, bu suallar da prinsipialdır.

Osmanlıların deportasiya siyasətində iki səhvi, yaxud müzakirəyə layiq səhlənkarlıq nümunəsini aşkar etmək olar. Birincisi, ermənilərin müdafiəsi barədə qanun qəbul olunmuş, lakin əyalətlərdəki osmanlı məmurlarının erməni köçkünlərindən ibarət dəstələrin təhlükəsizliyini təmin etmək imkanına malik olmadıqlarına olduqca az diqqət yetirilmişdi. Həqiqətən də İstanbuldan deportasiya olunanların həyatının və əmlakının təhlükəsizliyinin təmin edilməsini yerli inzibati orqanlardan tələb edən göstərişlər daxil olurdu. Lakin belə göstərişlər praktiki olaraq mənasız idi. Belə ki, onları yerinə yetirmək mümkün deyildi. Əsgərlər və jandarmlar ruslarla döyüşə göndərilmişdi. İmperiyanın şərqində qubernatorlar seçim qarşısında qalmışdı: qalan azsaylı jandarmları müsəlman kəndlərinin erməni dəstələrindən, yaxud ermənilərin müsəlmanlardan müdafiəsi üçün istifadə etmək. İnsanlar adətən etdiyi kimi, onlar da özününkündən olanları müdafiə etməyə üstünlük verirdi.

İkincili, türklər müharibə zonalarından kənarda da ermənilərin deportasiyasını həyata keçirirdi. Ermənilərin bir çoxu istila təhlükəsi qaçılmaz yox, ancaq ehtimal olunan sahilboyu bölgələrdən və daxili vilayətlərdən köçürülmüşdü. Diqqətlə nəzərdən keçirildikdə aydın olur ki, Mərkəzi Anadolunun erməniləri deportasiya kimi sərt bir aksiyanın tətbiqinə bəraət qazandırılması üçün kifayət qədər təhlükəli deyildi.

Aydın olması üçün erməni deportasiyasına konkret tarixi şərait kontekstində baxılmalıdır. Baxılan halda köçürülmə barədə əmr sakit və qərəzsiz qərar qəbul edilməsini istisna edən bir şəraitdə verilmişdi. Ermənilərin köçürülməsi barədə sərəncam ermənilərə də, müsəlmanlara da toxunan köçürmə (deportasiya) rejiminin bir hissəsi idi.



Ermənilərin köçürülməsi barədə əmr İmperiyanın Şərqində hədsiz sayda türkün və kürdün öz evlərindən qovulmasına səbəb olmuş erməni qiyamına cavab idi. Birinci əmr 27 may 1915-ci ildə, 13 aprel 1915-ci ildə baş vermiş erməni qiyamından sonra verilmişdi. Müsəlmanlara qarşı olan digər hücumlar bundan əvvəl də olmuşdu.

Ermənilər öz evlərini tərk etməyə məcbur olmuş yeganə mülki əhali deyildi. Şərqi Anadolunun müsəlmanları da ermənilər kimi qovulmuşdu. Ola bilər ki, osmanlı hökuməti tərəfindən sanksiyalaşdırılmış deportasiya daha rəsmi görünürdü, lakin rusların və erməni dəstələrinin həyata keçirdiyi deportasiyanın reallığı heç də bundan geri qalmırdı. Əslində isə Şərqdəki ən dramatik məcburi miqrasiya hallarına osmanlı hökumətinin rəsmi tədbirləri deyil, soyğunçuluq və qırğınlar səbəb olurdu ki, bu zaman sağ qalma faizi də daha aşağı olurdu.

Osmanlı hökuməti deportasiya olunmalarını əmr etdiyi şəxslərin çoxunu müdafiə etmək iqtidarında deyildi. Belə təəssürat yaranırdı ki, bu türklər üçün heç də əsas qayğı deyil. Əslində isə bu belə də olmalı idi.

Osmanlı hökuməti öz hərəkətinə hərbi zərurətlə haqq qazandıraraq ermənilərin deportasiya olunacağını açıq bəyan etmişdi. Rus hökuməti və ermənilərin inqilabı partiyaları isə Şərqi Anadolu müsəlmanlarının məcburi köçürülmələrini özlərinin rəsmi siyasəti olduğunu heç vaxt etiraf etməmişdir. Müsəlmanların deportasiyası barədə rus və daşnak arxivlərində olan sənədlər heç vaxt qərəzsiz tədqiq

üçün təqdim olunmamışdır. Lakin buna baxmayaraq, rusların və ermənilərin hərəkətləri belə düşünməyə əsas verirki, bu hərəkətlər böyük dəqiqliklə hazırlanmış planın bir hissəsidir.

Son nəticə olaraq osmanlılar necə də olsa erməniləri yerli müsəlmanların nifrətindən və kürd hücumlarından qorumağa çalışırdı. Deportasiya olunan ermənilərin müdafiəsi üzrə tədbirlərin keçirilməsini tələb edən qanunlar qəbul olunmuşdu. Osmanlıların mülki və hərbi hakimiyyət dairələri ermənilərə qarşı cinayət törətmiş min nəfərdən çox şəxsi məsuliyyətə cəlb etmiş və cəzalandırmışdı (ölüm cəzası da daxil olmaqla). Lakin müsəlmanların yaşadıqları yerlərdən qovulması zamanı rus hökümətinin və erməni inqilabçılarının son dərəcə amansızlıq göstərməsinə baxmayaraq, müsəlmanlara qarşı cinayətlərə görə onlardan heç kim məsuliyyətə cəlb olunmamışdı.

**Qenasid olmuşdurmu?**

Ermənilərin osmanlı hököməti tərəfindən həyata keçirilmiş deportasiyasının gizli məqsədinin məhz qenosid olduğu ənənəvi olaraq iddia olunurdu. Birinci Dünya müharibəsi dövründən erməni millətçiləri və onların havadarları bildirirdilər ki, deportasiya kütləvi qətllərin törədilməsi üçün ancaq bəhanə olmuşdur. Ermənilərin məhv edilməsinə dair İstanbul hökümətinin hər hansı bir gizli planı olmasını təsdiq edən heç bir sübut bu günə kimi aşkar edilməmişdir, baxmayaraq ki, erməni mənbələri deportasiyanı tələb edən, saxtalığı müəyyən olunmuş sənədləri ortaya çıxarmışlar.



Deportasiyanı tələb edən əsil sənədlər isə deportasiya olunanların əmin-amanlığı üçün qayğı göstərildiyini təsdiq edir. Lakin onların daxili istifadə üçün nəzərdə tutulmuş hökümət sənədləri olmasına, çox illər sonra arxivlərdə tapılmasına və osmanlıların həmin sənədləri dərc etdirmək niyyətinin olmamasına baxmayaraq, digər tərəf mübahisə zamanı onları "komufulyaj" adlandırır. Ola bilər ki, bu məsələ heç zaman həll edilməsin. Belə ki, erməni qenosidini özləri üçün inam predmeti kimi qəbul edənlər osmanlıların arxiv sənədlərini saxta olduğunu hər zaman təsdiq edəcəklər. Əlbəttə ki, onlar erməni qətlləri haqqında aşkar əmr məzmununda istənilən osmanlı sənədini həqiqi sənəd kimi qəbul edəcəklər. Lakin belə sənəd bu problemə dair bütün digər məlum sənədlərə zidd olardı. Elə buna görə də belə bir sənədin nə vaxtsa mövcud olduğu şübhəli görünür.

Osmanlıların hərəkətlərini nəzərə alaraq qenosid haqqında əmrin mövcud olduğuna inanmaq çətindir. Niyə İstanbulda, İzmirdə, İmperiyanın Avropa hissəsində, digər bölgələrdə yaşayan on minlərlə erməni qenosidə məruz qoyulmamışdı? Onlar sağ-salamat qaldılar və onları heç kim sürgün etmədi. Kimsə deyə bilər ki, osmanlılar bu barədə arzuolunmaz məlumatın yayılmasından çəkindikləri üçün həmin ermənilərə toxunmadılar. Lakin bu artıq baş vermişdi. Türklərin öldürülməsinə göz yuman Qərb mətbuatı öldürülmüş ermənilərin sayını olduqca şişirdərək yaymışdı. Əgər osmanlılar bütün erməniləri məhv etmək istəyirdisə (Müttəfiqlər belə niyyətin olduğunu təsdiq edirdilər), nə üçün onların sağ qalmasına imkan verirdilər. Ən inandırıcı sübut isə ondan ibarətdir ki, deportasiya olunmuşların çoxu sağ qalmışdı. Deportasiya olunan erməni

dəstələri qəbilə və bandaların hücumlarına məruz qalırdı. Oların bir çoxu həqiqətən də qətl, aclıq və xəstəlik qurbanı oldu. Lakin bu faktı necə izah etmək olar ki, bəzi dəstələr son nöqtəyə toxunulmaz çatdılar və 200.000-dən artıq erməni müharibənin sonuna kimi Suriyada sağ-salamat qaldı. Əgər qenosid barədə əmr verilmişdisə nə üçün onlar öldürülmədi? Onlar bütünlüklə osmanlı nəzarəti altında qalırdılar, əgər belə məqsəd vardısa onların öldürülməsi çox asan olardı.

Şərqi Anadoluda hökümət tərəfindən təşkil olunmuş qenosid olmamışdır. Lakin qenosidin daha geniş anlayışı mövcuddur. Əgər bir xalqın digərinə qarşı hərəkəti qenosid hesab edilərsə, əlbəttə Şərqi Anadoluda qenosid olmuşdur. Həm türklər, həm də ermənilər onun qurbanı olmuş və hər iki tərəf bunun həyata keçirilməsinə cəlb olunmuşdur. Ermənilər türkləri türk olduqları üçün öldürürdülər. Türklər də erməniləri erməni olduqları üçün öldürürdülər. Onların başqa seçimi yox idi. Müharibənin ilk günlərindən sonra türklər və digər müsəlmanlar başa düşdülər ki, ermənilərlə vətəndaş müharibəsində neytrallıq ola bilməz. Onları hər hansı siyasi, yaxud taktiki məqsədlə yox, ancaq türklərə qarşı nifrət bəslədikləri üçün öldürəcəklər. Ermənilər də belə şəraitdə idilər. Qırğın qarşılıqlı idi.

**1916-1917-ci illər**

Müsəlman əhalinin yarısına qədəri qaçaraq canını qurtarmağa məcbur olsa da Şərqi Anadolunun ruslar tərəfindən işğal olunmuş hissəsinin müsəlmanları bütünlüklə qaç-






Ermənistandan və Azərbaycandan olan qaçqınlar (1918-ci ilin sərhədləri)

qın düşmədi. Qalanlar əsasən şəhərlər zonalarında, xüsusən də şimal-şərqdə, məsələn, Ərzurum və Trabzon bölgələrində yaşayırdı. Burada onlar rus qoşunlarının sayıq nəzarəti altında idi. Ruslar müsəlmanlara xüsusi rəğbət bəsləməsələr də onların birbaşa nəzarəti altında müsəlmanların vəziyyəti kənd yerləri ilə müqayisədə nisbətən yaxşı idi. Kənd bölgələrində isə onlar erməni bandalarının şikarına çevrilirdi. Sağ qalmış türk əhalisi rus işğalçıları üçün təhlükə yaratmırdı. Belə ki, onlar bütünlüklə döyüşə yaramayan, olduqca qoca, yaxud cavan qadın və kişilərdən ibarət idi. Yarımköçəri kürd tayfaları da nisbi təhlükəsizlikdə idi. Osmanlıların məğlubiyyətindən bir neçə gün sonra onların liderləri həvəssiz də olsa ruslarla sülhə gəldilər. Erməni qiyamı zamanı ermənilər və kürdlər arasında əhəmiyyətli dərəcədə güclənmiş qarşılıqlı nifrət gizli haldı qalır, rusların hakimiyyətinə son qoyulduqdan sonra tam gücü ilə meydana çıxacağı anı gözləyirdi. Nizami rus qoşunları tərəfindən nəzarət olunmayan kənd bölgələrində müsəlmanların vəziyyətini əks etdirən sübut və dəlillər çox qalmayıb. Bununla yanaşı məlumdur ki, qaçqınların miqrasiyası davam edir, onlar özləri ilə əsarət və kütləvi qırğınlar haqqında məlumatlar gətirirdilər. Ucqar kənd yerlərində, xüsusən də Van gölü ətrafı bölgələrdən rus sərhədinə kimi demək olar ki, müsəlman qalmamışdı. Təəccüblü deyil ki, bü region sakitliyi ilə seçilirdi.

### Şərqdə müharibənin sonu

1917-ci ilin yazınadək işğal olunmuş ərazilərdə möhkəmlənən Rus ordusu iraliyə hərəkət etmək üçün hazırlaşmağa başladı. Eyni zamanda Suriyada, İrakda və Avropada vuruşan osmanlı ordusunun rusların qələbəsinin qarşısını ala biləcəyi inandırıcı deyildi. Osmanlıları və Şərqin müsəlmanlarını rus inqilabı xilas etdi. Bundan xəbər tutan Anadoludakı rus əsgərləri almanlarla vuruşan həmvətənliləri kimi fərarilik etməyə başladılar. Cəbhədə ancaq rus zabitləri, əsasən ermənilərdən ibarət olan Qafqaz hissələri və ermənilərin partizan dəstələri qaldı.

Şərqi Anadolu və Qafqaz erməniləri Rusiyanın İrəvan quberniyası və Şərqi Anadolu torpaqlarında yeni Ermənistan Respublikası yaratdılar. Respublika əvvəllər rus istilasında olan əraziləri yeni Ermənistan çərçivəsində saxlamağa çalışdı, lakin bu uğursuzluqla nəticələndi. Gürcüstan, Ermənistan və Azərbaycanı birləşdirən Zaqafqaziya Federasiyası yaratmaq cəhdi də boşa çıxdı. Belə ki, ərazi iddialarına görə bu yeni dövlətlər arasında çəkişmə başlandı. Beləliklə Ermənistan Respublikası Şərqi Anadolu türkləri ilə qarşıdurmada təklikdə qaldı. Bundan sonra baş verənlər 1915-1916-cı illərdəki qanlı icmalararası müharibənin davamı oldu.

### Ermənilərin geri çəkilməsi

Hələ osmanlıların hücumuna kimi ermənilər əmin oldular ki, iddia etdikləri bütün torpaqları əldə saxlaya bilməyəcəklər. Müsəlman əhalinin yarısının qaçmasına, bir çoxunun həlak olmasına baxmayaraq, ermənilər yenə də azlıq təşkil edirdilər. Bundan başqa, Şərqi Anadoluda ən böyük qüvvə olan osmanlı ordusunun gəlişi qaçılmaz idi. Ermənilər geri çəkildilər. Kişilər, qadınlar, uşaqlar Şərqi Anadolu-



Ermənilərin geri çəkilməsi

dan Şimala, Zaqafqaziyaya qaçırdılar. Burada onları aclıq və xəstəliklərlə bağlı əzab gözləyirdi. Ermənilər geri çəkildikcə müsəlmanlara məxsus sağ qalmış binaları uçurur, özləri ilə götürə bilmədikləri məhsul və əmlakı yandırırdılar. Regionda qalmış müsəlmanlar geri çəkilən ermənilərin əlinə keçdikdə öldürülürdülər. Ermənilər getdikdən sonra sağ qalmış müsəlmanlar doğma yerlərə qayıtmaq imkanı əldə etdilər. Onlar xarabazara çevrilmiş torpaqları gördülər. Demək olar ki, burada artıq nə türk, nə də erməni qalmışdı. Regionda qalmış çox az sayda ermənidən geri qayıtmış müsəlmanların qisasından xilas olmaq xoşbəxtliyi ancaq nizami osmanlı ordusunun mühafizəsi altında olanlara nəsib oldu.

Şimal əyalətlərində, rus sərhədi yaxınlığında da erməni qüvvələri dürüş gətirə bilmədi və türk qoşunları tərəfindən asanlıqla dəf olundu. Ermənilən yol boyu qarşısına çıxanı məhv edərək vahimə içində geri çəkildilər. Ancaq türk ordusunun çevik irəliləyişi müsəlman əhalini xilas etdi. Ərzincana daxil olan osmanlı əsgərləri gördülər ki, ictimai və islam dininə aid olan binalar, eləcə də 1.000-dən çox ev dağıdılmışdır. Öldürülmüş yüzlərlə türkün meyiti Ərzincanın küçələrində, bundan da çoxu su hövzələrində və tələsik qa-



zılmış qəbirlərdə tapıldı. Bütün Tərcan dinamitlə dağıdılmışdı. Osmanlı hökümətinin hesablamalarına görə İmperiyanın şərqindəki ən iri şəhər olan Ərzurumda 8.000 türk öldürülmüşdü. Ola bilər ki, bu rəqəm şişirdilmiş kimi görünsün, lakin əsgərlər onlar tərəfindən dəfn olunmuş hər meyitin dəqiq hesabını aparırdılar. Ancan ilk səkkiz gün ərzində 2.124 kişi meyiti dəfn olunmuşdu. Ədəb xatirinə onlar dəfn olunmuş qadın meyitlərinin hesabını aparmır, ermənilərin onların başına gətirdiklərindən danışmırdılar.

Şəhərlərdə törədilmiş vəhşiliklər kəndlərdə də təkrar olunurdu. Ermənilərin geri çəkildiyi xətt boyu qaçıb qurtara bilməyən müsəlman meyitləri səpələnmişdi. Son dərəcə çox az ev qalmışdı. Bir dənə də olsa kənd bütünlüklə salamat qalmamışdı. Avstriyanın düşməni olan ruslara rəğbət bəsləməkdə şübhəli bilinməsi mümkün olmayan Avstriya qəzetinin müxbiri qeyd edirdi ki, ruslar regionun əhalisi ilə pis davranmırdı, lakin onların hikimiyyəti sona çatan kimi erməni bandaları türkləri məhv etməyə başladı. Regiona gəlmiş Stefan Eşnani yazırdı: ***"Demək olar ki, hər addım başı mən erməni vəhşiliyinin izləri ilə rastlaşırdım. Trabzondan Ərzincana və Ərzincandan Ərzuruma kimi bütün kəndlər məhv edilmişdi"*** [4]. Rus istilası zamanı sağ qalmış yerli türklər indi yolları doldurmuşdu.

Şübhəsiz ki, geri çəkilmə zamanı ələ keçmiş ermənilərə də türklərin taleyi nəsib olmuşdu. İki xalq arasında olduqca çox qan tökülmüşdü. Mərhəmətə yer qalmamışdı. Cənubşərqdə olduğu kimi, qalan az sayda erməni üçün yeganə müdafiəçi osmanlı ordusu idi. Maraqlıdır ki, osmanlı hökuməti (az sonra isə türk ordusu) amerikalı missionerlərə erməni yetimlərini ərzaq və paltarla təmin etməyi davam

etdirməyə icazə vermişdi. Türk yetimlərinə belə dözümlülük göstərmiş ermənilər barədə belə məlumat mövcud deyil. Türklərin missionerlər qarşısında qoyduğu yeganə şərt müsəlman yetimlərinin də ərzaqla təmin edilməsi idi.

**Ermənistan Respublikası və Qars türkləri.**

Türklər öz məğlubiyyətini etiraf edərək Müttəfiqlərlə birlikdə Mudros sülh müqaviləsini imzaladıqda (30 oktyabr 1918-ci il) ermənilər müəyyən fasilə əldə etdilər. Müttəfiqlər Rusiyanın İrəvan quberniyasını və qonşu rayonları, eləcə də Anadolu bölgələrinin erməni millətçilərinin tələb etdiyi çox hissəsini əhatə edən Böyük Ermənistan dövləti yaratmaq qərarına gəldilər. Ancaq Kilikiya adlanan vilayət (*osmanlı əyaləti Adanada*) bu siyahıdan çıxarılmalı idi. Belə ki, oranı artıq fransuzlar tələb edirdi. Tezliklə Müttəfiqlər onların planlarına qarşı çıxa biləcək osmanlı əsgərlərini və digər türkləri tərkisilah etməyə cəhd etdilər. 1878-ci ildə rusların osmanlıların əlindən aldığı Qars əyalətində yerli türklər Prezident Vilson tərəfindən elan edilmiş çoxluğun idarəçiliyi prinsipinə istinad edərək öz hökümətini yaratmağa çalışdılar. Lakin 19 aprel 1919-cu ildə Qars Britaniya ordusu tərəfindən işğal




Qars və ətraf bölgələr



edildi. İngilislər mülki və hərbi hakimiyyəti ermənilərə verərək getdilər. Müharibədən əvvəlki rus siyahıyaalmasına əsasən bu əyalətin əhalisinin 50 faizdən çoxunu müsəlmanlar təşkil etməsinə baxmayaraq, Britaniya Qars əyalətini Ermənistan Respublikasına birləşdirməyi planlaşdırırdı. Türklərin çoxluğun hakimiyyətinə təminat verən **"Vudro Vilsonun on dörd bəndinə"** istinad etməsi nəzərə alınmırdı.

Qars türkləri tərkisilah edildi. Lakin ingilislər dağlıq ərazilərdən bütün erməniləri tez bir zamanda qovmuş dağ kürdlərini tərksilah edə bilmədi. Elə bu zaman da Ermənistan Respublikasının əsgərləri düzənlikləri orada yaşayan bütün türklərdən təmizləməyə başladı. Həmin türklərin taleyindəkilər demək olar ki, əvvəllər Şərqi Anadoluda baş verənlərin dəqiq təkrarı idi.

Qətllər, soyğunlar, türklərə məxsus evlərin və bütöv kəndlərin dağıdılması Qars türklərini dağlara, yaxud Cənuba və Qərbə osmanlı ordusundan qalan hissələrin müdafiəsi altına çəkilməyə məcbur etdi. İngilislər fəaliyyət səhnəsini ermənilərə qoyub getdi. Bunun nəticəsində orada baş verən qırğınları ancaq bir neçə avropalı müşahidə edə bildi. Vəzifəsi osmanlı əsgərləinin tərksilah edilməsinə nəzarət etməkdən ibarət olan bir nəfər Britaniya müşahidəçisi – polkovnik Roulinson baş verənləri öz gözləri ilə görmüşdü. O öz rəhbərliyinə teleqrafla bildirirdi: ***"insanlıq naminə müsəlman əhalini ermənilərin məhdudiyyətsiz hakimiyyəti altında qoymaq olmaz. Belə ki, onların qoşunları intizamsızdır və lazımi nəzarət olmadığı üçün daimi olaraq vəhşiliklər törədilir"*** [5]. Onun məlumatını heç kimi nəzərə almadı. Lakin osmanlı əsgərləri Roulinsonun xəbər verdiyi şərait barədə məlumatları nəzərdən qaçıra bilməzdi. Onlar silahları

təhvil verməkdən imtina etdilər və döyüşlərə hazırlaşmağa başladılar.

Müharibə başa çatdıqdan sonra osmanlı ordusunun hissələri şimal-şərqi Anadoluda qalmışdı. Onlar türk millətçilərinin Şərq ordusunun əsasını təşkil etdi. Mustafa Kamalın (Atatürkün) rəhbərlik etdiyi millətçilər Ankarada yeni türk hökuməti yaratdı. Onlar Anadolunun Müttəfiqlər tərəfindən parçalanmasının qarşısını almaqda olduqca qətiyyətliydilər. Əvvəlki osmanlı ordusunun hissələrindən, buraxılmış osmanlı hissələrinin əsgərlərindən və yerli türklərdən ibarət olan qüvvələr erməni birləşmələrinə hücum edərək tez bir zamanda onları məğlub etdilər. İndi Qars ermənilərinin İrəvan quberniyasına qaçaraq canını qurtarmaq növbəsi çatdı. Türk qaçqınları geri qayıdırdılar. Öz növbəsində ermənilərdən qaçmağa məcbur olan İrəvandan və Qafqazın digər bölgələrindən olan 200.000 mindən çox türk və digər müsəlman da onlara qoşuldu.

**Ermənistan və Azərbaycan**

Birinci Dünya Müharibəsi zamanı Rusiyanın hərbi hakimiyyəti ermənilər və azərbaycan türkləri arasında 1905-ci il iğtişaşlarının təkrar olunmasına imkan vermirdi. Lakin rusiya hakimiyyətinə son qoymuş rus inqilabı zamanı düşmənçilik yenidən alovlandı. Azərbaycanın ən iri şəhəri olan Bakı əhalisi əsasən türklərdən, ermənilərdən və ruslardan ibarət idi. Zaqafqaziyanın bu hissəsindəki neft səneyesinin yüksək inkişaf səviyyəsilə bağlı olaraq o zaman Bakı çoxsaylı fəhlə sinfi olan sənayeləşdirilmiş şəhər idi. Odur ki, rus






Azərbaycan və Ermənistan (müasir sərhədlər)

inqilabının təsiri Zaqafqaziya regionunun digər hissələrindən fərqli olaraq Bakıda özünü daha geniş biruzə verdi. Şəhər Bakı Kommunası adlandırılan inqilabi hökümət tərəfindən idarə olunurdu. Burada hakimiyyət əsasən daşnakların və bolşeviklərin əlində cəmləşmişdi. Ermənilər və bolşeviklər hiss edirdilər ki, müsəlman siyasi partiyası ilə təmsil olunan türklər inqilabdan çox Osmanlı imperiyasından olan öz din qardaşlarına loyal münasibət bəsləyirlər. Küçələrdə bir birinə qarşı ədavət hissi bəsləyən ermənilər və türklər arasında döyüşlər başladı. Bolşeviklər ermənilərə kömək etdiyi üçün türklər asanlıqla məğlub edildilər və nəticədə qırğınlar törədildi (1918-ci il martın 30-dan aprelin 1-dək). Ancaq şəhərin özündə 8.000-dən 12.000-dək müsəlman öldürüldü. Bakının türk sakinlərinin yarısı qaçmağa məcbur oldu. Osmanlı ordusunun Qərbi Qafqazın dərinliklərinə hərəkət etməsilə bağlı erməni qüvvələri Bakını tərk etdi və türklər qisas almağa başladı. Sentyabrın 14-dən 15-nə keçən gecə 9.000-ə yaxın erməni öldürüldü. Sentyabrın 16-da osmanlılar şəhərə daxil olaraq əminamanlığı bərpa etdilər.

İlk dövrlərdə Azərbaycanın qalan hissələrində Azərbaycan türkləri son dərəcə pis vəziyyəti idi. Müqayisə olunacaq dərəcədə yaxşə silahlanmış erməni qüvvələri türk kəndlərinə basqın edirdi. Onların məqsədi türkləri qaçmağa məcbur etmək, bununla da erməni dövlətinin sərhədlərini genişləndirmək və təhlükəsizliyini təmin etməkdən ibarəd idi. Əvvəl onlar uğur qazanırdılar. Amerika kəşfiyyat mənbələrinin hesablamalırına görə 60.000 türk qaçqın vəziyyətinə düşmüş, 420 müsəlman kəndi ermənilər tərəfindən dağıdılmışdı.

İrəvan quberniyasında erməni hökuməti türklərə qarşı ənənəvi təmizləmə siyasəti tətbiq etdi. Kütləvi qətllər və kəndlərin dağıdılması sonunculları öz doğma yerlərini tərk etməyə təhrik edirdi. Konfliktin sonunadək 180.000 müsəlman, yaxud İrəvan quberniyasının müsəlman sakinlərinin üçdə ikisindən çoxu öldürülmüş və ya qaçqına çevrilmişdi.

1920-ciilədək Azərbaycan türkləri öz dövlətini möhkəmlətdi və müqavimət göstərə bilmək imkanına malik oldu. Buna şimal-şərqi Anadolunun güclənməkdə olan türk millətçiləri kömək etmişdi. Onlar erməniləri İrəvan quberniyasının təxminən əvvəlki sərhədlərində saxlayırdılar. Anadoluda, Qarsda və Bakıda olduğu kimi mülki erməni əhalisi yenə də qaçıb-qurtulmaq məcburiyyətində idi. Onlar Ermənistan Respublikasına üz tutaraq İrəvan türklərinin yerlərini tuturdular. Nəhayət, Zaqafqaziyanın sovetlər tərəfindən işğalı nəticəsində Azərbaycan türkləri və ermənilər arasındakı konfliktə fasilə verildi, 1980-ci illərdə yenidən alovlanması üçün.



**Kilikiya**

Osmanlılar və Müttəfiq dövlətlər arasında imzalanmış barışığın şərtləri sonunculara cənub-mərkəzi Anadolunu (Adana və qonşu bölgələr) işğal etmək imkanı vermirdi. Lakin buna baxmayaraq, fransızlar oranı tutdu. Hələ Osmanlı imperiyasının bölünməsi haqqında müharibə dövrünün gizli razılaşmalarında onlar Suriya torpaqlarına dair ərazi tələblərini Şimala doğru genişləndirməyə çalışaraq Kilikiyanı iddia edirdilər.



Vaxtılə Kilikiya adlanmış ərazilər

Barışıq şərtlərinə tabe olaraq türk qoşunları fransızlar gəldikdə Kilikiyanı tərk etdi. İşğalın gedişində olduqca az fransız bölmələri cəlb olunmuşdu. Odur ki, ora birinci gələn qoşunlar Erməni Legionunun hissələri oldu. Həmin hissələrə Fransanın Şərq Legionuna cəlb olunmuş ermənilər daxil idi. Legionda erməni inqilabçıları da az deyildi. Onların gəlişindən dərhal sonra türklərə hücumlar başlandı. Şərqi Anadolu draması Kilikiyada təkrar olundu. Qətl və soyğunçuluq türkləri qaçıb qurtulmağa məcbur etdi.

Tezliklə Erməni Legionuna Anadoludan və digər regionlardan olan erməni qaçqınları qoşuldular. Onların çoxu əvvəllər osmanlılar tərəfindən Suriyaya deportasiya olun-

muşdu. Təkcə Müttəfiqlərin gəmilərində onlardan 8.000 nəfər gəlmişdi. Bundan da daha çox quru yolla gəldi. Nəticədə onminlərlə erməni gələrək bütün müharibə dövründə burada qalmış minlərlə ermənìyə qoşuldu. Erməni Legionu hissələrinin hərəkətləri hətta fransız və ingilisləri də dəhşətə gətirdi. Onlar Kilikiyada olan Erməni Legionunu buraxdı. Lakin erməni qoşunları qaçqınlardan, yerli ermənilərdən və fərarilik etmiş legionerlərdən ibarət olan bandalarda birləşdi. Qətllərin, zorlama və soyğunçuluqların sayı artdı. Erməni qaçqınları onların müharibə vaxtı ermənilərdən zorla alındığını bildirərək türklərə məxsus evləri tutmağa başladı. Həmin evlərdən bəziləri həqiqətən də ermənilərə məxsus idi. Lakin zəbt olunmuş evlərin çoxu əlbəttə ki, sadəcə olaraq mövcud olanların yaxşısı idi. Belə ki, türklərin özünün çoxu ev-eşiyini itirərək qaçqın düşmüşdü. Dolaşıq vəziyyət yarandı. Müsəlmanlara edilən hücumlar, onların torpaqlarının və əmlakının zəbt olunması tezliklə cavab tədbirlərinə səbəb oldu.

1919-cu ilin qışının sonunda erməni və türk dəstələri bütün Kilikiyada fəaliyyət göstərirdi. Hər iki tərəf mülki şəxslərin öldürülməsində iştirak edirdi.

Kənd yerlərində hökm sürən ümumi anarxiyaya baxmayaraq, fransızlar özlərinin yeni koloniyaları hesab etdikləri məkana mümkün qədər daha böyük ərazini qatmaq məqsədilə Qərbə doğru irəliləməyə başladılar. Onlar Maraşa çataraq şəhəri ələ keçirdilər. Qeyd etmək lazımdır ki, *"fransız qoşunları"*adlanan qurum əsasən ermənilərdən və Seneqal koloniyasından olan əsgərlərdən ibarət idi. Böyük çətinlik çəkmədən fransızlar kifayət qədər böyük ərazini ələ keçirdilər. Lakin Maraşda təşkil olunmuş müqavimətlə üzləşdilər. Türk millətçiləri osmanlı ordusunun qalıqlarını və



yerli türklərin dəstələrini birləşdirərək Maraşı geri qaytardılar. Fransızlar və ermənilər keçdikləri yol boyu bütün türk kəndlərini məhv edərək geri çəkildilər. Yerli türklər də öz növbəsində əllərinə keçən erməniləri öldürürdülər. Frazsızlar türk millətçiləri ilə sülh bağlayaraq öz hissələrini Suriyaya çıxaranadək hər iki tərəfdən qırğınlara son qoyulmadı. Erməni əhalisi fransızların ardınca getdi.

Kilikiyada fransızların səhvi ondan ibarət oldu ki, onlar erməni hissələrindən istifadə etdilər. Nəticədə icmalararası müharibə Dünya müharibəsindən sonra da davam etdirildi. Yüksək vəzifəli fransız hərbçisi qeneral Qurab Maraş hadisələrini belə şərh edirdi: ***"Fransanın kolonial vətəndaşları və ermənilər qoşunlarda çoxluq təşkil edirdilər. Hücumların gedişində onlar cəza tədbiri kimi, türk kəndlərinin çoxunu, Maraşdan geri çəkildikdə isə praktiki olaraq hamısını yandırdılar və məhv etdilər"*** [6]. Ola bilər ki, ilk növbədə, fransızların erməni qoşunlarından istifadə etməsi onların Kilikiyanı itirmələrinə səbəb oldu. Belə ki, məhz bu türkləri müqaviməti təşkil etməyə ruhlandırdı. Əvvəlki dörd ilin tarixinin nəzərə alınması aşkar göstərirdi ki, 1919-cu ildən sonra ermənilər və türklər bir yerdə sülh şəraitində yaşaya bilməyəcəklər.

## Müharibənin nəticələri

Müharibənin sonunda Şərqi Anadolu viranə qoyulmuş torpaqlar idi. Ermənilər Suriya və Zaqafqaziyaya getmişdi. Türklər qalib gəlmişdi, lakin bu acı qələbəydi. Müharibə dövründə Şərqi Anadoluda çox şey, ermənilər geri çəkilən-

də isə bundan da çox məhv edilmişdi. Yüz minlərlə müsəlman qaçqını doğma yerlərə qayıtdıqda öz kəndlərini və evlərini dağıdılmış vəziyyətdə gördü. Əkinlər və ağaclar bütünlüklə yandırılmışdı. Geri qayıtmış kəndlilər isə kənd təsərrüfatını bərpa etmək üçün kifayət qədər toxum və ev heyvanqına malik deyildi. Şərqi Anadolunun şəhərləri ciddi şəkildə dağıdılmışdı. Məsələn, Vanda və Bitlisdə ermənilər çox kiçik istinalarla, demək olar ki, müsəlmanlara məxsus bütün evləri, ictimai və dini tikililəri məhv etmişdi. Bu şəhərlərdə 10 faizdən çox olmayaraq əhali qalmışdı. Ərzurumdan Zaqafqaziyaya qədər ermənilərin geri çəkildiyi yol boyu tikililərin üçdəikisi yer üzündən silinmişdi. Bir çox bölgələrdə demək olar ki, heç nə qalmamışdı. Qaliblərdə məğlub olanlardan artıq heç bir şey qalmamışdı. Çon nəticə olaraq ermənilər daha şey əldə etdilər. Belə ki, onlara Amerika və Avropadan yardım daxil olurdu. Türklərə isə heç nə verilmirdi.

**Ölənlərin sayı**

Birnici Dünya Müharibəsində və türk-erməni toqquşmasında həlak olmuş müsəlmanların və ermənilərin sayını hesablamaq çətindir. Əlimizdə müharibədən əvvəlki və sonrakı dövrlərə dair statistik məlumatlar var. Lakin öz evlərinə o qədər çox qaçqın qayıtmamışdır ki, Şərqi Anadoluda həlak olanların sayını müəyyən etmək mümkün deyil. Bununla yanaşı, biz Anadoluda olan bütün qurbanlarının sayına dair əhalinin siyahıya alınmasının nəticələrinin səlist öyrənilməsinə əsaslanan (*adətən dərc edilən sadə*






1912-1922-ci illərdə Osmanlı Anadolusunda əhali arasından olan qurbanlar

*ehtimallardan fərqli olaraq*) rəqəmlərə malikik. Təqribən 600.000 yaxın erməni və 2,5 milyon müsəlman həlak olmuşdur. Döyüş əməliyyatları zonasının bəzi əyalətlərində istər erməni, istərsə də türk əhalinin yarıdan çox həlak olmuşdur. Əyalətlər üzrə ermənilər arasında ölənlərin sayını müəyyən etmək mümkün deyil. Lakin Van əyalətində müharibənin sonuna kimi müsəlmanlar 60 faizdən çox azalmışdır. Şübhəsiz ki, analoji göstərici ermənilərə də aiddir.

Şərqi Anadoludakı müharibələr tarixdə ən böyük qəddarlığı ilə fərqlənən müharibələrdən olmuşdur. Birinci Dünya Müharibəsi zamanı Anadolu əhalisinin verdiyi itkilərin faizi Fransa, İngiltərə və Almaniyada olan həmin göstəricidən 25 dəfə çox olmuşdur. Əgər Birinci Dünya Müharibəsi haqlı olaraq Avropada dəhşətli müharibə kimi xarakterizə edilirsə, onda Anadolu müharibəsi üçün hansı anlayışı seçmək olar? O zamanın faciələrini təsəvvür etmək belə mümkün deyil. İztirab dərəcəsini müqayisə etməyə gəldikdə isə, hər iki tərəf elə bəlalara məruz qalmışdır ki, kimin daha çox zərər çəkdiyini müəyyən etmək cəhdinin özü belə mənəviyyətdən kənar görünür.

## Əhalinin son dərəcə böyük yerdəyişməsi

Müsəlmanların və ermənilərin son dərəcə böyük və qarşılıqlı yerdəyişməsi 1922-ci ilədək başa çatdı. Əvvəllər müsəlman xalqları yaşayan Çərkəzistan, Abxaziya, Lazistan və İrəvan quberniyası kimi Qafqaz əyalətləri indii rus və erməni torpaqlarına çevrildi. Minilliklər boyu ermənilərin yaşadığı Anadoluda indi praktiki olaraq erməni qalmamışdı. Yüz il ərzində iki milyondan çox müsəlman Krımdan və Qafqazdan Osmanlı imperiyasına köçmüşdü. 550.000-dən çox erməni Anadoludan Zaqafqaziyaya gəlmişdi. Zaqafqaziyanın özündə çoxları Ermənistandan Azərbaycana və əksinə köçmüşdü. Hər bir kütləvi miqrasiya mərhələsi bir çox müsəlman və ermənninin həyatına son qoymuşdu. Əhalinin dəyişdirilməsi baha başa gəldi.

## Nəticə

Şərqi Anadoluda baş vermiş Birinci Dünya Müharibəsi dövrünün hadisələri "erməni genosidi" kimi təqdim olunmuş və hazırdada təqdim olunmaqdadır əsasən ona görə ki, icmalararası müharibədə ancaq bir tərəfin maraqları nəzərə alınmışdır. Genosid sözü təbliğat vasitəsi kimi böyük gücə və dəyərlərə malik olmaqla yanaşı, müəyyən izahi qeyri-dəqiqliyi də özündə əks etdirir. Əsas mənasına cörə genosid insanların öldürülməsi, hər hansı bir insan qrupu üzvlərinin məhz həmin qrupa mənsub olmasına görə məhv edilməsi cəhdidir. Bu sözün Şərqi Anadoluda baş vermiş qarşılıqlı məhvetməyə, aclıq və xəstəliklərə aid edilməsinin mümkünlüyü şübhəlidir. Əgər Anadoluda genosid olmuşdursa bu



bir birinin ölümünü istəyən hər iki qrup tərəfindən törədilən genosid olmuşdur. Təbliğat şablonunu bir kənara qoyaraq ermənilərin və türklərin tarixini böyük insan faciəsi kimi öyrənmək daha yaxşı olardı.

Şərqi Anadoluda baş verənlər tarixdə ən böyük insan bədbəxtliklərindən biri idi. Onun kökləri çoxəsirlik keçmişə – rus istilalarına, millətçiliyə və dini separatizmə uzanır. Təqsir müvafiq olaraq işğal etdiyi torpaqlara heç bir qanuni hüququ olmayan rus hökümətinin, özlərinin elan etdikləri çoxluğun idarəçiliyi prinsipini nəzərə almayan fransızların, ingilislərin və amerikalıların, İmperiyanı Rusiyadan, öz xalqlarını isə bir birindən qorumaq üçün kifayət qədər gücə malik olmayan osmanlı hökümətinin və ideologiya xatirinə öz millətindən olanları qurban verməyə hazır olan erməni millətçilərinin üzərinə qoyulmalıdır.

Bu fəsildə bəhs olunan hadisələr tarixi "erməni qırğını", yaxud "erməni genosidi" deyilənlərin tarixi şərhi ilə ziddiyyət təşkil edir. Lakin qeyd etmək lazımdır ki, bu ziddiyyətlər mütləq deyil. Ermənilərin kütləvi şəkildə öldürülməsini inkar etmək də türk qırğınlarının olmadığını iddia etmək kimi bir saxtakarlıq olar. Şərqi Anadoluda və Qafqazın cənub hissəsində insanların həlak olması dünya və vətəndaş müharibələrinin nəticəsidir. Bu və digər tərfdən olan milyonlarla insan öz şəxsi evlərindən qaçmağa məcbur idi. Onların çoxunu zorakılıq, aclıq və xəstəlik nəticəsində ölüm gözləyirdi. Türklərin və ermənilərin siyasi məqsədləri diqqətəlayiqdir, lakin insan fəlakətinin dərinlikləri ilə müqayisədə bunlar ikinci dərəcəli məsələlərdir. Məsələyə ancaq ermənilərin əzabkeşliyi mövqeyindən baxanlar yəqin ki, özlərinin millətçilik görüşlərini həyata keçirirlər, lakin onlar insan əzablarının səlnaməsi olan və elə bu baxımdan da yanaşılmalı olan tarixi saxtalaşdırırlar.

## Əsas məqamlar

1. Osmanlı imperiyasında Birinci Dünya Müharibəsi dövrünün hadisələri böyük zaman kəsiyi ərzində millətçilik hissləri və xurafat prizmasından işıqlandırıldığı üçün digər analoji hallarda fərqli olaraq onlara tarixi hadisə kimi baxılmamışdır. Əslində isə onlar da ayrı-ayrı vaxtlarda başqa yerlərdə baş verənlərlə oxşar olmuşdur. Kommunikasiyaların dağıdılması, hərbi və dövlət orqanlırının fəaliyyətinin pozulması üçün partizan birləşmələrindən istifadə edilməsi əzəldən müharibənin tərkib hissəsi olmuşdur. Şərqi Anadoluda ermənilərin hərəkətləri məhz bu baxımdan qəbul oluna bilər. Rusların niyyəti baxımından həmin hərəkətlər məhz belə olmuşdur. Osmanlıların erməniləri deportasiya etməsi də klassik hərbi aksiya olmuşdur. Yaxın Şərq hökümətləri minilliklər boyu deportasiyanı strateji məqsədlər üçün istifadə etmişlər. Məhdud deportasiya partizan qüvvələri ilə mübarizə aparılmasının müasir metodlarının xarakterik xüsusiyyəti olmuşdur. Onlar Afrikada, cənub-şərqi Asiyada, Balkanlarda və digər yerlərdə aparılan partizan müharibələrində də tətbiq edilmişdir. Hər bir halda, dəqiq Osmanlı Şərqində də olduğu kimi, məqsəd partizan qüvvələrini yerli yardımdan məhrum etmək olmuşdur. Beləliklə, Birinci Dünya Müharibəsində bu klassik hərbi əməliyyat türklər kimi, ruslar tərpəfindən də istifadə edilmişdir.

2. Deportasiya haqqında osmanlı qərarı çoxdan tənqib olnur. Qeyd etmək lazımdır ki, osmanlılara qarşı haray salanların, tarixi faktları nəzərə almayaraq millətçilik motivlərini rəhbər tutanların, hər halda deportasiya faktlarını tənqid etmək üçün real əsasları var. Osmanlı höküməti özünün təhlükəsizlik hüququna malik olan erməni vətəndaşlarını müdafiə edə bilmədi və bu baxımdan özünü doğrultmadı. Lakin ermənilərə qarşı cinayətlərə görə minlərlə türkün və digər müsəlmanın məsuliyyətə cəlb olunaraq, məhkum olunması faktı göstərir ki, osmanlılar son nəticə olaraq erməni əhalisini müdafiə etmək məqsədilə qanundan istifadə etməyə cəhd etmişlər.

Məsələnin digər tərəfinə çox nadir hallarda toxunulur. Hətta bu gün belə erməni xalqının əsil təmsilçisi rolunu oynamağa çalışan daşnaklar kimi erməni inqilabı qrupları şübhəsiz ki, Şərqi Anadoluda türklərin və kürdlərin kütləvi qırğınlarının təşkilatçısı olmuşlar. Osmanlılar erməniləri, onlar da müsəlmanları köçməyə məcbur etmişlər. Lakin türklərdən fərqli olaraq ermənilər əks tərəf barəsində hər hansı bir qayğı göstərməmişlər. Hər halda bu barədə hər hansı bir məlumat mövcud deyil. Ermənilərdən heç kim müsəlmanlara edilən hücumlara görə erməni höküməti tərəfindən məsuliyyətə cəlb olunmamışdır. Lakin bu fakt çox nadir hallarda yada salınır və nəzərə alınır.

3. Şərqi Anadoludakı və Zaqafqaziyadakı Birinci Dünya Müharibəsi dövrünün hadisələri aydındır ki, tarixi konteksdən kənarda başa düşülə bilməz. Tarixi keçmişi məlum olmayan siyasi hadisələrin çox az bir hissəsi məna kəsb edir. Məsələn, alman millətçiliyinin inkişafı, Birinci Dünya Müharibəsi, Versal müqaviləsi və s. barədə heç nə bilmədən İkinci Dünya Müharibəsinin başlanmasını başa düşmək çətin olardı. Buna baxmayaraq, "erməni məsələsi" barədə tədris vəsaiti və material yazanlar olduqca tez-tez ancaq osmanlı ermənilərinin taleyini nəzərdən keçirməklə kifayətlənir və bu zaman tarixi konteksti nəzərə almırlar. Bundan başqa, müharibə dövrü hadisələrinin ancaq yarısı işıqlandırılır: ermənilərin həlak olması barədə yazır, türklərin verdiyi qurbanlar barədə susurlar. Türklərin, yaxud ermənilərin təqsirli olması barədə son nəticənin necə olmasından asılı olmayaraq, konfliktin bütün tarixi keçmişini və müharibə dövrü hadisələrinin yarısını nəzərə almadan yekun nəticə çıxarmaq olmaz.

## VI fəsil

## AMERİKALILARIN RƏYİ

### Xurafatın təsiri

Əvvəlki fəsillərdə oxucuların çoxuna məlum olmayan nəzər nöqtə – tarixə baxış təqdim olunmuşdur. Birləşmiş Ştatlarda və Kanadada erməni-türk konflikti gedişində ermənilərin türklər tərəfindən məhv edildiyi toqquşma kimi qəbul olunur. Amerikalıların bir çoxu, bəlkə də ən çoxu ermənilərin əzab çəkmələri barədə eşitmişlər, lakin onların çox az hissəsi türklərin düçar olduğu əzablar haqqında bilir. Alimlər türklərə və ermənilərə olan ənənəvi baxışla razı olmadıqlarını bildirsələr də onların elmi işləri ictimaiyyətin təsəvvürünə hakim ola bilmədi. Nə üçün amerikalılar ermənilər haqqında ancaq yaxşı olana, türklər barədə isə pisə inanmağa meyilli olmuşlar? Bunun cavabı hələ keçmiş zamanlarda müsəlmanlara, o cümlədən də türklərə qarşı yaranmış mənfi rəylə bağlıdır.

### Türklərin və digər müsəlmanların Amerikadakı obrazı

Türklərə qarşı qabaqcadan yaranmış mənfi rəyin dərəcəsi barədə təsəvvürə malik olmaq üçün lüğətə müraciət etmək kifayətdir. Vebsterin beynəlxalq ingilis dili lüğəti



hansı linqvist qrupuna malik olması və yaşayış yeri barədə ümumi məlumatlardan sonra "türk" sözünə aşağıdakı populyar anlayışı verir: *"ikiüzlülük, hissiyyatlilik və amansızlıq kimi türklərə aid edilən keyfiyyətləri ifadə edən"*. Vebsterin universitet lüğəti türk barəsində *"kobud və zülmkar"* kimi anlayışlardan istifadə edir. Rendom Hauz ingilis dili lüğəti türk barəsində *"qəddar, kobud və zülmkar insan"* kimi qeyri-rəsmi anlayışlar təklif edir. Lüğətlərdə verilən anlayışlar kütləvi mədəniyyəti əks etdirir. XX əsrin sonunda xarici xalqlar və etnik qruplar haqqında olan qərəzli fikirlər lazımi qaydada pislənmiş, lakin elə bil bu türklərə şamil edilməmişdir. Türkləri bəla kimi təsvir edən kitab və filmlər çox zəif etiraza səbəb olurdu. İnsanlar gözləyir ki, türklər həmişə *"pis oğlanlar"* kimi təsvir ediləcəklər. Hətta Bitlz *"Sarı sualtı qayıq"* filmində türkləri canilər kimi təsvir etməyə üstünlük vermişdir.

Qısa desək, *"türk"* sözü nə isə pis bir şeyin sinoniminə çevrilmişdir. Lakin Türkiyədə olanlar türklərin hər hansı başqa xalqdan daha qəddar, kobud, yaxud zülmkar olmasını qeyd etmirlər. Əslində türklərin qonaqpərvərliyi və xeyirxahlığı səyahətlərə dair bütün ədəbiyyatda qeyd olunur. Əgər xalqın populyar obrazı reallıqla uzlaşmırsa deməli nə isə qeyri-normal bir şey baş verir. Belə halda çox ola bilər ki, obraz faktlar deyil, xurafat əsasında yaradılır. Türklərlə bağlı halda xurafat yüz illərcə əvvəl yaranmışdır və bu gündə mövcud olmaqda davam edir.

## Etnik və dini stereotiplər

Türk obrazı etnik stereotiplərin adi formalaşdırılması prosesindən ziyan çəkir. İrlandlar, polyaklar, italyanlar, yəhudilər, meksikalılar, zəncilər və bir çox digərləri stereotiplərdən zərər çəkmişlər. Türk obrazı – müxtəlif xalqları neqativ planda təsvir edən çoxsaylı mənzərələrdən ancaq biridir.

Xalqlar haqqında stereotiplər bir qayda olaraq əlçatan məlumatlar əsasında yaranır. Məlumatlar az olduqda, yaxud yalanlar faktları üstələdikdə, stereotiplər çox halda neqativ olur. Müharibə dövrünün təbliğatı bəlkə də buna dair ən yaxşı misaldır. Vuruşan tərəflərin öz xalqlarına düşmənə qarşı nifrət aşıyalan hökümətləri ənənəvi olaraq təbliğatın iki əsas prinsipindən istifadə edirlər: düşmən tərəfin xalqı haqqında istənilən müsbət qiymətləndirmənin qarşısını alır və düşmənin neqativ xarakteristikasını (real, yaxud saxtalaşdırılmış) dərc etdirir. Hazırkı vaxtda bir çox hallarda müəyyən yumşalmaya yol verilsə də, bu iki əsas təbliğat prinsipi minilliklər boyu mövcud olmaqda davam edir. Belə hallarda insanlar əldə olan məlumatlara əsaslanaraq nəticə çıxarmağa məcburdurlar. Əgər bu məlumatlar yalandırsa, insanların baxışı da müvafiq olaraq yanlış olacaq.

Hətta hökümət orqanlarının köməyi olmadan belə bu prinsiplər tətbiq edilə bilər. XIX əsrdə Amerika hinduları barədə ictimai rəy neqativ idi. Əsgərlər və yeni məskunlaşanlar tərəfindən hinduların məhv edilməsi barədə heç bir hesabat dərc edilmirdi. Stereotiplərin kök atmasına kömək edən fakt ondan ibarət idi ki, əksəriyyəti Birləşmiş Ştatların şərqində yaşayan oxucular heç vaxt yerli amerikalıları öz



gözləri ilə görməmişdilər. Bunları çinlilər, afrikalılar və bir çox digər xalqlar haqqında da demək olar. Ekzotik hekayələri sevən və faktların doğuruluğu qayğısına çox da qalmayan mətbuat yerli əhalinin törətdiyi cinayətlər barədə "rəngli" hekayələr çap edirdi. Amerika hindularını, çinliləri, yaxud digərlərini heç kim müdafiə etmirdi. Onların tarixi və gündəlik həyatı barədə həqiqəti söyləyən bir kəs yox idi. Ancaq qərəzli və natamam məlumat alan ictimaiyyət, təbii ki, ən pisinə inanırdı. Onlara deyilirdi ki, yerli amerikalılar olan hindular, eləcə də çinlilər, afrikalılar və digər xalqlar nadan və pis insanlardır. İctimaiyyət də buna inanırdı. Türklər haqqında ictimai rəy də bu baxımdan istisna deyildi.

Türklərin mənfi obrazı uzun müddət ərzində yaranmışdı. Bütün xurafat olduğu kimi, bu da yarımhəqiqətdən, köhnəlmiş baxışlardan və saxtakarlıqdan ibarət idi. XIX əsrdən gəlmiş xurafatların çoxu bizim dövrdə yumşalmış, bəziləri isə yox olmuşdur. Türklərə qarşı olan əvvəllər yaranmış mənfi rəyin aradan qaldırılması isə çətin oldu, baxmayaraq ki, o da, zəncilərə, hindulara, polyaklara, yaxud irlandiyalılara qarşı olan mənfi rəylər kimi əsassız olmuşdur. Həmin xalqların çoxsaylı təmsilçiləri Amerikada yaşayır. Təmsilçisi sənin qonşun olan xalqa qarşı fanatik münasibət bəsləməkdə davam etmək isə çox çətindir. Lakin Amerikada türklər az idi və onlar barəsində olan stereotiplər aradan qalxmırdı. Türklərə qarşı olan qərəzli münasibəti aradan götürmək xüsusilə çətin idi. Belə ki, onlar qeyri xristianlara qarşı olan daha qədim yanlışlıqlara köklənirdi.

### “Dəhşətli türk”

Orta əsirlər dövründə islam Avropada olduğu kimi, Yaxın Şərqdə də xristianlıqla rəqabət aparırdı. İslamdan qorxur, ona nifrət bəsləyir və xristianlığa düşmən qüvvə kimi baxırdılar. O faktı təkrar etməyə ehtiyac yoxdur ki, islam Avropada mənfi obraz idi. Bu o dövrün fanatiklərinin yəhudilərə də aid etdikləri hər cür yalanlardan “bəhrələnən” son dərəcə yanlış obraz idi. Qərb təfəkküründə “dəhşətli türk” obrazı məhz neqativ islam obrazı əsasında formalaşmışdı. Türklərin Yaxın Şərqə gəlməsindən hələ yüz illərlə əvvəl müsəlmanlar xristianların gözündə düşmənə çevrilmişdi. Səlib yürüşləri zamanı, müsəlmanlara və islama qarşı olan bu nifrətin xüsusilə cüclü olduğu bir dövrdə türklər Avropada ən güclü islam döyüşçüsü kimi tanındılar. Bununla bağlı olaraq onlar səlib yürüşlərinin yaratdığı bütün dini nifrətin obyektinə çevrildilər.

Osmanlılar xristian ölkələrini zəbt etdikcə qorxu, nifrət hissini daha da gücləndirdi. Türklər islam dünyasının lideri idi. Onların Avropanın xristian ölkələrinin işğal edilməsindəki uğurları avropalılarda yeni işğal qorxusu yaratdı. Martin Lüterin və Roma papasının üst-üstə düşən çox az fikirlərindən biri də türklərə qarşı olan nifrət idi. 300 il ərzində osmanlılar Avropa üçün təhlükə olaraq qaldılar. Qərbdə türklər haqqında stereotiplərin yaranması üçün bu dövr lazım olduğundan artıq idi. Stereotip adi bir şeyə çevrildi – bığlar, çalma, qəzəbli baxış, qadını və uşağı yataqanla doğramağa hazır olma. İtaətə nail olmaq üçün valideynlər uşaqları “türk”lə qorxudurdular (*əgər onlar özlərini pis aparsalar türk gəlib onları aparacaq*). Caniləri təsvir etmək üçün türklər münasib obraza çevrildilər. Məsələn, “Otello”da Şekspir “çalmalı olan qəzəbli türkdən” yazır. Kilsələrdə “dəhşətli türk”ün gətirdiyi fəlakətlərdən qurtuluş diləyən dualar ucalırdı.



Avropanın türklər tərəfindən işğal olunması təhlükəsi aradan qalxdıqdan sonra belə türklərə qarşı olan qərəzli münasibət uzun müddət qaldı. Ola bilər ki, türk obrazı Qərb şüurundakı müəyyən psixoloji tələbatı təmin etmişdir. Türklər təkcə kinii deyil, eləcə də rəqs edən qızlar, kənizlər və qeyri-adi cəhcəlalla əhatə olunmuş şəhvətli insanlar kimi də təsvir edilirdilər. Bu ancaq siyasi sənədlərdə olduğu kimi romantizm incəsənətində də əks olunurdu. Məsələn, fransız romantizm ustası Ejen Delakrua özünün “Xiosda qırğın” əsərində bu stereotipləri canlandırmışdı. Burada hər şey göz qabağındadır: əlindəki əyri qılıncı oynadan çalmalı, mənasız və qəddar üz ifadəsi olan türk köməksiz və bakirə xristian qızı doğramağa hazırdır. Rəssam qızı öz qadın gözəlliyini sərfəli şəkildə nümayiş etdirmək məqsədilə paltarını bir qədər əli ilə tutub saxlayan vəziyyətdə təsvir etmişdir. Budur eyni vaxtda təqdim olunmuş qəmgin vuayerizm və xristian qəzəbi göz qabağındadır. Bu halda onlar tamaşaçıya məhz onun özünün istədiyini verən rəssamın şöhrət və varidatını artırmaq məqsədilə istifadə olunmuşdur.

### XIX əsr

XIX əsrdə türklərin təsvir edilməsindəki neqativ mədəni stereotiplər “erməni məsələsi” ətrafında ictimai rəyin yaranmasına təsir edən faktorlara çevrildi.

Amerikanın özündə türklərin emosional dərk edilməsinin amerikalıların rəyinin formalaşmasına böyük təsiri oldu. Erməni-türk konflikti haqqında amerikalılara çatan az qala bütün informasiya rəhbər tutduqları nəzəriyyəyə rasizmin təsiri barədə yuxarıda qyd edılmiş amerikalı missionerlərdən gəlirdi. Bu missionerlər isə öz həmvətənlilərinə ancaq erməni əzabkeşliyi barədə məlumat verir, türklərin çəkdiyi əzablardan isə heç nə bildirmirdilər. XIX əsrin 90-cı illəri və Birinci Dünya Müharibəsi dövründəki erməni inqilabçıları və müsəlman qırğınları ümumiyyətlə yada salınmırdı. Çox nadir hallarda ermənilərin üsyançı millətçilərinin mövcudluğu etiraf edilir, lakin müsəlmanlar, məsələn çərkəzlər arasındakı aclıqdan və yüksək ölüm halları barədə demək olar ki, danışılmırdı. Bu hesabatlardan belə şübhəsiz nəticəyə gəlmək olardı ki, müsəlmanlarda hər şey qaydasındadır, ehtiyac içində olan ancaq ermənilərdir. Bunların hansı hissəsinin qərəzli olaraq yazıldığı bəlkə də heç vaxt müəyyən olunmayacaq. Ola bilər ki, qabaqcadan əmələ gəlmiş mənfi fikir missionerləri "kor edir", ona görə də onlar öz ətraflarında baş verənləri görməmişlər. Bəlkə də onların yerli müsəlmanlarla olan dostluq əlaqələri çox məhdud olmuşdur. Onların bu qədər az görə bilmələrinə inanmaq çətindir. Bununla yanaşı, onlarda qabaqcadan əmələ gəlmiş mənfi fikrin nəticələri son dərəcə ciddi olmuşdur.

Sözsüz ki, çoxsaylı istisnalar olmaqla yanaşı, XIX əsrin amerikalıları bəşəriyyətə yuxarıdan baxırdı. Yaponlar, Amerika zənciləri, çinlilər, hindular, meksikalılar, afrikalılar və bir çox digərləri olduğu kimi türklər də yarımsivil, bundan da betər, mədəni tərəqqini nəzərə almayan hesab olunurdu. Bu onların çoxəsirlik sivilizasiyanın nailiyyətlərinə xor baxmaqda ittiham olunması demək idi. Osmanlı incəsənətinin valehedici əsərləri bu gün insanı heyran edir və dünyanın ən yaxşı müzeylərində nümayiş etdirilir, baxmayaraq ki, bir əsir əvvəl hesab edilirdi ki, türklərin incəsənəti yoxdur. Türklərin möhtəşəm poeziyası Amerikada məlum deyildi və buna görə də hesab edilirdi ki, o yoxdur. Beş əsr ərzində İmperiyanı uğurla idarə etməsinə baxmayaraq, elan olunmuşdu ki, osmanlı hökuməti heç də hökumət deyil. Osmanlı imperiyasının müsəlmanları tez-tez dini fanatlar kimi təsvir olunur və bu onların xristianlara ehtimal olunan hücumlarının motivi kimi təqdim edilirdi. Lakin Osmanlı imperiyası uzunmüddətli dini dözümlülük ənənəsinə malik idi. Xristian və yəhudi qruplarına öz dinini və adətlərini qoruyub saxlamağa, öz işləri üzərində yurisdiksiyaya malik olmağa icazə verirdi. Əslində isə xristianların özləri tarix boyu qeyri xtistianlara qarşı qabaqcadan əmələ gəlmiş mənfi dini rəy nümayiş etdirirdi. Xristianlar İspaniyanı işğal edərək bütün qeyri xristianlara zorla xristianlığı qəbul etdirməyə çalışdıqda məhz Osmanlı imperiyası İspaniya yəhudilərini qəbul etmişdi. Xristianlar barəsində müsəlman dözümlülüyünün tarixi müsəlmanlara olan xristian dözümlülüyünün tarixindən daha zəngindir.

XIX əsr amerikalıları türk poeziyası, incəsənəti və dövlət ənənələri barədə çox az bilir, yaxud heç nə bilmirdi. Buna baxmayaraq, onlar qabaqcadan əmələ gəlmiş və XX əsrin əvvəllərində qəzetlərdə oxuduqları hesabına möhkəmlənən öz mənfi rəylərində israrlı idilər. Artıq qeyd olunduğu kimi, XIX əsrin sonlarında, XX əsrin əvvəllərində türklər barəsində olan ictimai rəy missionerlər, Amerika ruhaniliyi, türklərlə konfliktdə olan ermənilər və digər qruplar tərə-

findən formalaşdırılırdı. Amerika qəzetlərinin qərəzliliyi də bunda əhəmiyyətli rol oynayırdı. İctimaiyyət türklər barəsində ən pis nəvarsa eşitmək istəyirdi. Qəzetlər, jurnalistlər, redaktorlar, siyasətçilər və onlarla birlikdə olan geniş kütlədə türklərin özlərini müdafiə etməyə inandırdığı çox az kəsləri eşitməkdən imtina edirdi.

**Amerika ermənilərinin rolu**

Xristianlar haqqında ancaq yaxşıya inanmaq kimi Amerika meylliliyindən başqa hadisələrə dair öz versiyalarını Amerikada təsdiq etmək işində ermənilər türklərlə müqayisədə daha iki boyük üstünlüyə malik idi. Birincisi, XIX əsrin ikinci yarısında çoxlu erməni ABŞ-a mühacirət etdiyi üçün böyük Amerika şəhərlərində onların icmaları var idi. İkincisi Amerika missionerlərinin hesabatları ermənilər üçün Amerikada çox yaxşı mühit yaratmışdı.

Erməni emiqrantları bu ölkədə nüfuzlu koloniyalar yaratmışdı. Onların səsinə bir sıra böyük Amerika şəhərlərinin, o cümlədən də Nyu-York və Bostonun sakinləri qulaq asırdı. Onların məktubları mütəmadi olaraq qəzetlərdə dərc olunur, bununla da ermənilərin nəzər nöqtəsini Amerika kütləsinə çatdırırdı. Lakin türk emiqrantlarının Amerika redaktorları və konqresmenləri ilə ünsiyyətdə ola biləcək oxşar qrupları mövcud deyildi. Uzun müddət ərzində Amerika ictimaiyyəti ancaq ermənilərdən eşidə biləcəyi nəzər nöqtəsinin təsiri altında olmuşdu. Ötən əsrin doxsanıncı illərində mətbuat erməni rəyini ancaq dərc etməklə yaymır, eyni zamanda onların nəzər nöqtəsini geniş məqalələrdə



müdafiə edir, müsahibə almaq üçün erməni diasporunun daxilində nüfuzlu liderlər axtarırdı. Amerikadakı erməni icmasının ifadə etdiyi rəy amerikalıların bütünlüklə müsəlmanlara, o gümlədən də türklərə olan baxışına uyğun gəlirdi. Onlar ermənilərin Osmanlı imperiyasındakı həyatını amerikalıların mömin insanlar haqqında olan təsəvvürlərinə uyğun olaraq təsvir edirdilər.

Çox nadir hallarda bu və ya digər redaktor bu ideallaşdırılmış təsəvvürün təhrif olunmasını qeyd edirdi. Hər şeydən əvvəl, ermənilərə ermənilərin özü haqqında nə istəyirdisə onu da oxuculara danışmağa icazə verilirdi. Ermənilər özlərini "Şərqin yankiləri" adlandırır, öz işgüzarlıqlarını, protestant olmalarını (*baxmayaraq ki, ermənilərin böyük əksəriyyəti protestant deyildi*) qeyd edir, erməni qadınlarını alicənab, səmimi, tərbiyəli ailə həyatına sadiq olan kimi və s. təqdim etməyə çalışırdılar. Ermənilər haqqında missionerlər yazanda belə yenə də onlar ermənilərin özlərinin baxışına əsaslanırdılar. Beləliklə, ermənilərin Amerikadakı imici ermənilərin özləri və dostları tərəfindən formalaşdırılırdı.

Heç kim türklərdən özləri barədə danışmağı xahiş etmir və onlara bunu etməyə imkan də verilmirdi. Onlar barəsində ya ermənilər ya da xristian ruhaniliyinin nümayəndələri yazırdı. Ermənilərin özləri barədə olan rəylərindən fərqli olaraq, onların türklər və islam barəsində söylədikləri heç də dostluq və hətta neytrallıq deyil, parlaq ifadə olunmuş düşmənçilik xarakteri daşıyırdı. Bir qayda olaraq, türklər müsəlman fanatları kimi təsvir olunurdu. Faktiki olaraq mətbuatda "türk", yaxud "muhammədi" (*müsəlmanın təhrif olunmuş adı*) sözlərindən əvvəl, "amansız" və "adam öl-

dürməyə meylli" kimi sərt şablonlardan istifadə olunmadığı halda, demək olar ki, həmişə "fanat" və "fanatlaşmış" ifadələri verilirdi. Tez-tez iddia olunurdu ki, güya islamın ehkamlarından biri xristianların məhv edilməsinə çağırışdır. Çox nadir hallarda bu yalan təsəvvürlər şübhə altına alınır, yaxud ifşa olunurdu. Beləliklə, ictimaiyyət inandırılmışdı ki, güya türklər yaxşı müsəlman olduqları üçün xristianları öz dini borclarını yerinə yetirmək xatirinə öldürürlər. Xristianları doğrayan müsəlmanlar haqqında ermənilərin hər bir məlumatından sonra bu fikir daha da inandırıcı görünürdü. Müsəlmanlar barəsindəki kütləvi xristian vəhşilikləri isə kölgədə qalırdı. Əgər onlar barəsində məlumat verilirdisə də bu tezliklə unudulurdu. Belə ki, erməni vəhşilikləri haqqında müstəqillik uğrunda mübarizənin qanunauyğunluğu kimi danışılırdı. Beləliklə, türklər barəsində Amerikanın rəyi onların düşmənləri tərəfindən formalaşdırılırdı.

Ermənilər Amerikada da Şərqi Anadoluda da yorulmadan təkrar edirdilər ki, osmanlı hökumətinin erməniləri məhv etmək planı var. Kütləvi erməni qırğınları törətmək barədə əmr vermək icmalararası toqquşmalar zamanı hakimiyyətdə olmuş sultanın və hökümətin ayağına yazılırdı.

Osmanlı hökümətinin bütün xristianları məhv etmək planı haqqında əsassız bəyanatlər də bu ittihamlara yaxın idi. Osmanlı hökümətinə isnad olunan xristianları məhv etmək niyyətinə dair ittihamlar mömin müsəlmanların insanları ancaq xristian olmasına görə öldürdüklərinə artıq inanan ictimaiyyətin şüurunda münbit mühit tapdı. Hətta bəzi qəzetlər tərəfindən də qeyd olunduğu kimi, ermənilərin öldürülməsinin erməni inqilabçılarının müsəlmanları öldürməsindən sonra baş verməsi faktı, heç bir əhəmiyyətə



malik deyildi. Türklərə qarşı olan istənilən ittiham münasib idi. Məsələn, xüsusilə gülünc bir halda Amerika erməniləri osmanlı hökümətini "Qnçak" erməni inqilabçı partiyasını təşkil etməkdə ittiham etmişdilər. Belə iddiaların köməyi ilə ermənilər osmanlıların erməniləri öldürmək bəhanəsi əldə etmək məqsədilə erməni inqilabçı partiyalarını təşkil etmələri barədə təəsürat yaratmağa çalışırdılar.

Amerikadakı erməni icması erməni inqilabçılarına əhəmiyyətli dərəcədə yardım edirdi. Arabir Amerika erməniləri inqilabçıların güctətbiqetmə mübarizə metodlarını bəyənmədiklərini bəyan edir, lakin bunun ardınca onların "rəşadətini", "təmizliyini", "səmimiliyini" göylərə qaldırır, "yaxşı təhsil almış" və "vətənpərvər" insanlar olmaları barədə fikir söyləyirdilər. Digər ermənilər inqilabçıların osmanlı hökümətinə qarşı istifadə etdikləri istənilən metodu bəyənərək onları açıqcasına müdafiə edirdilər. Sonralar mətbuatda və oxucular arasında belə rəy yarandı ki, osmanlı höküməti – ***"canilər yığnağıdır..., canilərə qarşı isə bütün vasitələr yaxşıdır"*** [7]. Beləliklə, özlərinin Amerikada olmalarından və nüfuzlarından istifadə edərək ermənilər bu Yaxın Şərq konfliktini ABŞ-a gətirdilər.

Belə şərait yarandı ki, ABŞ-da ancaq tərəflərdən biri öz maraqlarını müdafiə edə bilirdi. Lakin hətta bu nəzərə alınsa belə, ruhaniliyin və qəzetlərinin köməyi olmadan ermənilərin səsi eşidilməyə də bilərdi.

## Ruhanilərin rolu

Bu kitabda verilən bütün müddəalardan bəlkə də ən çətin alınanı ruhaniliyin ünvanına deyilən tənqidi fikirlərdir. Təbii ki, XIX əsr Amerika ruhaniliyin in bu günkü ruhanilikdən praktiki olaraq heç nə ilə fərqlənmədiyini güman etmək səhv olardı. Bu gün rühanilər hər cür rasizm təzahürləri ilə mübarizənin ön cərgələrində olaraq bütün bəşəriyyətin qardaşlığını səmimiliklə qeyd etməyə çalışır. Bu gün missionerlər Türkiyədə və Yaxın Şərqin digər ölkələrində müsəlmanlara rəğbət bəsləyənlərin və onları hamıdan yaxşı başa düşənlərin sırasindadır. Bu missionerləri yüz il əvvəl olduğu kimi, yenə də həmin kilsələr göndərir. Lakin yüz il əvvəl hər şey təmamilə başqa şəraitdə idi. Özlərinin rühanilik əqidəsinə baxmayaraq hər halda missionerlər öz zəmanələrinin övladları idi. Onlar ötən əsrdə böyümüş və öz zəmanələrinin bütün xürafatını canlarına çəkmişdilər. Xristian dininə sadiq olmaları onları digər dinin nümayəndələrinə rəğbət bəsləmək əvəzinə onların dini əqidələrini qəbul etməyənləri qınamağa məcbur edirdi. Missionerlər heç də Şərqi Anadolu hadisələri haqqında dürüst məlumatların neytral mənbəyi deyildi. Onlar xristian dininin üstünlüyünə və ermənilərin irqi üstünlüyünə əmin idi. Bu isə onların bütün müşahidələrinə güclü təsir göstərmişdi. Bundan başqa, erməni tərəfini müdafiə etməkdə missionerlərin xüsusilə praktiki marağı vardı. Şərqi Anadolu hadisələri haqqında onların hesabatlarının xarakteri Amerika missiyasının ermənilər üçün missiya olması faktının güclü təsiri altında idi. Ermənilər olmasa protestant kilsəsinin özünün Osmanlı imperiyasında mövcudluğu çox çətin mümkün ola bilərdi. Belə ki, Anadoludakı digər milli qruplardan fərqli olaraq məhz ermənilər tez-tez protestant məzhəblərini qəbul edirdilər. Deyilənlər təkcə müsəlmanlara deyil, missionerlərin səylərinə etinasızlıq göstərən və çox nadir halda öz dinini dəyişən yunanlara və yəhudilərə də aiddir.



Missionerlərin ermənilərdən asılı olması onlarla təbii yaxınlaşmaya aparır, onları işlərinin uğurlu olmasında ermənilərə kömək etməyə ruhlandırırdı. Ermənilərin vəziyyəti nə qədər yaxşı olurdusa missiyanın da vəziyyəti bir o qədər uğurlu olurdu. Erməni qiyamı başladıqda ermənilərin məğlubiyyətinin missioner fəaliyyətinin sonu ola biləcəyi üçün real təhlükə yarandı. Təəccüblü deyil ki, buna görə də missioner hesabatlarında ermənilər arasındakı itkilər barədə məlumatlar çox vaxt şişirdilmiş olur, müsəlmanların verdiyi itkilərin üstündən sükutla keçilirdi. İnqilabçılar olduğu kimi, missionerlər də ermənilərə kömək etmək üçün Avropa müdaxiləsinə çağırışlar edirdi.

Amerikada ermənilərə ən böyük səs-küylə kömək edən protestant rühaniləri "Şərq məsələsi" adlandırılan şeyin erməni və missioner versiyasının reklam olunması və yayılması üçün özlərinin çox böyük nüfuzundan və təsir imkanlarından istifadə etdilər. Belə gəlir ki, bu ruhaniliyin məlumat mənbəyi ancaq missionerlər və Osmanlı imperiyasından gəlmiş ermənilər ola bilərdi, halbuki, indi konkret məlumat mənbəyini müəyyən etmək mümkün deyil. Onlar barəsində ancaq belə deyilirdi: "*etibarlılığına zəmanət verilməsi mümkün olan dəqiq mənbələr*". Həmvətənli keşişlər kimi missionerlərə həm də ona görə inanırdılar ki, mətbuatın yazdığı kimi, şübhəsiz ki, onlar "*Amerika cəmiyyətinin ən yaxşı dairələrindən*" törəmişlər. Əslində isə missioner-

lərin göndərdiyi məlumatların səhistliyindən şübhələnməyə əsas verən çoxsaylı səbəbləri var idi.

O zamanlar protestant kilsəsi və onun xadimləri indikindən əhəmiyyətlidərəcədə nüfuzlu qüvvə idi. Keşişlərin, konqreqasionalistlərin, yaxud presviterianların məktubları, yığıncaqları, tədbirləri və çıxışları barədə yazılar mütəmadi olaraq qəzetlərin baş sərlövhələrində müharibələr və əhəmiyyətli seçkilər haqqında xəbərlərlə yanaşı dərc olunurdu. Televiziya və radionun olmadığı əsrdə minlərlə insan ictimai yığıncaqlarda türkləri ifşa edən ruhanilərə qulaq asırdı. Osmanlı imperiyasında şərait mürəkkəbləşəndə belə çıxışlar hər həftə olurdu. Məsələn, özünü teoloq kimi təqdim edən professor Skaff adlı bir nəfər 1878-ci ildə Nyu-Yorkdakı populyar şənbə günü keçirilən axşam çıxışlarından birində ümumi rəyin xülasəsi kimi təsdiq edirdi ki, "dəhşətli türk" idarə etdiyi ölkəni müflisləşdirib, ümumiyyətlə türk Avropada olmalı deyil, belə ki, o, ***"heç vaxt kifayət qədər avropalaşmayıb – o ancaq öz çadırını Konstantinopolda qurub".*** (Türk dövlətinin müvəqqətiliyi haqqında fikirin özü ümumiyyətlə maraqlıdır, belə ki, türklər 1453-cü ildə Konstantinopolda "düşərgə qurublar" və bu günə kimi də oradadırlar. Bu isə ABŞ-ın dövlət kimi mövcud olduğu dövrdən dörd dəfədən artıq çoxdur. Eyni zamanda professor Skaffın və onun müasirlərinin ağlına gəlmirdi ki, avropalıların "Yeni dünyada" işləri olmamalıdır. Habuki, onlar burada yaşayan xalqlar birliyini məhv etmişlər, özləri isə moqavk, siu, yaxud çeroki olmağa cəhd belə etməmişlər.)

Skaff kimin məhz başqa xalqları idarə etməli olduğunu izah edirdi. Türkləri qınadıqdan dərhal sonra o, Hindistanda ingilis hökmranlığını göylərə qaldıraraq deyirdi: ***"Biz şübhə edə bilmərik ki, bu hindistan irqi üçün ən böyük xoşbəxtlikdir. Bu insanın özünün xoşbəxtliyi xatirinə onun işlərini idarə edən qüvvənin özüdür. İngilislər yarımsivil irqləri idarə etməkdə fövqəladə bacarıq göstərmişlər. İngiltərə idarə edən yerə azadlıq, müstəqillik, evə-ailəyə məhəbbət, ingilis ədəbiyyatının, mülki və dini azadlığın misilsiz xəzinələri gəlir"*** (alqışlar.) [8]. Skaff iddia edirdi ki, Hindistan onu işğal etmiş millətə "müstəqilliyə" və "azadlığa" görə minnətdardır, yox əgər bu belə deyildirsə o, buna görə minnətdar olmalıdır.

O zaman Avropa imperializmi bütün dünya üçün ***"ilahi təyinat"*** hesab olunurdu. Bu avropalılar və amerikalılar üçün şübhəsiz idi, baxmayaraq ki, qalan bütün dünya üçün aydın deyildi.

Müsəlmanları idarə etməyə xristianların "ilahi" hüququ konsepsiyası olduğu kimi (əksinə yox), xristian ruhanilərinin islama yanaşmasında da ikili standart mövcud idi. Müsəlmanları qismən də xristian dinini qəbul etmək istəmədiklərinə görə fanatizmdə ittiham edirdilər, baxmayaraq ki, xristianların dini dəyişməsindən söhbət belə gedə bilməzdi. Elə bil ittiham edənlərin ağlına gəlmirdi ki, onlar öz dinlərinə sadiq olduqları kimi, müsəlmanlar da sadəcə olaraq öz dinlərinə sadiqdirlər. Əgər dərin inam fanatizmdirsə, onda beləcə olaraq xristianlar özləri də fanatikdirlər. Amerika missionerlərinə müsəlmanların onların möizələrinə qulaq asmaq istəməməsi qeyri-adi görünürdü. Bu onları təəccübləndirir və qıcıqlandırırdı. ***"Bu ölkənin Mühəmmədiləri (müsəlmanları – A.C.) xristian xütbəsinə hissiyyatsızdır"*** - deyə, Missioner S.Bartlet şikayətlənirdi. - ***"Şərqin anqlosaksları adlandırılan, alicənab irq olan, ermənilərə diqqət ye-***

***tir. Onlar aktiv, təşəbbüskar, fərasətli və inadkardırlar... Onların mənəvi prinsipləri onları əhatə edən türklərinkindən üstündür"*** [9].

Ruhanilik və missionerlər "ağ insanın bəxtinə çıxan" kimi anlayışla ifadə olunmuş öz dövrlərinin ümumi xurafatına şərik çıxırdılar. Onlar inanırdılar ki, Qərbin ağ xristian sivilizasiyasının qisməti dünyanı fəth və idarə etmək, barbar xalqları maarifləndirməkdir. Bu fəlsəfədə Osmanlı imperiyasının ehtimal edilən işğalına və parçalanmasına bəraət qazandırırdı. Məsələn, 1896-cı ildə episkop kilsəsinin Bruklində keçirilən yığıncağında belə fikir söylənilmişdi: ***"Uşaqlıqdan qılınc dini – islamın haqlı olmasına əmin olan və düşmənləri üzərində qələbələrə görə bu barədə mühakimə yürüdən bütün mühəmmədi (müsəlman – A.C.) xalqının rifahı xatirinə, ancaq güc fanatik qəzəbi mərhəmətlə yatıraraq onu həyatın daha yüksək səviyyəsinə qaldıra və xristian sivilizasiyasının üstünlüyünə inindıra bilər"*** [10].

Qabaqcadan gələn dini yanlışlıq və rasizm bir birinə sarınmışdır. Yenə də deyilirdi ki, ağıllı dəlillər türklər üçün deyil, onlar ancaq kobud qüvvəni başa düşürlər.

Bir nəfər keşiş acıqla hayqırmışdı ki, missioner broşurlarını türklərə olduğu qədər də uğurla Mərkəzi Afrikanın zəncilərinə göndərmək, bununla da həmin xalqlara öz münasibətini bildirmək olar. Baptist pastor Rusiyanın xristian ölkəsi kimi Bosfor üzərində nəzarəti ələ almalı olması barədə Qərbdə populyar olan rəyini müdafiə etmişdi. O, ***"türk idarəçiliyinin məhv edilməsi zərurətindən sivilizasiyanın və xristianlığın tələbi"*** kimi kimi danışırdı [11]. Beyrutda keçmiş maarif naziri "Ermənistanın vəziyyəti"ni belə təsvir edirdi: ***"Bu ona bənzəyir, elə bil Nyu-York yüz min vəhşi hindunun öhdəsinə verilmiş ola və onlar bilələr ki, orada tam cəzasız olaraq istədiklərini törədə bilərlər"*** [12]. Türklərin hindlilər, afrikalılar,çinlilər və "vəhşi" hindularla müqayisə olunması təsadüfi deyil. Bu xalqlar qeyri-sivil, yaxud ən yaxşı halda yarımsivil hesab edilirdilər. Hesab olunurdu ki, xristian sivilizasiyası Qərbin hərbi gücünə arxalanaraq bu xalqları ram etməlidir. Amerikalıların əksəriyyəti bu xalqların hərəkətlərində insani motivlərin olmasını çətin ki, mümkün hesab edə bilərdi. Onlar hesab edirdilər ki, hündular sivil insanlara hücum edirlər ona görə ki, vəhşilər məhz belə də etməlidirlər. Afrikalıların vəhşiliyi bütün ağlabatan hədləri aşır, əlbəttə ki, osmanlılırla sivill ölkə kimi iş götmək olmaz [13].

Amerika ruhaniliyi öz bəyanatlarında müsəlmanlara qarşı döyüş ruhunda mənfi rəy nümayiş etdirirdilər. Ermənilərin və missionerlərin ardınca onlar da təkrar edirdilər ki, müsəlmanlar – fanatdırlar. 1890-cı ildən başlayaraq və Birinci Dünya Müharibəsinin sonunadak bu çərkəzlər, türklər və kürdlər barəsində verilən əsas anlayış idi. Bütöv xalqlar, məsələn, o cümlədən də çərkəzlər *"fanatik quldurlar"* kimi səciyyələndirilərək nüfuzdan salınırdılar. Türklər erməniləri soyan bu *"insan cildinə girmiş məlunları"* başlıbaşına buraxmaqda ittiham olunurdular. Təbii ki, bu zaman çərkəzlərin Rusiyadan qovulması elə bu səbəbdən də yaranmış və onları soyğunçuluğa məcbur edən aclıq barədə bir kəlmə də olsa deyilmirdi. Amerika ruhaniliyi bütün bunların əsil təqsirkarı olan rusları ittiham etməyi ağlına belə gətirmirdi, çünki Rusiya xristian ölkəsi idi.

Ruhaniliyin islama olan münasibəti özünün kəskin təzahürlərinə görə tam anlamama və açıq-aşkar dözümsüzlüklə

səciyyələnirdi. Məsələn, görkəmli missioner ailəsindən olan pastor E.M.Bliss belə bəyan etməyi özü üçün mümkün saymışdı ki, "islam mənəvi öhdəlikləri tanımır". O, təsdiq edirdi ki, ***"Müsəlman üçün ancaq qanun və qaydaları pozmaq günahdır. Yalan, soyğunçuluq və adam öldürmə mənəvi məzmuna malik deyil. Onlar islam dövlətinin maraqları naminə və hətta şəxsi mənfəət məqsədilə istifadə edildikdə belə tam qanunidir"***. Blissə elə gəlirdi ki, ***"qəddarlığa, acgözlüyə və hədsiz cismaniliyə sadəcə olaraq icazə verilmir, hətta belə hərəkətləri edənlər ruhlandırılır"***. O ki qaldı ermənilərə, təbii ki, onlar barəsində deyilirdi ki, bu ***"şərq irqləri arasında mənəvi prinsiplərin təmizliyi, evə və ailə həyatına bağlılığı ilə seçilən və çox qonaqpərvər bir xalqdır"*** [14].

XIX əsrin ruhaniliyi əmin idi ki, amerikalılar dünyanın ən yaxşı xalqıdır. Onlar özlərini bütün bəşəriyyətin modeli kimi görürdülər. Türklər Amerika həyat tərzini qəbul etmək istəmirdilər, ermənilər isə, keşişlərin güman etdiyi kimi, günü-gündən amerikalılara daha çox oxşayırdılar. Onlar erməniləri türklərlə müqayisədə daha zəhmətkeş, adət və ənənələrində daha alicənab və çoxlu sayda mənəvi keyfiyyətlərə malik olan kimi təsvir edirdilər. Bir sözlə, ermənilər amerikalılara bənzəyir, türklər isə yox. Məsələn, ermənilərlə məşğul olan Amerika missionerləri onların yankilərə oxşamalarını öz hesabatlarında qeyd edirdilər. Hesabatlardan birində deyilirdi, – ***"Hətta amerika həyat tərzinin ən qatı müdafiəçiləri də missionerlərin öz ölkələri üçün xaricdə etdiklərinin yarısını belə edə bilməzdi... Dini, ictimai və digər təşkilatlar Amerika həyat tərzinin təbliği üçün çox iş görürlər... Hətta vəhşi Kürdüstanda da elə insana (yəni, erməniyə) rast gəlmək olar, hansı ki, yanki stilində dəlil gətirəcək, üslubuna görə yankilərə çox oxşar olan, yankilərə məxsus ifadə tərzində çıxış edəcəkdir. Burada məktəbliyə sual verin, onun cavabı sizətanış olacaq. Ona coğrafiyadan sual verə bilərsiniz, sizi təəccübləndirəcək ki, o ABŞ haqqında daha çox bilir, nəinki öz ölkəsi... Bütün bunları gördükdən sonra əlbəttə ki, siz Kürdüstanın mərkəzində Amerika saatına, stullara, kənd təsərrüfadf alətlərinə, pambıq təmizləmə maşınlarına, ağackəsənlərə, tikiş maşınlarına, Amerika çiçəklərinə rast gəldikdə təəccüblənməyin... Toplaşanlar tərəfindən "Old Hunderd"in az qala sizin evdə eşitdiyiniz qədər ürəkdən oxunduğu ibadət yerinə dəvət olunsanız təəccüblənməyin. Əlbəttə siz başa düşəcəksiniz ki, amerikalıların bu ölkədə müqəddəs maraqları var"*** [15].

Əlbəttə, missionerlərin təsvir etdiyi Şərqi Anadoluda unudulmuş kiçik Amerika mənzərəsinin doğruluğundan şübhələnmək olar. Likin missionerlərin məqsədi aydın idi. Onlar erməniləri amerikalılara çox oxşar şəkildə, öz ölkəsinin coğrafiyasını və ənənələrini zəif bildiyi halda yad adama Missisipi çayının, yaxud Bostonun harada olduğunu izah etmək qabiliyyətinə malik şəxslər kimi təsvir etmək istəyirdilər. Missionerlərin səylərinin ermənilərə nə qədər təsir etdiyi hələ məlum deyil, lakin missionerlərin erməniləri Anadolunun amerikalıları kimi təsvir etmələri şübhəsiz ki, Amerikada böyük təəssürat yaratdı. Bunun ardınca amerikalılar ruhaniliyin nəyi Anadoludakı *"müqəddəs maraq"* adlandırdıqlarını hiss etdilər. Deməli amerikalılar nəticə çıxara bilərdilər ki, onların müqəddəs borcu – müdaxilədir. Bundan başqa,belə ideya yeridilirdi ki, bir vaxtlar amerikalılar etdiyi kimi, ermənilər də inqilab etməlidirlər. Tamamilə aydın idi ki, Amerika ruhaniləri Amerika inqilabçıları

ilə müqayisə etdikləri erməni inqilabçılarına açıq-aşkar iltifat göstərirlər. Onları həyatı, azadlığa və xoşbəxtliyə canatmanı qiymətləndirən sakit insanlar kimi təqdim edirdilər. 1890-cı ilin Şərqi Anadolusu ilə 1776-cı ilin Şimali Amerikası arasındakı fərq, eləcə də daşnaklarla Kontinental Konqress üzvlərinin fərqli cəhətləri nəzərə alınmırdı.

Ruhaniliyin ümumi rəyi ona yönəlirdi ki, osmanlı idarəçiliyinə son qoyulmalıdır. Ruhaniliyin hər bir təmsilçisinin kütlə qarşısında çıxışı elə sanki fikirlə yekunlaşırdı: ***"Onun (Osmanlı imperiyasının) mövcudluğuna yol vermək xristianlıq üçün biabırçılıqdır; xristian sivilizasiyası bu dözülməz türkün mövcudluğuna bundan belə dözə bilməz; türk imperiyası ləngimədən Avropanın xəritəsindən silinməlidir"*** [16].

### Mətbuatın rolu

XIX əsrdə və XX əsrin əvvəllərində mətbuata qarşı irəli sürülən tələblər bu gün mövcud olandan əhəmiyyətli dərəcədə aşağı idi. Eyni zamanda qəzetlərin təsiri olduqca güclü idi. Tez-tez səyahətə çıxanlar, yaxud diplomatik hesabatlarla tanış olmaq imkanı olan az bir hissə istisna olunmaqla insanların çoxu dünyadakı hadisələr haqqında məlumatları qəzet və jurnallardan alırdı. Eyni zamanda Amerika qəzetləri Yaxın Şərq haqqında son dərəcə məhdud məlumat mənbəyinə malik idi. Müxbirlər bu regiona ancaq müharibə baş verdiyi halda ezam olunurdular. Onlar yerli xalqların nə dilini, nə mədəniyyətini bilmirdi. Hətta diplomatlar çox vaxt ətrafda baş verənlər haqqında dumanlı təsəvvürə malik olur və bu zaman onlar nadir hallarda hər hansı məlumat verirdilər ki, o verə bildikləri çüzi informasiya da mətbuata çatmırdı. Xurafata uğradıqlarına və osmanlı sistemini bilmədiklərinə görə müxbirlər çox nadir halda türklərin mövqeyini işıqlandırmağa çalışırdılar. Osmanlılar hadisələrə olan öz nəzər-noqtələrini onların diqqətinə çatdırdıqda isə, onlar etibarlı sayılmadığı üçün rədd edilirdi. Beləliklə Osmanlı imperiyası haqqında iki məlumat mənbəyi qalırdı: missionerlər və Amerikada yaşayan ermənilər. Birinci Dünya Müharibəsi zamanı onlara üçüncü mənbə əlavə olundu – türklərlə müharibə vəziyyətində olan ingilislər. Təbiidir ki, bu mənbələr obyektivlik nümunəsi deyildi.

Osmanlı imperiyasında baş verənlərin birtərəfli işıqlandırılmasına şirnikdirici münasibət göstərilirdi. Yüz il ərzində qabaqcadan formalaşdırılmış mənfi rəydən sonra amerikalılar türklər haqqında ancaq pisi eşitmək istəyirdilər. Qəzet redaktorları ruhaniliklə münasibətləri korlamaq istəmir, elə qəzetçilərin özləri də stereotiplərin və xurafatın təsiri altında qalırdılar. Ümumiyyətlə onlar baş verən hadisələr haqqında çox az bilir, bundan başqa, onlardan nə gözlənirdisə onu da dərc edirdilər.

Erməni-türk konflikti barədə türklər tərəfin nəzər nöqtəsini oxucuların diqqətinə çatdırmağa cəhd edən az sayda müxbir və redaktorlar nəinki nəzərə alınmır, eləcə də hücumlara məruz qalırdılar. Türklər haqqında yaxşı bir söz deyilən kimi, redaktorun masası Amerika ermənilərinin və onların tərəfkeşlərinin məktubları ilə qalaqlanmış olurdu. Türklərin tərəfkeşləri isə olduqca az idi və təbii ki, onlardan çox nadir halda məktub gəlirdi. Türklər haqqında hər cür müsbət rəy kifyət qədər əsaslı olsa belə qabaqcadan qəbuledilməz idi. Redaktorlar və naşirlər tez bir zamanda

başa düşdülər ki, "*insanlara onların istədiklərini vermək*" daha sərfəlidir. Onda qəzetlər də yığılıb qalmaz.

XIX əsrin 90-cı illərinin ortalarında əsas Amerika qəzetləri artıq ermənilərin və ruhaniliyin nəzər noqtəsini qəbul edirdi. Əvvəlcə qətllər və vəhşiliklər barəsində yoxlanılmamış məlumatlara asta yanaşırdılar. Onlar yoxlanılmamış məlumatlar olduğu barədə qeydlə dərc olunurdu. Arabir osmanlı diplomatik missiyasının türk tərəfinin nəzərnöqtəsini izah edən və dəqiq mənbəyi göstərməklə dərc olunan hesabatları meydana çıxırdı. Hətta redaktorlardan biri qeyd edirdi ki, konfliktin gedişində xristian kəndlilər öz həmvətənliləri olan müsəlmanlardan çox zərər çəkməmişlər, baxmayaraq ki, müsəlmanların və xristianların yaşadığı şərait eynidir. Amerika standartlarına görə bu şərait cüzi olsa da təkcə xristianlar üçün pis deyil, hamı üçün eyni idi. Lakin bu nəzər-nöqtəsi ictimai şüurda formalaşmış Osmanlı imperiyasmdakı həyata baxışa uyğun olmayan amil kimi tezliklə unuduldu. Əvvəlcə redaktorların bir hissəsi osmanlı hökümətinin terroristlərlə olan problemlərini başa düşülürdü, lakin tezliklə onlar da öz fikirlərini dəyişdi.

Türklər və ermənilər haqqında olan məlumatların çoxu heç də Yaxın Şərqdə olan müxbirlərin məlumatlarına əsaslanmırdı. O zaman müxbirlərin çox cüzi hissəsi (*redaktorlardan isə heç kim*) Şərqi Anadoluda olmuşdu. Qazetlər adətən ancaq missionerlərin müxtəlif ruhani vəzifəliləri tərəfindən tez-tez düzəliş edilən hesabatlarından istifadə edirdi. Bu hesabatlar xəbərlər kimi dərc olunur, özü də bu zaman Amerika ermənilərinin məktub və şərhləri əlavə edilirdi. Bəzən səyyahlar tərəfindən yazılmış məqalələr verilir, lakin ermənilər haqqında matieriallarin böyük əksəriyyəti



xəbərlərdə deyil, şərhlərdə verilirdi. Həmin şərhlərin bir qismi redaktor sütunlarında, lakin böyük hissəsi son xəbərlər adlanan hissədə çap olunurdu, hansılar ki, faktiki olaraq ayrı-ayrı mitinqlərdə səsləndirilmiş antitürk seçmələrindən ibarət olurdu.

Erməni millətçiləri özləri üçün Amerika mətbuatında olanlardan daha yaxşı reklam arzulaya da bilməzdi. Məqalələr birtərəfli olmaqla yanaşı, erməniləri olduqca sərfəli mövqedən təsvir edirdi. Arabir qəzetlərdə ermənilərin və türklərin həyat və məişətindən bəhs edən məqalələr dərc edilirdi. Elə burada da ziddiyyət müşahidə olunurdu. Erməni toyu təsvir olunurdumu, yaxud erməni əsilli amerikalıya söz verilirdimi, istənilən halda amerikalılara ermənilərin alicənablığı, bu xalqın ləyaqətli qadınları, gözəl adət və ənənələri haqqında fikir aşılanırdı. Türk adətləri haqqında məqalələrdə isə türklər əlverişsiz cəhətdən təqdim edilirdi. Ən yaxşı halda türklər xarakterinda çoxlu qəribəliklər olanlar kimi təsvir edilir, onlar haqqında dinməz, qəzəbli və ağılsız insanlar kimi danışılırdı. Bəzən etraf edilirdi ki, onlar sədaqətli, təmizürəkli insanlardır. Lakin hətta bu cəmərdlik də aldatma və yalanı başa düşmək bacarığının olmaması kimi ələ salınırdı. Həramxanalar xüsusi olaraq, hər halda Qərbdə təsəvvür olunan kimi qeyd edilirdi. Belə ki, amerikalılar türklərin ehtiraslı olması barədə onların qəti inamını təsdiq edən hər nə varsa həmişə ona inanmağa hazır idilər. Sultan sarayındakı tənəzzül və həyat haqqında olan hekayələr xüsusilə populyar idi. Əlbəttə ki, sultan heç vaxt müxbirlərə onun şəxsi otaqlarına soxulmağa imkan verməmişdi, deməli bütün bu yazılar adi uydurma idi. İslamın cinsi etikası qəzetlərdə yazılanlardan çox fərqlənirdi.

Onun üçün "puritanlıq" anlayışı daha düzgün olardı, nəinki "şəhvətpərəstlik". Lakin bu həqiqət qəzetlərin satışına xidmət etmirdi. Bu yazıların yaratdığı ümumi təəssürat artıq yaranmış rəyə, daha doğrusu, təşəkkül tapmış aşağıdakı xurafata uyğun gəlirdi: ***"ermənilər rəğbət yaradır və bizə oxşayır, türklər isə yox"***.

Türk məişətinin təsvirində müşahidə olunan həmin sübut yetərsizliyi islama baxışda da əks olunmuşdur. Yenə də qəzetlər təsdiq edirdi ki, islamın ardıcılları üçün xristianları öldürmək onların vəzifəsidir. Heç kim, heç vaxt Qurandan (*İslamın Müqəddəs Kitabı*), yaxud islam qanunlarından müsəlmanlara xristianları öldürmək barədə göstəriş verən sitat gətirmirdi. Bu da başa düşüləndi, belə ki, nə Quranda, nə də islam qanunlarında belə göstəriş yoxdur. Türklərin mənəviyyatı, yaxud dini qanunları haqqında mülahizələrində amerikalı şərhçilər faktlardan qaçmağı və əsassız fikirləri rəhbər tutmağı daha münasib hesab edirdilər. Bunun səbəbi onların faktlarla tanış olmaması olduğu kimi, həm də faktların onların baxışlarını təsdiq etməməsi idi.

Şərqi Anadoludan olan informasiyanın verilməsi üslubu da mətbuatın qərəzliliyini aşkar sübut edirdi. Məsələn, əgər xristianlar müsəlman qızının oğurlanmasında ittiham olunurdularsa bu barədə məlumat elə təqdim edilirdi ki, bunun üçün hər hansı əsas, yaxud sübut olub-olmamasından asılı olmayaraq buna inanılmırdı. Lakin müsəlmanları daimi olaraq xristian qadınları ələ keçirilməkdə ittiham edir və bu barədə elə yazılırdı ki, insanlar heç bir sübut olmadan, korkoranə buna inanırdı. Şübhəsiz ki, belə şeyləri müharibə və qiyamlar zamanı bütün tərəflər edirdi, lakin qərəzlilik baxımından mətbuatın reaksiyası tipik və səciyyəvi olurdu. Belə



mülahizələr faktlar, yaxud konkret insanların iştirakı ilə olan konkret hadisə barədə məlumat əsasında deyil, redaktorların müsəlman və xristianların xarakterini necə təsəvvür etmələri əsasında yürüdülürdü. Türklər təbiətcə ehtiraslı hesab olunurdu, odur ki, sübutlara zərurət yox idi.

Qazetlərin çoxsaylı antitürk qərəzliliyi hadisələri barədə danışmaq mümkün deyil. Lakin bir neçə misal da kifayət edər. 1895-ci ildə osmanlı paytaxtında psixi xəstə tərəfindən xarici vətəndaş öldürülmüşdü. Yerli polisə cinayətkarı tutmaq müyəssər olmuşdu. Onu ədalət məhkəməsinin təmsilçisinə təhvil verən kimi, polis cinayətkarın vurduğu yaralardan keçinmişdi. Belə gəlirdi ki, mətbuat bunu hüquq qaydası müdafiəçisinin qəhrəmanlığı kimi təqdim etməlidir. Bunun əvəzində xarici vətəndaşın öldürülməsi faktı Amerika mətbuatında Osmanlı imperiyasının kütlə tərəfindən idarə edildiyinin, polisin isə heç nəyə yaramadığının (*belə ki, o xarici vətəndaşı müdafiə edə bilməmişdi*) təsdiqi kimi təqdim edilmişdi. Bütünlükdə isə bu fakta bütün osmanlı ictimaiyyətinə ittiham kimi baxılırdı. Analoji adam öldürmə hallarının Amerikanın küçələrində hər gün baş verməsi faktı olduğu kimi, alicənab polis işçisi də unuduldu. Mətbuat cinayətkarın fərdi ağılsızlığı ilə ölkənin dərin ictimai problemləri arasındakı fərqi görmək iqtidarında deyildi. Lakin mətbuat xarici vətəndaşın həyatı ilə türkün həyatı arasındakı fərqliliyi qeyd edə bilmişdi: *onun fikrincə xarici vətəndaşın həyatı daha əhəmiyyətlidir.*

Məlumatlardakı bağlı qalan məqamlar dərc edilənlərdən az əhəmiyyət kəsb etmirdi. Mətbuat 1894-cü ildə Konstantinopolda erməni patriarxına edilən qəsd barədə məlumat verərkən orada qəsd edənlərin erməni olması barədə

informasiyanı verməmişdi, nəticədə ictimaiyyət asanlıqla düşünə bilərdi ki, canilər türklərdir, belə ki, hesab edilirdi ki, türklər erməniləri çəkinmədən öldürə bilərlər.

Şərqi Anadoluda əhalinin ümumi vəziyyəti barədə obyektiv göstəricilərin olmaması də həqiqətə zərbə vururdu. Məsələn, türklərin Şərqi Anadoluya səkkiz əsrdən çox nəzarət etmələrinə və hər bir Şərq əyalətində müsəlmanların çoxluq təşkil etmələrinə baxmayaraq ermənilər tarixə istinad edərək bu ərazinin əhəmiyyətli hissəsinə iddialı olmaqda özlərini haqlı bilirdilər. Bu iddialar Qərb mətbuatı tərəfindən xeyirxahlıqla qarşılandı, özü də həmin iddiaların müdafiəsi "Ermənistan"a ünvanlanırdı, sanki Ermənistan öz sərhədləri olan müəyyən bir ölkə idi. Mətbuat Şərqi Anadolu əhalisinin həqiqi tərkibi haqqında heç vaxt məlumat vermirdi. Artıq dəfələrlə qeyd olunduğu kimi, həmin əhalinin böyük əksəriyyəti müsəlmanlardan ibarət idi. Türklər və kürdlər haqqında nəşrlərdə ermənilərlə qonşu olan, onlarla bir ölkədə yaşayanlar kimi deyil, sanki haradansa Ermənistanın hüdudlarından kənardan onlara edilən hücumların iştirakçıları kimi yazılırdı. Təəccüblü deyil ki, Amerika ictimaiyyətində belə rəy formalaşmışdı ki, Ermənistan müstəqil olmalı olan ölkədir, xarici qüvvələr onu girov saxlayır.

İstər missioner, istərsə də keşiş olsun, Amerika kilsə xadimlərinin mətbuatla qarşılıqlı asılılıq münasibətləri var idi. Qaçqınlar və qırğın haqqında məlumatlar mətbuata Anadoluda və İranın şimal-qərbində yerləşmiş missioner məntəqələrindən daxil olurdu. Bəzən missionerin öz arvadına, yaxud Amerikadakı bu və ya digər pastora yazdığı məktubunun məzmununda göstərilən hər hansı hadisə haqqında yeniliklər, yaxud hekayələr qəzetlərə verilirdi. Hətta missioner ailəsindən olan, vətənə göndərilmiş uşaq Şərqi Anadoluda olan konfliktlə bağlı hadisələr haqqında müsahibə verir, həm də onun bütün dedikləri mətbuatda dərc olunurdu.



Beləliklə, jurnalistlər baş verənləri öz gözləri ilə görmək imkanına malik olmadan hər şeydə missionerlərin verdiyi məlumatlara arxalanmalı olurdular.

Öz növbəsində missionerlər və digər ruhanilər erməni probleminin necə həll olunmasına dair öz ideyalarının yayılmasında mətbuatın mühüm əhəmiyyətini başa düşürdü. Onların fikrincə məsələnin həlli yolu osmanlıları məhv etmək üçün İmperiyanın sahillərinə hərbi gəmilərin göndərilməsindən ibarətdir. Qəzetlər Osmanlı imperiyasında ermənilərə xor baxmaya qarşı onların yayıldığı regionlarda keçirilən etiraz yığıncaqları haqqında, hansılarının ki, iştirakçıları Konqresə və prezidentə qətnamə göndərirdi, təfsilatı ilə məlumat verirdi. Bundan sonra iştirakçıların nitqlərini və qəbul olunmuş qətnamələrin mətnlərini dərc edir, eləcə də Amerikanın digər regionlarında keçirilən kütləvi yığıncaqlar haqqında yenilikləri verirdi. Getdikcə hətta obyektivliyin görüntüsü belə bir kənara qoyulurdu. Məsələn, 1895-ci il iğtişaşları zamanı ermənipərəst natiqlər "*ciddi hərəkətlərə, tərəfkeşliyə və bizim etirazın yayılmasına*" görə "**New York Times**"a minnətdarlıq bildirirdilər [17].

Son nəticədə mətbuat obyektiv informasiya dərc etməyə istənilən cəhdi bir kənara qoydu. 1896-cı ilədək jurnalistlər və naşirlər din xadimlərinin danışıq tonunu və hətta onların çıxışlarının dini özəlliklərini belə istifadə etməyə, onların nəzər nöqtəsilə uyğunlaşmağa başladılar.

Mətbuat missionerləri, erməniləri və din xadimlərini təqlid edərək, onların şablonlarını təkrarlayır, müsəlmanları quldur və adam öldürən, türkləri isə barbarlər kimi ləkələ-

yirdi. 1453-cü ildə Konstantinopolun zəbt edilməsindən başlayaraq müsəlmanlar Avropada işğalçı elan olunurdu. Tam ağlasığmazlıqlar asanlıqla dərc olunurdu. Məsələn, təhsili qadağan etmək niyyəti sultan Əbdülhəmidin (*1890-cı il hadisələri zamanı hakimiyyətdə olmuşdur*) ayağına yazılırdı. Mətbuatın təsdiq etdiyi kimi, güya o, islama sədaqətlə təhsilin tam uyğunsuzluq təşkil etməsinə əmin olmuşdu. Əslində isə hakimiyyətdə olduğu dövrdə Əbdülhəmid təhsilin inkişafı və məktəblərin yaradılması üçün ondan əvvəlki istənilən başqa sultandan daha çox iş görmüşdür. Qəzetlər həmçinin sultanın xristianlara qarşı müqəddəs müharibəyə hazırlaşması barədə şayiələri dərc edirdilər. Lakin onlar etiraf etməyə məcbur idilər ki, hər hansı osmanlı rəsmisinin belə fikir söylədiyini heç kimi eşitməyib və onlarda bunu təsdiq edən hər hansı sübut yoxdur. Buna baxmayaraq "**New York Times**" qəzeti bunun doğru olmasına əmin olduğunu elan etmişdi [18].

Bəzi obyektivlik cəhdlərindən və neytrallıqdan bütünlüklə düşmənçiliyə keçid, mətbuatda türklərin böhtan və şər mövqeyindən təsvir edilməsi Osmanlı imperiyasından gələn bütün məlumatlara rəng verən əvvəllər mövcud olmuş xurafatla asanlaşırdı. Amerikalı üçün Şərqi Anadolu hadisələri haqqında həqiqəti öyrənmək demək olar ki, mümkün deyildi.

### Birinci Dünya Müharibəsi

Birinci Dünya Müharibəsi zamanı qəzet yazıları xüsusilə tarazlaşdırılmamış və antitürk xarakterli oldu. Risk artırdı. Həm ölkənin daxilində, həm də xaricində özünün hərbi



məqsədlərinə nail olmaq üçün İngiltərənin təbliğat maşını Almaniyadakı və onun müttəfiqi Türkiyədəki vəhşiliklər haqqında olan məlumatlar ətrafındakı səsküyü daha da şişirdirdi. Bəzi Avropa ölkələri türk torpaqlarına göz tikmişdi. Müharibədə göstərilən amansızlığa və kütləvi qırğınlara görə Osmanlı hökümətinin üzərinə qoyulan məsuliyyət Osmanlı imperiyasının ehtimal edilən parçalanmasına və onun idarəçiliyində olan bütün, yaxud demək olar ki bütün torpaqların götürülməsinə bəraət qazandırmaq üçün istifadə olunurdu. Osmanlı torpaqlarının qəsb edilməsi barədə özünün şəxsi planlarına haqq qazandırmaq üçün Qərb dövlərləri osmanlı vəhşilikləri haqqında şaiyələrə özləri inanmalı və bunu mümkün qədər geniş yaymalı idilər. Eyni məqsədlə də vəhşiliklər haqqında təbliğat almanlara qarşı istifıadə edilirdi (Versal sülh konfransında təzminat xərclərinə və sərt sülh şərtlərinə bəraət qazandırmaq üçün alman *"cinayətləri"ndən* istifadə olunmuşdu).

Mətbuatda dərc olunan kimin nəyi alacağı haqqında müzakirələrə əsasən fikir yürüdülərsə, Osmanlı imperiyasının ehtimal edilən parçalanması və onun torpaqlarının müxtəlif dövlətlər arasında bölünməsi, sanki intellektuallar, diplomatlar və siyasətçilər üçün populyar oyuna çevrilmişdi. Rusiya əhəmiyyətli əraziləri və istisulu limanları almağa xüsusi ümid bəsləyirdi. Bəziləri əldə edilməsi Rusiyanın çoxdankı arzusu olan İstanbulu da ona verməyi təklif edirdi. Yunanistan Qərbi Anadolunu, Fransa Anadolunun cənub hissələrini və Şimali Suriyam əldə etmək istəyirdi. Müstəqil Ermənistan dövlətinin Şərqi, yaxud ola bilər ki, cənub-mərkəzi Anadoluda yaradılması nəzərdə tutulurdu. Türklər ancaq şimal-mərkəzi Anadoluda kiçik bir dövlət təşkil edə-

cək qalan hissəni ala bilərdi. (İmperiyanın parçalanmasının təklif olunan planının müəlliflərindən biri rişxəndlə – *"Yazıq türklər"* deyə qeyd etmişdi).

Yenə də Qərb dövlətlərinin osmanlı ərazilərini zəbt etmək və orada Türkiyənin mövcudluğuna son qoymaq niyyətinə Avropa işğalçılarının ora sivilizasiya və xristianlığı gətirməli olması iddiası ilə bəraət qazandırılırdı. Həmişə Avropada istilaçı hesab edilmiş türk indi onun sifətində ləkə elan olunmuşdu. Lakin planın müəlliflərindən heç kim o zaman Fransalıların müsəlman Şimali Afrikasındakı öz koloniyalarından, britaniyalıların isə hindu və müsəlman Hindistanından çıxmalı olmasına işarə belə edə bilməzdi. Britaniya və Fransa öz hakimiyyətini və mədəniyyətini bütün dünyaya güclə qəbul etdirirdi. Lakin bu xristian və Avropa mədəniyyəti idi, ona görə hər şeyə haqq qazandırırdı.

Birinci Dünya Müharibəsi zamanı, Şərqi Anadolu və Zaqafqaziya Rusiya və Osmanlı imperiyaları arasında döyüş meydanına olarkən jurnalistlər hadisələri bilavasitə müşahidə etmək imkanına malik deyildi. Bunun nəticəsində istənilən informasiya Amerikaya ancaq osmanlıların düşmənlərindən gəlirdi. Ehtimal edildiyi kimi, bu məlumatlarda Osmanlı imperiyasının türkləri və digər müsəlmanlar ən pis şəkildə təsvir olunurdu. Təbliğat müharibə aparmaq vasitələrindən biri idi və müttəfiq dövlətlər neytrallıq saxlayan Amerikanı onlara qoşulmağa təhrik etmək istəyirdilər. Ən çox hallarda məlumatlar Rusiya imperiyasının paytaxtı Petroqrad, yaxud Petroqrad vasitəsilə Tiflis (Zaqafqaziya) kimi məntəqələrindən göndərilirdi. Bəzi hallarda onlar Londondan gəlir, yaxud orada hazırlanırdı. Böyük Britaniya Osmanlı imperiyası ilə olduğu kimi, onun müttəfiqi



Almaniya ilə də müharibə vəziyyətindəydi. Deməli, indi bizə məlum olduğu kimi, vəhşiliklər haqqında tarixi saxtalaşdırmağa müharibə aparmanın əlavə vasitəsi kimi əl atan Britaniya baxışı – düşmən baxışı idi. Bəzən məlumatlar digər Osmanlı düşməni olan Afinadan göndərilirdi. Bu ölkələrin hər birinin hökümətinin istər real, istərsə də uydurma müharibə hadisələri və osmanlı vəhşilikləri haqqında birtərəfli məlumatları yaymaq üçün çoxsaylı motivləri vardı.

Beləliklə, kütləvi qətllər və vəhşiliklər haqqında məlumatlar mətbuata demək olar ki, bütünlüklə Petroqraddan, Zaqafqaziyadan, yaxud Afinadan daxil olurdu, harada ki, ruslar, yunanlar və ermənilər onu verməyə hazır və bunun üçün kifayət qədər motivlərə malik idi. Belə məlumatlar müsəlmanların xristianlar tərəfindən öldürülməsi halları barədə, bunların qəhrəmanlıq kimi təqdim edildiyi hallar istisna olunmaqla susurdu. Bəzən kütləvi qətllər haqqında hesabatlar Anadoludan qayıdan Amerika missionerləri tərəfindən gətirilirdi. Nadir hallarda məlumatlar hadisələrin bilavasitə şahidlərindən gəlir və sadəcə olaraq eşidilənlərin təkrarı olurdu. "Etibarlı mənbələrdən", yaxud "etibara layiq şəxsdən" kimi şablon qeydlərlə olan digər məlumatlar hadisələr haqqında müxtəlif şayiələrdən ibarət olurdu ki, "etibara layiq" adlandırılan bu informatorlar adətən hətta onları görməmiş olurdu. Adları çəkilməyən "qüsursuz" mənbələr hərbi təbliğatın düşmən vəhşilikləri haqqında Birinci Dünya Müharibəsi zamanı həm ingilislər, həm də almanlar tərəfindən geniş istifadə olunan klassik aləti idi.

Vaxtaşırı olaraq missionerlər və digərləri ermənilərin məruz qaldığı böyük və həqiqi əzablar haqqında dəqiq məlumatlar verirdilər. Ermənilərin ölümünə görə onlar əsaslı

olaraq məsuliyyəti kürd tayfalarının və bəzi türk rəsmilərinin üzərinə qoyurdular. Onların məlumatlarının çatışmazlığı isə ermənilər tərəfindən öldürülmüş türklər və kürdlər haqqında hər hansı bir informasiyanın verilməməsindən ibarət olurdu. Erməni üsyanının kontekstinə həmişə məhəl qoyulmurdu. Birtərəfli məlumatlar həmçinin qaçqınların müsibətləri barədə yanlış təsəvvür yaradırdı. Milyonlarla müsəlman qaçqınını nəzərə almadan ermənilərin deportasiyasını Şərqi Anadoluda qaçqınların yeganə faciəsi kimi təsvir etmək asan idi.

Bütün bunlar onu göstərir ki, birtərəfli məlumatlar və uydurmalar Birinci Dünya Müharibəsi illərində əsas təbliğat aləti olmuşdur.

**Britaniyanın təbliğat maşını**

Yalan öz xalqını aldatmaq, neytralları öz tərəfinə çəkmək və düşməni çaşbaş salmaq üçün tanınmış və son dərəcə faydalı alətdir. Hər bir ölkədə təcrübəsiz və sadəlöv kütlələr aldadıldıqlırını bilmədən onun təsiri altında olurlar. Ancaq müharibə başa çatdıqdan sonra tədricən yalanın üstü açılmağa başlayır. Artıq bütün bunlar keçmişin işi olduğu və istənilən nəticə əldə edildiyi üçün daha heç kim faktları araşdırmaqla və həqiqəti müəyyən etməklə özünü yormur. "*Birinci Dünya Müharibəsi zamanı millətlər arasında dövr edən yalanlar dəsti*"ni təsvir edən kitabda Britaniya parlamentinin üzvü belə yazırdı [19].

Həqiqətən də Birinci Dünya Müharibəsi zamanı təbliğat əhəmiyyətli alət və erməni məsələsi təbliğat müharibəsi aparılan ən əhəmiyyətli döyüş meydanlarından biri olmuşdur.



Alman obrazının ləkələnməsinə istiqamətlənmiş, müharibə dövründəki Britaniya təbliğatının ifşa edildiyi və öyrənilməyə başlandığı vaxtdan çox illər ötmüşdür. Birinci Dünya Müharibəsi başa çatdıqdan sonra, ictimai rəyi yönəltmək üçün təbliğatdan istifadə edilməsinin təfsilatını açan kitablar yazılmışdır. Almanlar haqqında deyilmiş yalanların əhəmiyyətli hissəsi rəsmi şəxslərin təbliğat aparmağa görə məsuliyyəti etiraf etməsindən və vəhşiliklər haqqında deyilənlərin müharibədən sonrakı araşdırılması nəticəsində aşkar edilmişdir. Üstü açılmış yalanlar müharibədə iştirak etmiş Qərb dövlətlərinin hərəkətlərinin və konfliktə görə onların məsuliyyətinin daha obyektiv qiymətləndirilməsinə gətirdi. Lakin Şərqi Anadoludakı konfliktlərlə bağlı müharibədən sonrakı heç bir belə araşdırma aparılmamışdır. Türklər və ermənilər haqqında yalanlar və təhrif edilmiş məlumatlar olduğu kimi qaldı, odur ki, ədavət və xurufatdan miras qalanlar bu günə gəlib çatdı. Türklər amerikalılardan uzaq idi və onların əksəriyyəti üçün Ponsonbinin dediyi kimi, "*bütün bunlar keçmişin tarixi idi*".

Digər müharibə meydanlarındakı vəhşiliklər haqqında təbliğatın istifadə edilməsinin xarakteri həmçinin böyük əhəmiyyət kəsb edir, belə ki, digər ölkələlərdə də "sübutlar"ın toplanması, verilməsi, qəbul edilməsi və yayılması üsulları Ermənistandakı ilə eynidir. Britaniya təbliğatının əsas iki istiqaməti "almanların Belçikadakı vəhşilikləri" və "erəminələr üzərində vəhşiliklər"dən ibarət idi. Şərqi Anadoludakı osmanlılar da, Belgiyadakı almanlar da çoxsaylı eyni cinayətlərin törədilməsində ittiham edilirdi. Təsadüfi deyil ki, ingilislər üçün hərbi hərəkətlərin iki əsas meydanı var idi: Fransada almanlara, Yaxın Şərqdə isə türklərə qarşı.

Deyildiyi kimi, vəhşiliklər haqqında Amerika mətbuatını çulğalamış təbliğat Amerikanı müttəfiq qüvvələrin tərəfində müharibəyə cəlb etmək istəyən britaniyalıların güclü təsiri altında idi. Amerikanın qəzet və jurnalları Britaniyanın müharibə versiyasına üstünlük verərək Müttəfiqlərin işinə Amerikanın rəğbətini təmin etməyə kömək edirdi. Amerika missionerlərinin ermənilərlə əlaqələrilə və xristianların məhv edilməsi barədə rəsmi osmanlı planlarının mövcudluğuna olan XIX əsrdən qalmış inamla bağlı olaraq Anadoluda müharibənin aparılmasına qarşı narazılığın yaradılmasına istiqamətlənmiş təbliğat Birləşmiş Ştatlarda xüsusilə təsirli idi. Osmanlılara qarşı ittihamların əksəriyyəti onların müttəfiqi olan almanlara qarşı irəli sürülmüş ittihamlara analoji olaraq modelləşdirilmişdi.

Birinci Dünya Müharibəsi zamanı və onun başa çatmasından sonrakı ilk illər ərzində almanlar müharibənin başlanmasına görə müstəsna məsuliyyətin onların üzərinə düşməsində ittiham edilirdilər. Müttəfiqlərin iddia etdiklərinə görə Mərkəzi Ox dövlətləri müharibəni qəsdən hazırlayırdı. Amerika qəzetləri müharibənin alovlanmasında görkəmini dəyişmiş Atilla adlandırdıqları və ən qara çalarlarla təsvir etdikləri kayzeri günahlandırırdı. Almanlar bərbər tayfaları kimi təsvir edilirdi. Amerika qəzetləri Amerika və Britaniyada geniş yayılmış və sağlam təfəkkürə zidd olanda belə inamla qarşılanan vəhşiliklər haqqında müttəfiqlərin uydurma hekayələri təkrar edirdi. Həmin hekayələr bütöv bir millətin vəhşi heyvanlar kimi xarakterizə edilməsi üçün istifadə olunurdu. Almanlar uşaqların və körpələrin əllərini, qadınların döşlərini kəsməkdə ittiham edilirdi. Onlar dinc sakinləri süngüləyən və qadınları zorlayan vəhşilər hesab edilirdi. Çarmıxa çəkilmiş kanadalı, qapıya mıxlanmış uşaq və s. barədə xəbər verilirdi. Bütün bunlar barədə şahidliyə can atan insanlar: Belçika qaçqınları və müttəfiqlərin əsgərləri danışırdı.



Erməni konfliktinin başa düşülməsi üçün almanların ehtimal edilən cinayətləri haqqında məlumatlar toplularından biri xüsusilə əhəmiyyətlidir. Alman vəhşilikləri haqqında hekayələrin çoxu Braysın Britaniya komitəsinin 1915-ci ilin mayında dərc edilmiş Belçikadakı alman amansızlıqları haqqında məruzəsinə daxil edildiyi üçün inamla qarşılanmışdı. Məruzə hüquqi sənəd kimi təqdim edilmişdi. Burada yalançı şahidlər hüquqşünaslar tərəfindən dindirilmiş və and içərək ifadə vermişdilər. Birləşmiş Ştatlarda səfir olmuş lord Brays hörmətli və nüfuzlu bir insan idi. Onun adına görə məruzəyə böyük etibar göstərilmişdi. Məruzə onda verilən məlumatların etibarlılığının sübutu kimi Braysın imzasına istinad edən Amerika qəzetlərində tam şəkildə dərc olunmuşdu. Başlıqlar Belçikadakı qırğınların məqsədli xarakter daşıması, şikəst edilmiş gənclər və qocalar, qadınlara edilən hücumlar, uşaqların öldürülməsi, müntəzəm soyğunçuluqlar və törədilən yanğınlar haqqında aləmə car çəkirdi. Məruzəyə görə bütün bunlara alman zabitləri tərəfində rəvac verilirdi.

Bir-neçə ay sonra, 1915-ci ilin payızında ermənilərə qarşı vəhşiliklər üzrə Amerika komitəsi mətbuat üçün məruzə buraxdı. Bu məruzənin Braysın məruzəsinin nümunəsi əsasında hazırlandığı tam aydın idi. Yeganə fərq ondan ibarət idi ki, müəlliflər and içməklə verilmiş ifadələr, hüquqi sübutlar təqdim etməklə özlərini xüsusi əziyyətə salmır, sadəcə olaraq, güman edildiyi kimi, osmanlı hökuməti tərə-

findən törədilən amansızlıqlar haqqında məlumat verirdi. Ermənilərə qarşı vəhşiliklər haqqında məruzənin iyul tarixi qoyulmuş bir hissəsi ötən yazda Braysın məruzəsində təsirli olaraq istifadə edilmiş, köməksiz dinc mülki əhaliyə qarşı müntəzəm terror mövzusunu davam etdirir.

Bu hekayələr Belçikadakı amansızlıqlar haqqında tarixin modelinə riayət edirdi. Qadınlara qarşı "vəhşilik" adi mövzu idi. Alman vəhşilikləri haqqında hekayələrdə olduğu kimi, qadınlar, uşaqlar və keşişlər kütləvi qətllərin qurbanı kimi xüsusilə qeyd edilirdi. Almanları Osmanlı imperiyasında "bu kütləvi qırğınları" təşkil etmək barədə əmr verməkdə, yaxud ən azı ona imkan verməkdə ittiham edilirdi. Məruzədə bu hadisələrin konkret şahidlərinin (ermənilər, yaxud qeyri-ermənilər) adları çəkilmirdi. Təkcə bu yox, həmin hekayələrin gəldiyi, yaxud amansızlıqların törədildiyinin ehtimal edildiyi şəhər və yerlərin adları "*məlumat mənbəyini təhlükədən qorumaq üçün, qəsdən çəkilmirdi*". Burada Braysın komitəsinin məruzədə çap etməyi özünə rəva bildiyindən çox az "sübut" və daha çox təsdiq olunmamış məlumatlar və şayiələr var idi. Müharibənin əvvəlində Avropa xalqı kimi almanlar türklərdən daha üstün ada malik idi. Odur ki, onlara qarşı "sübutlar"ın hazırlanmasında daha çox zəhmət çəkilmişdi. Baxmayaraq ki, Braysın məruzəsi yalan dəsti kimi çoxdan ifşa olunmuşdur [20].

X.D.Lassuell "Birinci Dünya Müharibəsində təbliğat texnikası" adlı kitabında müharibə dövrünün vəhşilikləri haqqında məlumatların tipik xarakterini göstərirdi. O yazırdı: ***"Qadınların, uşaqların, qocaların, rahibələrin döyülməsinə, seksual zorakılığa, dustaqların və nekombatantların şikəst edilməsinə həmişə diqqəti cəlb etmək olar. Bu***



***məlumatlar belə qaranlıq işləri amancızcasına həll edənlərə qarşı qızğın hiddət yaradır və müəyyən qüdrətli, gizli stimulları təmin edir"*** [20].

Ermənilərə qarşı törədilmiş vəhşiliklərin "araşdırılmasını" aparan Amerika komitəsinin üzvlərinin yarısını Yaxın Şərqdə olmuş keçmiş missionerlər də daxil olmaqla din xadimləri təşkil edirdi. Onların nüfuzu, alman vəhşiliklərinin araşdırılmasında Braysın nüfuzunun olduğu kimi, belə məlumatlıra mötəbərlik görüntüsü verir, buna görə də onlara inanılırdı. Yuxarıda qeyd olunduğu kimi, bu insanlar türklərə və bütünlükdə müsəlmanlara qarşı artıq son dərəcə inandırılmış əhval-ruhiyyədə idi. Belgiyadakı vəhşilikləri araşdıranlar kimi, onlardan da heç kim öz "araşdırmalarını" aparmaq üçün Osmanlı imperiyasında olmamışdı.

İngiltərədə lord Brays osmanlılar tərəfindən törədilmiş vəhşiliklər haqqında bəyanət vermiş və bu mətbuat vasitəsilə Amerika ictimaiyyətinə çatdırılmışdı. Brays həmçinin "erməni qırğını" haqqında əksər hallarda anonim olan, ancaq vuruşan tərəflərdən birindən alınmış məlumatların bolluq təşkil etdiyi traktat yazmışdır.

İctimaiyyət üçün olan bütün bu məlumat və bəyanatlarda, almanlar Avropada sistemli və qərəzli amansızlıq proqramını işləyib hazırlamaqda təqsirləndirildiyi kimi, Osmanlı hökuməti də yenədə və yenədə ermənilərin planlaşdırılmış məhvində ittiham edilirdi. Almanlar erməni qırğınının gizli təşkilində iştirakda, yaxud ən azı buna yardım etməkdə dəfələrlə ittiham olunmuşlar. Yeri gəlmişkən, başında fəs olan kayzerin şəkili Amerikada ***"Almaniya imperatoru – dəhşətli türk"*** yazısı ilə çap olunmuşdu.

Hərbi isteriya sakitləşdikdən sonra almanlara qarşı ittiham götürülmüş, onların saxtalığı etiraf edilmişdir. Sonra-

dan belə nəticəyə gəlinmişdir ki, almanlar Belçikada sərt olmuşlar, lakin müntəzəm vəhşiliklərdə təqsirli deyillər. Daha heç kim onları ermənilərə qarşı vəhşiliyə görə məsuliyyət daşımaqda ittiham etmir. Necə olsa da almanların Qərbdə müdafiəçiləri var idi. Onlara "Avropa ailəsinin" üzvü kimi baxılırdı. Çoxlu amerikalı almanlar movcud idi, ziyalı amerikalıların çoxuna isə müharibəyə kimi alman mədəniyyətinə və təhsilinə hörmət hissi aşılanırdı. Almaniyanın yaxşı nüfuzu tezliklə bərpa olundu. Lakin türkləri öz birliklərinin üzvü kimi görmürdülər. Odur ki, onların adının planlaşdırılmış amansızlıqda ittihamdan təmizlənməsi səyləri mövcud deyildi. Heç kim ermənilərə qarşı vəhşiliklər üzrə Amerika komitəsinin məruzəsinin həqiqiliyini yoxlamaq fikrində olmadı. Braysın almanlar haqqında məruzəsi nüfuzdan salındı və unuduldu. Lakin türklər haqqında onun məruzəsi mübahisələndirilmədi. Türklərə qarşı hərbi isteriyanın və hərbi təbliğatın məhsulu olan ittiham qüvvədə qaldı.

**Amerika xəbərləri**

Amerika şüurunda türk obrazı ancaq Britaniya təbliğatının məhsulu deyildi. Öz həmvətənlilərində türklərə qarşı mənfi əhval-ruhiyyə yaratmaq üçün bəzi amerikalılar da bu məqsədlə çalışmışdı. Müharibənin ilk beş ili ərzində Osmanlı imperiyasında Amerikanın səfiri postunu tutmuş Henri Morgentay bu kompaniyanın ön xəttindəydi. Səfir Morgentay missioner məlumatlarının Amerika və Britaniya ictimaiyyətinə çatdırılmasında əsas kanal idi. Onun özü-



nün şəxsi sözlərinə görə o, missionerlərin səmimi və vicdanlı olmasına tam etibar etmişdi. Şərqdə erməni hərəkətləri barədə osmanlı məlumatlarını aldıqda o, tanış olmadan onları rədd edirdi. "İrqi" məsləki onu buna vadar edirdi.

Səfir Morgentay güman edirdi ki, irqi baxımdan türklər ermənilərdən aşağıda dururlar. Bu mövqe onun hadisələri təhlil etməsini bütünlüklə müəyyən edirdi. Özünün "Səfir Morgentayın rəvayətləri" [22]. kitabında o, türkləri "davakar və qorxaq", "tənbəl" və s., digər tərəfdən, "özlərini asiyalı yox, avropalı" hesab edən erməniləri isə "ari"lər kimi təsvir edirdi. Onun türkləri erməniləri öldürməyə təhrik edən ehtimal olunan məqsədin təhlili irqçilik patalogiyasının nümunəsi idi. Morgentau elan etmişdi ki, türklər bütün erməni kişilərini məhv etməyi, qadınları isə saxlayaraq onlardan uşaqlarının olmasını planlaşdırmışlar. Morgentauya görə bunun motivi türk irqinin yaxşılaşdırılması olmuşdur: "*Bu erməni qızları qadın incəliyinin nümunəsidir və gənc türklər intuitiv olaraq başa düşmüşlər ki, onların qanının türk qanı ilə qarışması bütünlükdə yevgenik təsir göstərəcəkdir*". Bir alimin belə ermənilərin "irqi üstünlüyünə" türklərin inanmasının sübutunu təqdim etməməsinə baxmayaraq, səfir Morgentau türklərə öz şəxsi baxınışı formalaşdırmağa üstünlük vermişdir. Nə üçün onun ermənilərdə yamanlıq görmədiyini, lakin asanlıqla bunu türklərdə tapdığını duymaq kifayət qədər asandır.

Morgentau və onun kimiləri amerikalılar arasında öz baxışlarını kitabların, mühazirələrin və qəzet məqalələrinin köməyi ilə yayırdılır. Onların dəlilləri məhz ictimai rəyi türklərə qarşı səfərbər edən din xadimləri tərəfindən alqışlanırdı. Birinci Dünya Müharibəsi zamanı Amerika din xa-

dimlərinin fəaliyyəti əksər məsələlərdə 1890-cı ildə olduğu kimi idi. El bir həftə olmurdu ki, dini və populyar dövrü mətbuatda ermənilər haqqında məqalə olmasın.

1890-cı ildə olduğu kimi, dərc olunan məqalələrlə bağlı əsas problem onların yalan olmasında deyil, sadəcə olaraq mətndəki çox şeyin uydurma olmasından ibarət idi. Baxmayaraq ki, türk vəhşilikləri haqqında onlarda olan məlumatlar son dərəcə şişirdilmiş olurdu, lakin həqiqətən də ermənilərin başına ağır əzablar gəlmişdi və erməni bədbəxtlikləri haqqında deyinlərin çoxu həqiqət idi. Bu məqalələrin çatışmazlığı türklərin çəkdiyi əzablar barədə onlarda heç bir məlumatın olmamasında idi. Şərqi Anadoluda ermənidən çox müsəlman həlak olmuşdur. Hər bir tərəf digər tərəfdən olanları öldürürdü, lakin ictimaiyyətə ancaq bir tərəfin təmsilçilərinin həlak olması barədə məlumat verilirdi.

Səfir Morgentau olduğu kimi, din xadimləri də ancaq ermənilərin çəkdiyi əzabları tanımağa meylli idi. Lakin onların motivi açıq irqi deyil, adətən dini olurdu. Ermənilər kafirlərin əlindən əzab çəkən xristianlar kimi təsvir edilirdi. Ermənilərin xristianlığa sadiq olması həmişə qeyd edilirdi. Bu yalanın müəyyən hissəsini zəruri edirdi. Belə ki, erməni qüvvələrinə başçılıq edən daşnaklar marksist idi, marksizm isə amerikalılar arasında populyar deyildi. Necə olursa olsun erməni inqilabçılarınının marksist olması heç vaxt xatırlanmırdı.

Xristian birliyi hisslərindən doğan meyllərə çox praqmatik faktor əlavə olunurdu: müharibədə osmanlıların qələbəsi missionerlər nələrin naminə fəaliyyət göstərirdilərsə onların hamısının dağılması demək olardı. Onlar bilirdilər ki, erməni hərəkatı ilə olduqca aşkar assosiasiya təşkil edirlər. Əgər onlar tərəf uduzarsa, missionerlərin Anadoluda əvvəlki masştablarda fəaliyyət göstərməsi mümkünsüz olar.



Müharibə zamanı Amerika mətbuatı sözçülükdən çəkinmirdi. Ermənilərin xristianlığının qeyd edilməsi və türkləri düşmən kimi yamanlamaq səyləri adi bir şey idi, xüsusilə də emosional şəkildə missionerlələ bağlı olan jurnal və qəzetlər üçün. “İndependent” baş məqaləsində yazırdı: “***Bu (erməni qırğını) coşqun fantaziya məhsulu deyil, mötəbər faktdır. Bu bizə etibar etdiyimiz bir çox mənmələrdən məlumdur. Bizim missioner şuraları məlumatlar alır... Bizim köhnə dostumuz səfir Brays, barəsində danışılması mümkün olmayan təfsilatları təsdiq edir... Lakin Türkiyənin sonu yaxın olmalıdır. Dünya türklərin dözümsüzlüyünə sonadək tab gətirdi. Onların cinayətləri göylərdən cəza istəyər. Ya Rəbb, öldürülmüş müqəddəslərə görə qisas al***”. Belə baş məqalələrin mənbəyi aşkar Britaniya təbliğatı və missioner məlumatları idi. Lakin türklərə qarşı dini dözümsüzlük hissləri səlib yürüşlərindən də köhnə yanlışlıqlardan bəhrələnirdi.

Şərqi Anadoludakı müharibənin Amerika tərəfindən qiymətləndirilməsi osmanlıların Avropalı düşmənlərindən daxil olmuş məlumatlara əsaslanırdı. Bəzən Britaniyanın və Fransanın dəlilləri məktublarda olur, bir çox hallarda xəbərlər şəklində gəlir, lakin hər iki halda onlar eynilə təbliğat xarakterli olur və hər yerdə tənqidsiz qəbul edilirdi. Türklərin öz xristian müttəfiqlərinə hücum etməsi, yaxud Anadoluda ərəblərin məhv edilməsi haqqında olan məlumatları da daxil etməklə çoxsaylı tam ağılsızlıqlar dərc olunurdu. Onlardan heç biri, heç bir halda həqiqət deyildi. (*Əslində müharibə zamanı türklər hətta özlərinin ənənəvi düşmənləri olan bolqarlarla da birgə uğurlu hərəkət edirdi. Anadoludakı*

*müqayisə olunacaq dərəcədə kiçik ərəbdilli icma isə müharibədən sonra da orada qalmışdı. Belə iddiaların mənbəyi ancaq London idi.)*

Avropadan gələn məktublarda müharibə dövrünün fantaziyasının masştabları böyklüyü ilə mat qoyurdu. Diokleinin yepiskopu Henri Dulset yazırdı ki, Türkiyənin hakim partiyasının rəsmi qəzeti hökümətin bütün erməni kişilərini məhv etmək, bütün erməni qadınlarını türk hərəmxanalarına götürmək və bütün qocaları aclığa məruz qoymaq niyyəti barədə açıq məlumat vermişdir. O, elan etmişdi ki, erməni qadınları və uşaqlar, İstanbuldakı qul hərraclarında satılır. Dulsetə görə ancaq bir neçə min deportasiya olunmuş erməni sağ qalmış və Beyruta çatmışdır. Oradan onları Fransız hərbi gəmisi aparmışdır [23]. Əslində, nə qəzetdə məqalə, nə qul hərracları, nə də Fransa osmanlılarla müharibə vəziyyətində olduğu halda, əsas Osmanlı limanlarından birində dayanan Fransız hərbi gəmisi olmamışdır və s. Lakin bu məktublar, eləcədə onun kimi digərləri korrektə edilmədən, yaxud sual doğurmadan dərc edilmişdir. Analoji məktublar, xüsusilə də ermənilərə yardım üzrə İngiltərə qadın Şurası kimi təşkilatlardan gələnlər Amerika mətbuatını çulğalamışdı.

Erməni-türk konfliktini mətbuatda işıqlandırılmasında ən çox yayılmışı bu və ya digər hadisələrin təsviri deyil, ancaq müəlliflərin və redaktorların rəyinə (*başqa heç nəyə*) istinad edən şərhlər, analitik məqalələr, baş məqalələr idi. "Nyu ripablik" osmanlıları *"fiziki cəhətdən zəif və mənəvi cəhətdən sarsılmış"* kimi səciyyələndirir, türk sisteminin *"zəifliyini, zorakılığını, qaniçənliyini"* təsvir edir və ermənilərin qulsatan hərracları kimi adi böhtanı təkrar edirdi [24].



"Leterari dayjest" almanları "soyuqqanlı siyasi gedişdə", – "praktiki icranı, müsəlman dini fanatizminin tam azğınlığı ilə işə başlamış kürdlərin və türk əsgərlərinin öhdəsinə buraxmaqda" ittiham edərək yalançı türk əməllərinə görə qınayırdı. "Leterari dayjest" bildirirdi ki, "türklər özləri bu şeyləri təşkil edə bilməzdi" [25]. Bu nəşrlərin hər ikisi ən mülayimlərin arasında idi. Digərləri, məsələn, "İndependent" kimiləri şərhlərə *"Bütöv irqin öldürülməsi"*, *"Dəhşətli türk"* və *"Geriyə barbarlığa doğru"* kimi başlıqlar verirdi. "Karrenq Xistori" kimi ciddi jurnal *"Balta ilə öldürülmüş ermənilər"*, yaxud *"Erməni düşərgələrinin dəhşətləri"* kimi məqalələrdə türkləri nəzərdən keçirərkən bulvar qəzetlərinə bənzəyirdi.

Müharibənin sonunda Osmanlı imperiyası məğlub olduqda antitürk təbliğatı ən yüksək həddə çatdı. Missioner təşkilatları müharibənin erməni qurbanlarına yardım tərifəlayiq məqsədilə "Yaxın Şərq yardımı"nı təşkil etdilər. Təşkilat belə müəyyən etdi ki, vəsait toplanmasının ən təsirli metodu türklərin ən qara boyalarla təsvir edilməsindədir. Türklər həqqında deyilənlər yuxarıda göstərilənlərə olduqca oxşar olduğu üçün onları təkrar etməyə dəyməz. "Yaxın Şərq yardımı"nın apardığı təbliğatın yeni elementi məlumatların yayılma ustalığı idi. Bütün ölkədə toplantılar təşkil olunurdu. Məktəblər və kilsə bu işə qoşulurdu. Çıxış edənlər iştirakçılara ermənilərin fəlakətli vəziyyətindən danışırdı. Türklər heç bir səbəb olmadan erməniləri məhv etməyi qərara almış vəhşilər kimi təsvir edilirdi. Şərqi Anadoludan məlumatların daxil olması işlərinin vəziyyətini nəzərə alaraq, güman etmək olar ki, auditoriya olduğu kimi, çıxış edənlər də türklərin çəkdiyi əzablardan az bilirdi. İctimai

yerlərdə türk əsarətçilərinin tutqun obrazları ilə yanaşı "əzab çəkən Ermənistanı" təsvir edən plakatlar peyda olmuşdu. Hətta "Təhqir olunmuş Ermənistan" adlı səssiz film də çəkilmişdi. "Yaxın Şərq yardımı"nın müraciətləri demək olar ki, hər yerdə yayılırdı. Nəticədə "müdhiş türk" obrazı təkcə qəzet və jurnallarda deyil, eləcə də plakatlarda və kinoteatrlarda amerikalıların gözü qarşqısında idi. "Yaxın Şərq yardımı" çox ciddi məbləğlərdə pul yığmışdı. Dolların indikindən baha olduğu bir dövrdə o, 100 milyon dollardan çox yardım paylamışdı. Qeyd edilirdi ki, heç vaxt, bundan əvvəl, yaxıd sonra amerikalılar xeyriyyəçilik tədbirlərini bu qədər ciddi qəbul etməmişdilər.

Lakin belə alınmışdı ki, bir xalqı xilas etmək üçün digərini rüsvay edirdilər. Çox ehtiyac içində olan erməniləri yedirtmək kimi xeyirxah məqsədə nail olunmuşdu. Lakin bu amerikalıların şüurunda bütöv bir xalqın ədalətsiz olaraq qaralanmasının başa çatdırılması hesabına edilmişdi.

### Nəticə: obrazın davamlılığı

XIX əsrin 90-cı illərindən başlayaraq və Birinci Dünya Müharibəsindən sonrakı dövrdə amerikalılar türkləri yamanlayırdılar. Onlar bunu pis niyyətlə olduğu kimi, yaxşı niyyətlə də edirdilər: yetimlər üçün pul yığmaq, müharibəni udmaq, xristianlığın işinə kömək etmək, yaxud sadəcə olaraq ona görə ki, onlar Şərqi Anadoludakı işlərin real vəziyyəti haqqında heç nə bilmirdilər. Onlar yaxşı çalışdılar. Amerikalıların çoxu bu günə kimi də öz şüurunda onilliklərlə əvvəl yaradılmış türk obrazını saxlayır.



Bəs başqa cür necə ola bilərdi? Onların babalarını türklərə qarşı təbliğatla hərfi mənada atəşə tutmuşlar. Onların hörmət bəslədikləri insanlar onlara demişdilər ki, türklər bəladır və dəhşətli şeylər törədirlər. Heç kim türkləri müdafiə etməmiş, yaxud buna imkanı olmamışdır. Odur ki, erməni məsələsinə baxışın rasizmin ən pis ifratçılığından azad olmasına baxmayaraq, bizim günlərə bütünlükdə 1918-ci ildə olduğu şəkildə çatmışdır. Müsəlmanların – çərkəzlərin, abxazların, tatarların, türklərin və digərlərinin əzab çəkmələri az məlumdur, odur ki, bütün tərəflərin itki verdiyi uzun müharibə genosid adlandırılmışdır.

Bu gün amerikalılar XIX əsrin və XX əsrin əvvəllərinin irqi və etnik xurafatını qəbul etməzlər. Din xadimləri, missionerlər, digər ictimai və mülki liderlər belə ideyaları, amerikalı olmağın əsasının pozucusu kimi dərhal rədd edərlər. Lakin bu xurafatlar XIX əsrin sonunda və XX əsrin əvvəllərində türklər və ermənilər barəsində liderlərin gəldikləri nəticələrin əsasını təşkil etmişdir. Belə olan halda, bu gün rədd edilən mühakimələrə əsaslanmış qiymətləndirmə və rəyləri necə qəbul etmək olar?

## VII fəsil

## POLEMİKA

### Konflikt davam edir

Əvvəlki səhifələrdə yazılanlardan nə varsa əksəriyyəti erməni millətçiləri tərəfindən sual altına alınır. Bir qayda olaraq onların nəzər nöqtəsi Birləşmiş Ştatlarda qəbul olunur ona görə ki, bu məsələdə digər tərəf heç vax eşidilməmişdir.

XIX əsrin və XX əsrin əvvəllərinin təbliğatçıları yaxşı işləmişlər. Türk-erməni münasibətlərinin tarixi Qərbin kütləvi şüurunda "kütləvi qətllər", sonradan, "erməni genosidi" kimi müəyyən edilmişdir. Yaxın Şərq tarixində ictimai şüuru təəccübləndirmiş az obrazlardan biri olan "Aclıq çəkən ermənilər" Şimali Amerikada mədəni obraza çevrildi.

Erməni tarixinə standart baxış onunla qidalanır ki, Şimali Amerikada yüz minlərlə erməni, son dərəcə az türk yaşayır. Erməni inqilabçı qrupları bolşeviklər tərəfindən Ermənistanda hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Yeni İngiltərə və Kaliforniya onların dayaq məntəqəsi oldu. Ermənilərin orada olması o demək idi ki, onlar tərəf kilsə dairələrinə və qəzetlərə təsir etməyi davam etdirmək və bununla da hərəkatı aktiv vəziyyətdə saxlamaq bacarığına malikdir.



Bəs niyə alternativ fikirlə çıxış edən bir kəs olmamışdır. Bunun cavabını qismən Türkiyədə, qismən də Qərbdə axtarmaq lazımdır. Türkiyə hökuməti bu mövzunu sükutla keçməklə səhvə yol vermişdir. Birinci Dünya Müharibəsindən və Türkiyənin müstəqilliyi uğrundakı müharibədən sonra Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün qarşısında bu müharibələrlə üzülüb əldən düşmüş ölkə dururdu. Türkiyə Balkanlardan və Qafqazdan olan qaçqınlarla dolmuşdu. Tamamilə təbiidir ki, qaçqınlar doğma yerlərdə yaşamaq imkanı əldə etmək həsrətindəydilər. Lakin onların bu istəyi ilə razılaşmaq ölkəni müharibəyə aparmaq demək idi. Bundan isə son naticə olaraq heç kim xeyir görməyəcəkdi. Odur ki, Atatürk və onun hökuməti türk rəhbərinin "Ölkədə sülh, cahanda sülh" kimi müəyyən etdiyi siyasətin əsasını qoydu. Türkiyə hökuməti bəyan etdi ki, itirilmiş torpaqları geri almaq istəyində deyil. Bu vaxtdan türklərə Anadoluda və Frakiyada onlara qalan, müasir Türkiyəni təşkil edən ərazilərdə yaşamaq qalırdı. Dərsliklərdə və mətbuatda itirilmiş ərazilər haqqında istənilən xatırlamaya imkan verilmir, köhnə düşmənlərə, o cümlədən də ermənilərə qarşı nifrət hissinin ifadə edilməsinə icazə verilmirdi. Qısası, hesab edilirdi ki, qisas hissini boğmaq yaxşıdır, belə ki, o, son nəticədə ancaq millətə daha çox zərər verər. Bu türk mövqeyi Türkiyfənin özündə uğur gətirdi. İtirilmiş torpaqları qaytarmaq uğrunda müharibəyə can atanlara heç vaxt hökuməti dinc inkişaf və keçmişin acılarını unutmaq siyasətindən çəkilməyə vadar etmək müyəssər olmurdu.

Lakin bu siyasət xaricdə iflasa uğradı. Beynəlxalq arenada Türkiyənin səsinin olmaması ancaq ermənilərin səsinin eşidilməsi demək idi.

Birinci Dünya Müharibəsindən sonra Kanadada və Birləşmiş Ştatlarda osmanlı türkcəsində oxumağı bacaran son dərəcə az alim var idi. Yaxın keçmişdəki Türk tarixini etibarlı yazmağı bacaran isə daha az idi. Amerika universitetlərində tələbələrə qeyri-qərb dilləri təbris edilmirdi (*Qədim Yaxın Şərq tarixi üzrə daha çox elmi iş yazılmışdı, nəinki müasir dövr üzrə*). Obyektiv yazmağı bacaran çox az insanlar türklərə qarşı qabaqcadan yaradılmış mənfi rəylə üzləşirdilər. Təsadüfi deyil ki, onlar XV və XVI əsrlərə dair osmanlı tarixindən yazmağa üstünlük verirdilər, nəinki, son dərəcə qeyri-populyar məsələlərə müdaxilə edərək öz karyerası ilə risk etməyə. Birinci Dünya Müharibəsindən sonrakı dövrədək qəbul edilmiş doktrinanın tərəfdarlarından başqa heç kim Osmanlı imperiyasındakı ermənilər barədə yazmırdı, yazanlar isə çox halda missioner keçmişinə malik olanlar idi. Hətta Birinci Dünya Müharibəsindən sonra belə bu mövzuya dair son dərəcə az obyektiv tarixi iş yazılmışdı. Erməni məsələsinin standart versiyasını hamı tərəfindən qəbul edilmiş hesab etdiklərini tələbələrə bağışlamaq olar, belə ki, ancaq 1970-ci illərdən başlayaraq tarix bütün əlçatan mənbələri istifadə etməyə və deməli kök salmış baxışları şübhə altına almağa başladı.

Daha müasir osmanlı tarixi haqqında araşdırmalar aparan və yazan alimlər qrupunun mövcudluğu xarici aləmə 1950-ci illərdə yaranmış yeni Amerika marağının nəticəsidir.

Xarici dillərin və tarixin öyrənilməsi üçün dövlət təqaüdləri, eləcə də Dünya Korpusu kimi təşkilatlar Yaxın Şərqin öyrənilməsi üçün kifayət qədər ixtisasa malik yeni alimlər qrupunun yaranmasına səbəb oldu. Bu alimlərdən çox az hissəsi erməni-türk münasibətlərini öyrənməklə məşğul



oldu, lakin onlar da müasir türk tarixini öyrənərkən hadisələrin ənənəvi təfsirindən qaça bilmədi Türklər yenidən anlamağa başladılar ki, onlan bu məsələdə passiv ola bilməzlər. Bu anlayış onlara erməni terrorçuları türk diplomatlarını öldürməyə başlamaqla inqilabi zorakılığın yeni dövrünün əsasını qoyduqda çatdı. Türk arxivləri açıldı və türk alimləri erməni məsələsi üzrə nəşrlər buraxmağa başladılar.

## Fikir ayrılığı

Bu gün şübhəsiz ki, Osmanlı imperiyasında ermənilərin tarixi üzrə qanunauyğun fikir ayrılıqları mövcuddur. 1987-ci il mayın 19-da "**New York Times**"da və "Vaşinqton post"da 69 Amerika alimi tərəfindən imzalanmış müraciət dərc olunmuşdu. Onlar erməni məsələsinə olan ənənəvi baxışı şübhə altına alırdılar. Siyahıda türk araşdırmaları və Osmanlı tarixi üzrə ABŞ-ın ən görkəmli alimlərinin çoxu təmsil olunmuşdu. Ərizədə, o cümlədən də deyilirdi: ***"Genosid" haqqında ittihama gəldikdə isə, bu ərizəni imzalayanlardan heç kim ermənilərin əzablarının masştabını azaltmaq istəmir. Lakin biz eyni zamanda dərk edirik ki, buna regionun müsəlman sakinlərinin məruz qaldığı əzablardan ayrıca baxmaq olmaz. Çoxsaylı sübutlar müsəlman və xristian qeyri-nizami qüvvələrinin aparılan, Birinci Dünya Müharibəsi zamanı Anadoluda və qonşu vilayətlərdə baş verən xəstəliklər, aclıqlar, əzablar və kütləvi qətllərlə mürəkkəbləşən icmalararası hərbi hərəkətlərə aydınlıq gətirdi. Həqiqətən də baxılan illər ərzində region az, yaxud çox davam edən, sonuncu onillik ərzində Livanda baş verən faciədən nə iləsə az fərqlənən***

***hərbi hərəkətlər meydanı olmuşdu. Nəticədə müsəlman və xristian icmalarında həlak olanların sayı çox böyük idi".***

Şübhəsiz ki, ərizəni imzalayan 69 alim tarixin şərh edilməsində həmrəy idi. Fərqli cəhətlər ancaq bu və ya digər tarixi araşdırmanın xarakterinə aiddir. Necə olursa-olsun yuxarıda göstərilən müraciətə və hər hansı tərəfə qarşı ittiham irəli sürməzdən əvvəl mövzunun sonrakı araşdırılması zərurətinə münasibətdə onların rəyi tam üst-üstə düşürdü.

Qeyd etmək vaacibdir ki, "erməni genosidi"ni sual altına alanlar Hitler və nasistlər tərəfindən həyata keçirilimiş yəhudi genosidini sual altına alanlardan köklü şəkildə fərqlənir. Bir nəfər də olsa məntiqli alman tarixçisi nasistlərin öz ölüm düşərgələrində milyonlarla yəhudini öldürdüyünü şübhə altına almır. Lakin bunu edən kiçik, elmdən uzaq bir qrup mövcuddur. "Genosid" terminini ermənilər barəsində tətbiq edilməsini sual altına alan "69 alim" isə elmdən uzaq qrupp deyil. Onlar Türkiyə tarixi üzrə Birləşmiş Ştatlarda tanınmış ən görkəmli ekspertlərdir. Odur ki, heç kim onların suallarını nəzərə almaya, keçmişdə olduğu kimi, ***"erməni genosidinin olduğuna şübhə ilə yanaşan – hansısa elmdən uzaq təkcə bir fanatlar qrupudur"*** deyə bilməz.

### Müasir diskussiyalar

Burada və erməni qrupları tərəfindən yayılan materiallarda təqdim edilən suallar alimlər arasında ortaya çıxan fikir ayrılıqlırının humanitar araşdırmalarının mexanikasının, eləcə də elmi həqiqətin axtarışına siyasətin təsiri təhlilin əsasını təşkil edə bilər.

"Tərəflər" arasındakı fikir ayrılıqlrı əsaslıdır.



### FİKİR AYRILIQLIRININ MÖVZUSU

| | |
|---|---|
| *Osmanlı hökümətinin əmri ilə həyata keçirilmiş erməni genosidi olmuşdur.* | *Əgər Anadoluda hər iki tərəfin bir-birinə qarşı törətdikləri genosid kimi qiymətləndirilməzsə, heç bir genosid olmamışdır.* |
| *Erməni məsələsində ən əhəmiyyətli amil osmanlı türklərinin ermənilərə qarşı olan ağlasığmaz nifrətidir.* | *Ən əhəmiyyətli amil ermənilərin və rusların türklər və digər müsəlmanlarla olan konfliktinin uzunmüddətli tarixidir. Ağlasığmaz nifrət hər iki tərəfdə müşaiyyət olunurdu.* |
| *Ermənilərin inqilabi fəaliyyəti türk əsarətinin cavab idi. O, insanların, yolunda bütün xalqların mübarizə apardıqları təhlükəsiz vətənə malik olmaq hüququna əsaslanmışdı.* | *Ermənilərin inqilabi fəaliyyəti müsəlmanların tam çoxluq təşkil etdikləri ərazilərdə çoxluğun idarəçiliyi prinsipini nəzərə almadan vətənə malik olmaq millətçi təşəbbüsünə əsaslanırdı.* |
| *Ermənilər osmanlıların günahsız qurbanları olmuşdur. Birinci Dünya Müharibəsinin əvvəlində osmanlı erməniləri sultanın loyal, ən azı neytral təbəələri idi. Ancaq türklərin hücumuna məruz qaldıqdan sonra onlar qiyam qaldırdılar.* | *Ermənilər rus qəsbkarlarının köməyi ilə osmanlı hökümətinə qarşı qiyam qaldırmış və onlara qarşı hər hansı tədbir görülməzdən əvvəl öz müsəlman həmvətənlilərini öldürməyə başlamışdılar.* |

| | |
|---|---|
| *Məcburi köçürmələr türklərin ermənilərə qarşı istifadə etdikləri taktika olmuşdur (daha doğrusu, ermənilərin millətçi nəşrlərində məcburi köçürmələr haqqında istənilən xatırlama ermənilərə aiddir).* | *Məcburi köçürmələr rusların türklərə və digər müsəlmanlara qarşı istifadə etdikləri taktika olmuşdur. Ancaq sonradan bu osmanlılar tərəfindən ermənilərə qarşı istifadə edilmişdir. Birinci Dünya Müharibəsi zamanı ermənilərdən daha çox müsəlman öz yaşayış yerlərini tərk etməyə məcbur olmuşdur.* |
| *Birinci Dünya Müharibəsi onlara ermənilərdən qurtulmaq şansı verdiyi üçün osmanlılar erməniləri deportasiya etmək qərarına gəldilər. Onlar çoxdan bunu etmək istəyirdilər.* | *Erməniləri sürgün etmək barədə osmanlı qərarı əsasən hərbi zərurətlə əsaslanırdı, lakin müharibə dövrünün şəraiti ilə bağlı olaraq o, müvafiq şəkildə keçirilməmişdir.* |
| *Kütləvi erməni qətlləri xırdalığınadək öyrənilməlidir. Belə ki, onlar genosidin birinci müasir nümunəsidir. Ermənilərin öldürülməsinə görə təqsir türklərin və onlara kömək edənlərin üzərinə qoyulmalıdır.* | *Müsəlman-erməni münasibətlərinin bütün tarixi öyrənilməlidir. Ermənilərin olduğu kimi, müsəlmanların da öldürülməsi öyrənilməlidir. Əgər təqsirdən söhbət gedirsə, onda o, bütün tərəflərin üzərinə qoyulmalıdır.* |

### Müasir siyasi amillər

Şübhəsizdir ki, erməni məsələsi üzrə fikir ayrılıqları genişdir və onların asan həlli yoxdur. Tarix belə tikanlı problemlərlə doludur və adətən tarixçilər onların həlli üzərində



illərlə çalışırlar. Lakin erməni məsələsi digər tarixi problemlərdən onunla fərqlənir ki, o, həmçinin siyasi məsələ olaraq qalmaqda davam edir. Əvvəllər olduğu kimi, erməni millətçiləri bu günkü Türkiyənin ərazisində erməni dövləti qurmaq istəyirlər. Təbiidir ki, Türkiyə Respublikası bunun baş verməsini istəmir. Ermənilərin Osmanlı imperiyasındakı taleyi haqqında dünyanın ictimai rəyi siyasi müharibədə istifadə olunan alətdir.

Əgər məsələnin siyasi aspektləri tarixin öyrənilməsinə və tədrisinə təsir etmirsə siyasəti nəzərə almamaq olar. Alimlərə aydındır ki, erməni-türk münasibətləri məsələsində ən azı iki tərəf mövcuddur. Bu məsələ üzrə diskusiyalar davam edir. Çoxsaylı yeni kimtablar və məqalələr yazılır. Əgər siyasi maraqları olan insanlar onları rahatsız etməsəydilər, alimlər öz araşdırmalarını davam etdirə və son nəticə olaraq ən yaxşı cavablara və ümumi konsensusa ümid edə bilərdilər. Barəsində diskusiya aparılan erməni-türk konfliktini Yaxın Şərq tarixinin bir hissəsi kimi tələbələrə tədris edərdilər. Lakin təhlükə ondan ibarətdir ki, bugünkü siyasət erməni məsələsi üzrə tədrisə böyük dərəcədə təsir etmişdir. Qanunverici orqanlar və təhsil üzrə şuralar qərara almışlar ki, erməni məsələsi ermənilərin genosidi kimi tədris olunmalıdır. Bununla bağlı olaraq digər nəzər nöqtəsi təqdim edilməmişdir.

Təhsil sisteminin işçilərindən soruşmaq lazımdır ki, nə üçün Amerika məktəblilərinə təqdim edilən materiallarda məsələnin tarixinin davam etdirilən müzakirəsi əks olunmur. Tarixçilərin "erməni genosidi"nin baş verməsini sual altına almalarına baxmayaraq, nə üçün uşaqları bütün ağıllı

insanların onun həyata keçirilməsi barədə türklərin sərəncam vermələri ilə razılaşdıqlarına inandırırlar? Nə üçün bu məsələdə iki, yaxud daha çox tərəfin olmasının tələbələrə izah olunmasına cəhd edilmir?

Türk-erməni bəlalarının tarixi tədris siniflərində təqdim olunmağa layiqdir. Qafqazdakı və Şərqi Anadoludakı hadisələrin və türklərlə ermənilər arasındakı konfliktin insaniyyətsizlik nümunəsi kimi tədris olunması lazımi və dəyərlidir. Sektantlığın və radikal millətçiliyin təlükəliliyi, həmçinin hökümətin zəifliyinin nəticələri barədə dərslərin tarix üzrə tədris proqramlarına daxil edilməsi lazımdır. Erməni millətçilərinin baxışlarının təqdim edilməsi lazımlı, lakin əks tərəfin nəzər nöqtəsinin təqdim edilməsi də zəruridir.

Tədris proqramlarının seçilməsi prosesinin təhlili bu kitabın məqsədi deyil, lakin ola bilər ki, oxucular aşağıdakılarla tanış olmaq istəsinlər:

***"Erməni genosidi"nin (bu məzmunda) öyrənilməsinə müəllimlər deyil, qanunverici orqanlar sanksiya vermişdir. Tədris proqramları haqqında qərar qəbul etməzdən əvvəl qanunvericilərin çoxu tarix üzrə kitablarla tanış olmamışlar desək bəlkə də ədalətli olar.***

***Təhsilin xurafatdan və siyasi təzyiqdən azad olmasının zəruriliyi ilə hamının razılaşmasına baxmayaraq, bunu təcrübədə tətbiq etmək çətindir. Siyasi cəhətdən güclü təzyiq qruplarına öz baxışlarını təqdim etmək asandır, nəinki siyasi cəhətdən zəiflərə.***

***Türklərə qarşı ənənəvi qeyri-obyektiv münasibət türk tarixinin neytral ruhda təqdim edilməsini çətinləşdirir.***

***Çoxları "ənənəvi baxışı" sual altına almaqdan qorxur. Tədris proqramları üzrə qeyri-populyar baxışların qəbul edilməsi az fayda vəd edir.***



***Qeyri-qərb xalqlarının əksəriyyətinin tarixinin olduğu kimi, türklərin də tarixi Birləşmiş Ştatlarda və Kanadada o dərəcədə az məlumdur ki, onun haqqında haradan bilik əldə etməyi öyrənmək müəllimlər üçün çətindir.***

***Tarixçilər tərəfindən şübhə altına alınmasına baxmayaraq, erməni millətçilərinin tarixə olan baxışları geniş qəbul olunmuşdur. İnsanların çoxu problemin digər tərəfinin də mövcud olduğundan xəbərsizdir.***

Bu səbəblərə görə ermənilərin və türklərin tarixinə alternativ baxış təqdim etmək çətindir. Lakin müəllimlər, alimlər və siyasətçilər özlərindən soruşmalıdırlar, ancaq bir tərəfə söz vermək ədalətlidirmi? Ədalətlilik, hər şeydən savayı, tarixi həqiqətin vicdanlı axtarışı üçün zəruridir. Təhsil xadimləri ədalətlilik naminə vaxtilə tələbələrə tədris edilmiş "ənənəvi baxışlar"dan bir çoxunu araşdırmış və nəticədə dəyişdirmişlər. Qərbin Amerika tərəfindən mənimsənilməsi, onun köklü amerikalılara təsirini nəzərə almadan, daha sırf alicənablıq nümunəsi kimi tədris edilmir. Köləliyin tarixi kölələrin çoxunun öz taleyinə görə xoşbəxt olmasını təsdiq etməklə daha tədris edilmir. İmperializm daha "ağ insanın tale yükü" kimi tədris edilmir. Bu məsələlər üzrə ədalətliliyə can atma təhrif edilmiş tarixin tədrisini dəyişdi. Bu eyni dərəcədə erməni məsələsinə də tətbiq edilməlidir.

## *BİBLİOQRAFİK İSTİNADLAR*


1. *Bartlett, Rev. S.C., Historical Sketch of the Missions of the Amerikan Board in Turkey. "Published bu the Board", Boston, 1876, pages 2 and 3.*
2. *The Armenian Revolutionaru Movement, 1963, page 110.*
3. *William L.Langer, The Diplomacy of Imperialism: 1890-1902, 1960, pages 157 and 158, quoting a letter from Dr.Cyrus Hamlin which appeared in the Boston Congregationalist of December 23, 1893.*
4. *Reported to the Nues Wiener Tagblatt, Prester Lloyd, etc.*
5. *A.Rawlinson, Adventures in the Near East, 1918-1922, London, 1925, page 227.*
6. *Quoted by General Hamelin in a letter to the High Commissioner, February 2, 1919, in the official history, Les Armees Francalses au Levant, vol. 1, page 122.*
7. *New York Times, November 18, 1894.*
8. *"Turn out the Turk", New York Times, November 17, 1878.*
9. *Bartlett, Rev. S.C., Historical Sketch of the Missions of the American Board in Turkey, Boston, 1876, pages 1-3.*
10. *New York Times, February 3, 1896.*
11. *New York Times, November 18, 1895, in a series of interviews with prominent New Yorkers.*
12. *Ibid.*
13. *Ibid.*
14. *Turkey and the Armenian Atrocities, New York, 1896, pages 55, 61, and 113.*
15. *Bartlett, pages 26-27.*





16. *New York Times, November 18 and 22, 1895.*
17. *New York Times, November 18, 1895.*
18. *Editorial, November 2, 1896.*
19. *A.Ponsonby, M.P., Falsehood in War-Time, New York, 1928, page 13.*
20. *Peter Buitenhuis, The Great War of Words, Vancouver, 1987, page 27, and Ponsonby, Chapter 23.*
21. *Cambridge, Mass., 1927, reprinted 1971, page 82.*
22. *Garden City, New York, 1918 pages 275, 288, 291, and 337.*
23. *The Nation, November 4, 1915.*
24. *January 27, 1917 and November 2, 1918.*
25. *October 27, 1915 and October 30, 1917.*

## *TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT*

### *Türkiyə tarixi üzrə mütəxəssislərin işləri*


1. *Ahmad, Feroz, The Young Turkish: Progres in Turkish Politics, 1908-1914, Oxford, 1968. Standard history of the party which led the Ottoman Enpire at the of the Armenian Troubles.*
2. *Assembly of Turkish American Associations, editor, Armenian Allegations: Myth and Reality: A Handbook of Facts Documents, second edition, Washington, 1987,. Collection of articles and facts on the conflicts between Turks and Americans, including contemporary terrorism.*
3. *Davison, Roderic, Turkey, Englewood Cliffs, Ne Jersey, 1968. Short history of the Ottoman Empire and modern Turkey.*
4. *Djemal Pasha, Memories of a Turkish Statesman, 1913-1919, New York, 1922. Autobiography of one of the leaders of the Ottoman government and one who was closely involved with the Armenian Troubles.*
5. *Fisher, Alan, the Crimean Tatars, Stanford, 1978, Stndart history of the Crimean Tatars.*
6. *Gürün, Kamuran, The Armenian File: The Myth of innocence Exposed, London, 1985. History of the Turkish-Armenian conflict in Anatolia, based on Ottoman records.*
7. *Kazemzadeh, Firuz, The Struggle for Transcaucasia (1917-1921), New York, 1951. Standard history of the conflicts in Transcaucasia.*
8. *Langer, William L., The diplomacy of Imperialism, New York, 1951. Standart history of the conflicts in Transcaucasia.*
9. *Lewis, Bernard, The Emergence of Modern Turkey, London and New York, 1962. Intellectual and political history o Turkish reforms and goverenments.*





10. *Mcarthy, Justin, Muslims and Minorites: The population of Ottoman Anatolia and the End of the Empire, New York, 1983. Study of the population of Anatolia, including information on the numbers of Muslims and Armennans.*
11. *Mcarthy, Justin, et. al., Armenians in the Ottoman Empire and Modern Turkey (1912-1923), Istanbul, 1984. Collections of articles on the Turks and Armenians.*
12. *Öke Mim Kemal,The Armenian Questions, 1914-1923, Oxford, 1988. primarily a history of the effect of Europe on the Armenian Questions.*
13. *Orel, Sinasi, and Sureyya Yuca, The talat Pasha Telegrams: Historical Fact or armenian Fiction?, London, 1986. Astudy of the "disinformation" and inaccuracy that hs plagued the study of the Armenian Questions.*
14. *Shaw, Stanford J. and Ezel K. Shaw, History of the Ottoman Empire and Modern Turkey. Volume II: Reform, Revolution, and Republic: The Rise of Modern Turkey, 1808-1975, new york and London, 1975. Standart history of the Ottoman Empire, particularly strong on administration of the Empire.*
15. *Sonyel, Selahi Ramsdan, The Ottoman Armenians: Victims of Great Power Diplomacy, London, 1987. General history of the relations between Turks and Armenians.*
16. *Uras, Esat, The Amenians in History and the Armenian Questions, Istanbul, 1988. Translation of a standart text, for lon available only in Turkish, which contains extensive translations and documentation on the Armenian revolutionary parties.*
17. *Yalman, Ahmed Emin, Turkey in the World War, New Haven, Connecticut, 1930. Story of life in Turkey in the first world war.*


### *Erməni tarixi və digərləri üzrə mütəxəssislərin işləri*


1. *Bournoutian, George A., Eastern Armenian in the Last Decades of Persian Rule, 1807-1828, Malibu, California, 1982. History of Yerevan before the great population axchange.*

2. *Daniel, Robert L., American Philanthropy in the Near East, 1820-1960, Athens, Ohio, 1970. The story of American missionaries in the Ottoman Empire.*

3. *Grabill, Joseph L., Protestant Diplomacy and the Near East: Missionary Influence on American Policy, 1810-1927, Minneapolis, 1971. Insights on the development of American opinions.*

4. *Hovannisia, Richard G., Armenia on the Road to Independence, 1918, Berkeley and Los Angeles, 1967. History of the first days of the Armenian Republic.*

5. *Hovannisian, Richard G., The Republic of Armenian, 2 vols., Berkeley, Los Angeles, and London, 91971 and 1982. History of the Armenian Republic to 1920.*

6. *Strong, William Ellsworth, The Story of the American Board, 1910, reprinted, New York, 1969. Descriptions of American missionary activities. A good source on the mentality of the missionaries.*

7. *Ternon, Yves, The Armenian Cause, Delmar, New York, 1985. Short history of the Armenians from their beginnings to ca. 1980.*

9. *Trask, Roger R., The United States Response to Turkish Nationalism and Reform, 1914-1939, Minneapolis, Minnesota, 1971. A history of American opinions on Turks and American actions toward Turkey.*

10. *Walker, Christopher V., Armenia, the Survival of a Nation, London, 1980. Superficial but readable account from the Armenian Nationalist position.*



# Əlavələr

## I Fəsil

### Ümumi müddəalar

**I. Erməni-türk konfliktinin regionu Şərqi Anadolu və Qafqaz olmuşdur.**

A. Regionun böyük hissəsi dağlıq idi.

B. Regiondakı əhali qrupları təcridolunmuş vəzhiyyətdə qalırdı.

1. Ərazinin xarakteri təcridolunma və azlıq qruplarının mövcudluğunun davam etməsi üçün şərait yaradırdı.

2. Yerli hakimiyyətin kifayət qədər güclü olmasına baxmayaraq belə regionu idarə etmək olduqca çətin idi.

3. Lakin regionun xarici aləmlə əlaqəsi tam kəsilməmişdi.
- qonşu rayonlarda baş verənlər yaxşı məlum idi;
- insanlar regiona gəlir və onu tərk edirdi.

**II. Xalqlar**

A. İrq konsepsiyası ("qara", yaxud "ağ" yox, "alman irqi", yaxud "ingilis irqi") Yaxın Şərqdə deyil, XIX əsr Avropasında və Amerikasında geniş yayılmışdı.

B. Yaxın Şərqin sakinləri özlərini dini mənsubiyyətə görə müəyyən edir, Osmanlı hökuməti tərəfindən də həmin qaydada eyniləşdirilirdi.

C. Ermənilər

1. Bizim eradan əvvəl I əsrdən mövcud olmuş erməni çarlıqları və feodal qurumları adətən digər dövlətlərdən vassal asılılığında olmuşlar.

2. XI əsrdə region səlcuq türkləri, sonra isə osmanlılar tərəfindən işğal olundu.

3. İstər türk idarəçiliyindən əvvəl, istərsə də onun dövründə ermənilər Şərqi Anadoludan köçürdü.

Ç) Digər qeyri-müsəlmanlar, xüsusilə də kiçik xristian qrupları

D. Türklər

1. Türkdilli xalqlar Mərkəzi Asiyada ilk dəfə qeyd olunmuşlar.

2. XI əsrdə köçəri türklər Anadoluda məskunlaşmağa başladılar.

3. Osmanlı imperiyası türklər tərəfindən yaradılmışdır.

4. Türklər Anadoluda, Azərbaycanda, Krımda və Cənub-Şərqi Avropanın ayrı-ayrı bölgələrində əhalinin əksəriyyətini təşkil edirdi.

E. Digər müsəlmanlar

1. Kurddilliləri həyat tərzinə və loyallığına görə iki qrupa bölmək olar.

Şəhərdə yaşayanlar, yaxud kənd yerlərində oturaq həyat keçirənlər osmanlı cəmiyyətinə inteqrasiya olunmuşdu.

Kurddilli tayfaların üzvləri hər şeydən əvvəl öz tayfalarına loyallıq göstərir və ancaq bəzən osmanlı dövlətinin üstünlüyünü qəbul edirdilər.

2. Müasir Suriya ilə sərhəd bölgələrində yaşayan ərəbdillilər.

3. Qafqaz qaçqınları, məsələn, çərkəzlər və abxazlar.

Ə. Əhalinin tərkibi

1. Şərq əhalisinin böyük əksəriyyəti müsəlmanlar idi.

2. 1700-cü illər ərəfəsində ermənilərin çoxluq təşkil etdiyi, yaxud heç olmasa kifayət qədər çoxsaylı olduğu elə bir vilayət yox idi ki, orda həyatqabiliyyətli dövlət yaradılsın.

### III. Osmanlı idarəçiliyi

A. Osmanlı imperiyası mili imperiya deyildi, lakin türklər hakim sinifdə çoxluq təşkil edirdi.

B. Mərkəzi hökümət tərəfindən nəzarət dərəcəsi zaman-zaman dəyişirdi.

1. Nəzəri cəhətdən sultan mütləq hakimiyyətə malik idi.

2. Faktiki olaraq əksmərkəzləşmə zəruri idi və Şərqi Anadolunun bəzi hissələri əhəmiyyətli dərəcədə muxtariyyətə malik idi.

C. XVI əsrin sonlarında mərkəzi hakimiyyət zəifləməyə başladı.

1. Osmanlı imperiyasında Renessans və Elmi inqilb olmamışdı, odur ki burada hökümət Avropa dövlətlərində olduğundan zəif idi.

2. İmperiyanın bir çox vilayətləri faktiki olaraq müstəqil oldu.

Ç. Osmanlı İntibahı



1. Qərbi Avropa ilə geniş əlaqələr yaranmağa başladı. Osmanlılar qərb texnologiyasından və ideyalarından istifadə etməyə başladı. İslahatlar uğurlu, lakin məhdud idi:

– Rus hüsumları islahatlar üçün zəruri olan resursları mənimsəyirdi (otnimala);

– türklərin bir çoxunun konservativ düşüncə tərzi islahatlara maneçilik törədirdi.

2. Kommersiyanın inkişafından hər şeydən əvvəl osmanlı xristianları qazanırdı.

D. Millətlər (yüksəkrütbəli din xadimlərinin başçılıq etdiyi dini qruplar).

1. Dini əlamətlərinə görə millətlərə bölmə prinsipi İmperiyada yaşayan müxtəlif dini qruplara əhəmiyyətli dərəcədə muxtariyyət verirdi:

– təhsil, məişət, ailə hüququ və s. millətlərin idarəçiliyində idi.

– hər bir millətə onun dini lideri başçılıq edirdi.

2. Millətlər sistemi bir neçə xalqın yaşadığı İmperiyanı idarə etmək üçün çox təsirli idi, lakin o, separatizmə şirnikdirirdi.

## II fəsil

## Ümumi müddəalar

### I. Konfliktin iki kökü – rus istilası və erməni millətçiliyi

### II. Rus istilası

A. Krım tatarları

1. Demək olar ki, Krımın bütün əhalisi müsəlman-türklərdən (tatar adlandırılan).

2. Ruslar Krımı işğal etdilər:

– tatarlara qarşı torpaqların zəbt olunması, qanunsuz vergilər və digər inzibati təzyiq metodları tətbiq olunurdu;

– rus hərbi bölmələri tatar kəndlərinə hücumlar edirdi;

– tatarlara qarşı ruslaşdırma siyasəti tətbiq olunur, onlarda öz dinini və mədəniyyətini itirmək qorxusu yaradırdı.

3. Tatarları Osmanlı imperiyasına mühacirət etməyə məcbur etdilər. Ən azı onlardan 300.000-ni qaçqına çevrildi.

B. Qərbi Qafqaz müsəlmanları

1. Ruslar mühacirata məcbur etmək məqsədilə müsəlmanlar barəsində son dərəcə sərt siyasət tətbiq edirdi.

– kəndlər soyğunçuluğa məruz qoyulur, viranə edilirdi;

– evlər və əkinlər məhv edilirdi;

– rus əsgərləri müsəlman kəndlərinin sakinlərini öldürürdü.

2. 1864-cü ildə çərkəzləri Osmanlı imperiyasına mühacirət etməyə məcbur etdilər.

3. 1867-ci ildə abxazlar onların ardınca getməyə məcbur olundu.

4. 1877-1878-ci illərdə lazlar qovuldu.

5. Bütünlükdə, 1,2 milyondan çox çərkəz və abxaz qaçmışdı. Onların üçdə biri məhv oldu.

6. Bu qovulmalar "erməni məsələsi" ilə bağlı əhəmiyyətli nəticələr verdi:

– müsəlmanların çəkdiyi əzablar Qərbdə nəzərə alınmırdı ki, bu da onun qərəzli olmasını və qərb ölkələrinin əhalisinin nadanlığını göstərirdi;

– rus istilalarından nə gözləməyin mümkün olduğunu türklər olduğu kimi ermənilər də başa düşdülər, bu isə sonralar müsəlman-erməni konfliktinin meydana çıxması üçün böyük əhəmiyyət kəsb etdi.

C. Cənubi Qafqaz – Zaqafqaziya

1. Bu regionun sakinlərinin loyallığı siyasətdən çox dini amillərə əsaslanırdı.

2. Zaqafqaziyanın müsəlman xanlıqlarına qarşı olan erməni hərəkatları rus işğalçılarının maraqlarına xidmət edirdi:

– 1790-cı ildə erməni yepiskopları Rusiyanı müdafiə etdi;

– ermənilər rus işğalçıları ilə əməkdaşlıq edir və hətta özlərinin müsəlman hakimlərinə (pravitelğ) qarşı ruslar tərəfində vuruşurdular.

3. 1827-1829-cu illərdə Rusiyanın Fars və Osmanlı imperiyalarına qarşı apardığı müharibələr xalqların çox böyük məcburi köçürmələrinin (ermənilərin – Rusiya Qafqazına, müsəlmanların – Osmanlı imperiyasına) əsasını qoydu:

– Rusiyanın işğal etdiyi İrəvan quberniyasının türk və digər müsəlman sakinlərinin 30 faizi məhv edildi, yaxud qaçmağa məcbur edildi;



– Avropa dövlətləri rusları zəbt etdikləri bəzi torpaqları tərk etməyə məcbur etdikdə həmin torpaqlarda yaşayan ermənilər Anadolunu tərk edərək onların ardınca getdilər;

– İran erməniləri də Zaqafqaziyaya köçdülər;

– sonrakı 90 il ərzində ruslar köçürmə siyasətini davam etdirdilər;

– ermənilər daha yaxşı həyat şəraiti axtarışında Şərqi Anadolunu tərk edir və Osmanlı imperiyasının digər hissələrində və Rusiyada məskunlaşırdılar.

Ç. XIX əsrin digər müharibələri.

1. Krım müharibəsindən(1854-1856) sonra əhəmiyyətli sayda erməni Şimal-Şərqi Anadolunu tərk edən rusların ardınga getdi.

2. 1877-1878-ci il rus-türk müharibəsinin gedişində və ondan sonra da mühacirət davam edirdi:

– türklər və digər müsəlmanlar rus basqınlarından Anadoluya qaçırdı. Ancaq Ərzurum şəhərindən 6.000 müsəlman ailəsi qaçmışdı;

– müharibədən sonra ən azı 25.000 erməni Anadoludan Rusiya Zaqafqaziyasına köçmüşdü;

– 60.000 çox müsəlman Anadolunun sülh müqaviləsinə görə Rusiyaya verilmiş bölgələrinini tərk etmişdi. 40.000 laz da doğma yerlərdən qovulmuşdu.

## III fəsil

## Ümumi vəziyyət

### I. Millətçilik – idrakın yox, inamın məhsulu

A. XIX əsrdə millətçilik "irq" ideyası ilə bağlı idi.

1. Avropalılar hesab edirdi ki, "millət"in mahiyyəti xalqın ürəyində, yaxud ruhundadır.

2. Hər bir "irqi qrup" özünü digərlərindən üstün hesab edirdi.

B. İrqçilik və millətçilik hər bir insan qrupunun dinə görə eyniləşdirildiyi ənənəvi Yaxın Şərqə xas deyildi.

## II. Din və erməni millətçiliyi

A. Erməni sepaparatizmi digər xristian kilsələrindən olduğu kimi, islam dlinindən də fərqlənən erməni dininə əsaslanırdı.

B. Osmanlı millətlər sistemi erməni separatizmini gücləndirirdi.

C. Missionerlər erməni separatizminin inkişafına kömək edirdi.

1. Katoliklər ermənilərin milli şüurunun inkişafına şərait yaratmış ilk missionerlər idi.

2. Amerikalı protestant-missionerlər ermənilərin maarifləndirilməsi və onların protestantlara çevrilməsi məqsədilə Qərb tipli məktəblər yaradırdı:

– osmanlılar missionerlərə və onların məktəblərinə xüsusilə müqavimət göstərmirdi.

– missioner məktəbləri bütün Anadoluda açılırdı.

3. Amerika məktəbləri erməni millətçiliyinin mərkəzinə çevrilirdi:

– müəllimlər erməni tələbələrə xristianların üstünlüyü barədə fikir aşılayırdı;

– erməni müəllimləri və tələbələri missioner məktəblərini inqilabi təbliğat və inqilabi təşkilatların yaradılması üzrə təbliğat aparılması üçün istifadə edirdilər;

– qərb təhsili ermənilərə iqtisadiyyatda müsəlmanlardan daha tez nailiyyətlər əldə etmək imkanı verir, bununla da onların üstünlük hissini gücləndirirdi.

4. Osmanlıların dini dözümlülüyü Amerika missionerlərinə öz fəaliyyətini davam etdirmək və daha da genişləndirmək imkanı verirdi, baxmayaraq ki, missioner məktəbləri osmanlı dövlətinə parçalayıcı təsir göstərirdi.

## III. Erməni inqilab partiyaları

A. Armenakan partiyası birinci yaradılmışdı, lakin onun fəaliyyəti uğursuz oldu.

B. Qnçak partiyası – marksist doktrinaçı-inqilabçıların təşkilatı.

1. Qnçakçıların doktrinasında göstərilirdi ki, osmanlı hökümətinə və müsəlmanlara qarşı mübarizədə zorakılıq tətbiq edilməsi erməni dövlətinin yaradılması üçün zəruridir.



2. 1890-cı illərdə qnçakçılar Osmanlı Şərqində qiyam təşkil etdilər.

C. Dannaksütyun partiyası inqilabi partiyalar arasında ən böyük uğurlar əldə etdi.

1. Daşnakların təşkilatı mərkəzi Rusiya imperiyasında yerləşirdi.

2. Daşnaklar ermənilərin inqilabi fəaliyyətini Osmanlı imperiyasına qarşı istiqamətləndirirdi:

– bütün Şərqi Anadoluda ermənilərin partizan dəstələri təşkil olunmuşdu;

– Daşnak taktikası osmanlı idarələrinə hücumları və vətəndaş müharibəsinə təhriketməni əhatə edirdi.

# IV fəsil

## Ümumi vəziyyət

## I. Türklərin Şərqdə sülhü qorumaq cəhdləri

A. Sülh və əmin-amanlıq osmanlıların marağında idi.

B. Erməni inqilabçılarının maraqları əks xarakterli idi.

1. Bolqar inqilabı erməni inqilabçıları üçün nümunə rolunu oynadı:

– bolqar qiyamının ilk addımları müsəlman kəndlərinin sakinlərinin məhv edilməsini əhatə edirdi;

– Qərb mətbuatında müsəlmanların cavab tədbirləri geniş işıqlandırır, lakin bolqar müsəlmanlarının öldürülməsi barədə heç nə deyilmirdi;

– Rusiya Osmanlı Bolqarıstanına soxuldu;

– bunun ardınca bölqar türklərinin yarıdan çoxu məhv edildi, yaxud qovuldu:

– əhəmiyyətli dərəcədə azaldılmış türk əhalisi ilə müstəqil Bolqarıstan yaradıldı.

2. Erməni inqilabçıları Bolqarıstan nümunəsinə uyğun hərəkət etməyə cəhd etdilər, lakin çətinliklərlə üzləşdilər. Bolqarıstandan fərqli olaraq müsəlmanlar Şərqi Anadoluda əhəmiyyətli dərəcədə çoxluq təşkil edirdi;

– Avropanın ermənilərə görə silahlı müdaxiləyə əl atacağını gözləmək olmazdı.

## II. Şərqi Anadoluda erməni qiyamı 1890-cı illərdə başladı

A. Birinci inqilabi aksiyalar erməni partizan dəstələrinin təşkili və müsəlmanlara kiçik masştablı hücümlarla başlandı.

B. 1894-cü ildə və sonralar qiyamlar Osmanlı Şərqinin müxtəlif şəhərlərində alovlandı.

1. "Bolqar nümunəsi" üzrə inkişaf edən ermənilərin qiyamı müsəlmanların məhv edilməsilə başlandı.

2. İstər müsəlmanlar, istərsə də ermənilər arasında tez-tez böyük qurbanlarla müşaiyət olunan bütün qiyamlar yatırıldı.

3. Hər bir halda avropalılar ermənilər tərəfində hərbi müdaxiləyə yol vermirdilər:

– ermənilərin müsəlmanlara qarşı hücumlarının məqsədi cavab tədbirlərinə sövq etmək idi;

– Avropa və Amerika qəzetləri ancaq birtərəfli məlumatlar dərc edirdi;

– əsasən avropa siyasəti baxımından gözlənilən müdaxilə həyata keçirilmədi.

C. Qiyamların əsas nəticələrindən biri psixiloji təsirlər idi. Ermənilər və müsəlmanlar bir-birindən qorxmağa başladı.

## III. 1905-ci ildə Zaqafqaziyada türklər və ermənilər arasında icmalararası qarşıdurmalar baş verdi

A. 1905-ci ilin fevral-sentyabr aylarında Bakıda türklər və ermənilər arasında şiddətli toqquşmalar baş verdi.

B. Naxçıvanda və İrəvan quberniyasının cənubunda kəndlər tamamilə yandırılır və hər iki tərəf qırğınlarda iştirak edirdi.

C. Şərqi Anadoluda olduğu kimi hər bir tərəf başa düşdü ki, qarşı tərəfin qələbəsi məğlubolmuşlara ölüm gətirir.



# V fəsil

## Ümumi vəziyyət

## I. Şərqi Anadoluda müharibə 1914-cü ilin noyabrında başladı

## II. Erməni qiyamları

A. Qiyam üçün toplanılmış silahlar paylandı.

B. Şərqi Anadoluda osmanlı əsgərləri və digər müsəlmanlar orduya çağrıldı, bununla bağlı olaraq oranın şəhər və kəndlərində ancaq qocalar, uşaqlar və qadınlar qaldı.

C. Partizan müharibəsi başlandı.

1. Erməni inqilabi təşkilatları və ruslar Zaqafqaziyada və Şərqi Anadoluda erməni partizanlarını öyrədir və təşkil edirdilər.

2. Müdaxiləçi ordunun hücumlarına müqavimətin klassik "yumşaldılması" əməliyyatları başlandı:

– kommunikasiyalar sıradan çıxarıldı;

– çağırışla məşğul olan zabitlər və digər osmanlı rəsmiləri hücumlara məruz qoyuldu;

– jandarm sahələrinə hücumlar başlandı;

– müsəlman kəndləri basqınlara məruz qaldı.

Q. Van qiyamı

1. Van şəhəri erməni qiyamçıları tərəfindən ələ keçirild:

Van müsəlmanları məhv edildi, yaxud şəhərdən və onun ətraflarından qaçıb canını qurtarmağa məcbur oldu;

kənd bölgələrində kürd tayfaları ermənilərə qarşı hücumlara, onları öldürməyə, yaxud qaçmağa məcbur etməyə başladı.

2. Rus qüvvələri gələnədək ermənilər Vanı əldə saxladılar.

3. Osmanlıların əks hücumları geri çəkilməyə məcbur etdi, lakin onlar özlərinə gələrək yenidən şəhəri ələ keçirdilər.

D. Bütün Şərqi Anadoluda kütləvi qırğınlar və əhalinin qaçması

1. Van müsəlmanları olduğu kimi, Bitlis və digər şəhərlərin müsəlmanları da əzablara düçar oldular.

2. Kənd yerlərində müsəlmanlar erməni bandalarının, ermənilər isə kürd tayfalarının hücumlarına məruz qoyulurdu.

3. Bir milyondan çox müsəlman ruslar və ermənilər tərəfindən işğal olunmuş əraziləri tərk etməli oldu.

**III. Erməni deportasiyası**

A. Osmanlı hökuməti partizanların hücumundan klassik müdafiə taktikasını – deportasiyanı seçdi. Onun məqsədi erməni dəstələrini və rus qəsbkarlarını partizanların köməyindən məhrum etmək idi.

1. Ermənilər İmperiyanın şərqindən (rusların nəzarəti altında olan böyük ərazilər istisna olunmaqla) və Anadolunun digər bölgələrində deportğasiya olundu.

2. Deportasiya zamanı osmanlılar ciddi səhvlərə yol verdilər:

– hökumət deportasiya olunanların kifayət qədər müdafiə olunmasını təmin etmək iqtidarında olmadı. Erməniləri kürdlərdən müdafiə etməli, yoxsa müsəlmanları erməni dəstələrindən seçimi qarşısında duran osmanlı rəsmiləri çox vaxt sonuncunu seçirdi;

– ermənilər hətta cüzi müdaxilə təhlükəsi olan bölgələrdən belə köçürülürdü.

3. Osmanlıların erməniləri məhv etmək niyyətində olduqları barədə olan iddialar faktlarla təsdiq olunmur:

– ən çox müdafiəsiz vəziyyətdə olan ermənilər (İstanbuldan, İzmirdən və s. olan ermənilər) zərər çəkmədilər;

– Suriyaya deportasiya olunanların çoxu sağ qaldı;

– ermənilərin məhv edilməsi barədə osmanlı planının mövcud olmasını təsdiq edən etibarlı sübut yoxdur.

B. Osmanlılar erməniləri müdafiə etməyə səmimi səylər göstərirdilər, lakin görülmüş tədbirlər kifayət etmədi. Nifrət dərin və qarşılıqlı idi. Bəzi osmanlı rəsmiləri repressiyalara əl atdılır. 1.000-dən çox türk və kürd ermənilərə qarşı cinayətlərə görə məsuliyyətə cəlb olundu və məhkum edildi. Bu hökumətin qanunun gücünü tətbiq etmək niyyətini göstərir.

C. Nə ermənilər, nə də ruslar heç vaxt öz adamlarını türklərə qarşı cinayətlərinə görə məsuliyyətə cəlb etməmişlər.



Ç. Əslində hər iki tərəf məcburi köçürmələrə və deportasiyalara əl atmışdır. Məcburi köçürmələrə ermənilərdən çox türklər və digər müsəlmanlar məruz qalmışlar.

D. Birinci Dünya Müharibəsi hadisələri vətəndaş və dünya müharibələrinin kombinasiyası kimi təzahür edirdi. Aclıq və xəstəliklərlə yanaşı, məhz əsasən onlar ermənilərin və müsəlmanların öz həyatını itirməsinə səbəb oldu. Əgər bu qarşılıqlı genosid deyildisə, qenosid anlardırıla biləcək başqa heç nə yox idi.

**IV. Rusların iflasa uğraması və ermənilərin geri çəkilməsi**

A. 1917-ci ildə Rusiya özünün Şərqi Anadoludakı nailiyyətlərini davam etdirməyə hazırlaşırdı, lakin rus inqilabı rus ordusuna dağıdıcı təsir göstərdi.

B. Ermənistan Respublikasını yaradan ermənilər rus istilalarını əldə saxlamağa cəhd etdilər, lakin osmanlı ordusuna məğlub oldular.

C. Erməni qüvvələri Zaqafqaziyaya çəkildi, onlarla birlikdə erməni əhalisi də getdi.

1. Erməni qaçqınlarının çoxu yol boyu (geri çəkilmə xətti üzrə A.C.) və İrəvan quberniyasında aclıqdan və xəstəlikdən öldü.

2. Geri çəkilən ermənilər qaçıb qurtula bilməyən bütün müsəlmanları öldürürdü:

– Ərzincanda türklərin 1.000 evi dağıdılmış, meyitlər şəhərin küçələrinə səpələnmişdi;

– Bəyburt, Tərcan və digər şəhərlər geri çəkilən ermənilər tərəfindən böyük dağıntılara məruz qalmış, orada qalan türk əhalisi məhv edilmişdi;

– Osmanlı Şərqinin ən böyük şəhəri olan Ərzurumda 8.000-ə yaxın türk öldürülmüşdü;

– regionun kəndlərində analoji və hətta daha amansız vəhşiliklər törədilmişdi.

3. Qaçıb qurtula bilməyən ermənilər də öldürülmüşdü.

Ç. Qars əyaləti üzərində nəzarətə nail olan ingilislər sonra oranı Ermənistan Respublikasına verdi, baxmayaraq ki, əyalətin sakinlərinin yarıdan çoxu müsəlmanlar idi.

1. Ermənilər onları sıxışdırıb çıxaran dağ kürdlərinə qalib gələ bilmədi.

2. Ermənilər düzənliklərin incilislər tərəfindən tərksilah edilmiş türk əhalisi üzərində nəzarətə nail oldular:

– erməni istilaları sonrakı soyğunçuluqlara və türklərin öldürülməsinə səbəb oldu;

– Türklər Qarsdan türklərin nəzarəti altında olan bölgələrə qaçırdı.

3. Türk millətçilərinin qüvvələri İrəvan quberniyasına (Ermənistan SSR*) qaçan erməniləri məğlub etdi. Sağ qalmış türkləri qayıtmağa başladılar.

**V. Azərbaycan türkləri və Ermənistan Respublikasının erməniləri ərazilər və nüfuz dairəsi uğrunda vuruşurdu**

A. Bakıda ermənilər və bolşeviklər türk qırğınları törətmək üçün birinci olaraq birləşdilər. Sonradan buna cavab olaraq türklər erməni qırğınları törətdilər.

B. Ermənistan Respublikasının hər yerində türk kəndləri dağıdılır, onların sakinləri isə qaçmağa məcbur edilirdi. Ermənistan Respublikasının müsəlmanlarının üçdə ikisi qaçqına çevrildi, yaxud məhv edildi.

C. Ermənilər də Azərbaycanı tərk edirdilər, lakin az sayda.

**VI. Kilikiya işğal üçün erməni hissələrindən istifadə edən fransızlar tərəfindən zəbt olundu**

A.İşğal olunmuş torpaqların türk əhalisi yenidən qaçır, yaxud məhv olurdu.

B. Ermənilərin hərəkətləri türkləri erməni dəstələrinə və fransızlara müqavimət göstərmək üçün mütəşəkkilliyə məcbur etdi.

1. Fransızlar və ermənilər məğlub oldular.

2. Geri çəkilən ermənilər yol üstündə olan bütün türk kəndlərini yandırırdı.

3. Erməni əhalisi Kilikiyanı tərk edən fransızların ardınca getdi.



**VII. Müharibənin nəticələri**

A. Şərqi Anadolu viran qoyuldu.

1. Şəhərlərdə ictimai binalar və çoxsaylı yaşayış evləri dağıdılmışdı.

2. Bəzi kənd bölgələrində geri çəkilən ermənilər tərəfindən binaların üçdə ikisi dağıdılmışdı.

3. Beynəlxalq yardım ermənilərə çatırdı, türklərə yox.

B. Ölənlərin sayı

1. Ölənlərin sayını ancaq bütün Anadolü üzrə hesablamaq olar:

– təxminən 600.000 erməni həlak olmuşdur;

– 2,5 milyondan çox müsəlman həlak olmuşdur.

Ç. Müharibənin başa çatması ilə 100 ildən çox davam edən qarşılıqlı erməni-müsəlman köçürmələri də sona yetdi.

---

** İndiki Ermənistan Respublikası*

"Erməni məsələsi" ənənəvi olaraq ancaq ermənilərin tarixi kimi tədris olunur. Lakin türk-erməni konfliktinin təqdim olunmasının bir çox digər yolları da mövcuddur. Onlardan biri bizim digər xalqların mədəniyyət və tarixinə olan baxışlarımızı necə formalaşdırmağımızdır.

1. Tarixi anlamağımıza mənbələrin təsiri necədir? Uzun illər boyu erməni tarixinin öyrənilməsi üçün istifadə olunan yeganə mənbə missionerlərdən və onlar kimi, birtərəfli mövqedən çıxış edənlərdən gələn məlumatlar olmuşdur. Ancaq osmanlı sənədləri Avropada və Birləşmiş Ştatlarda öyrənilməyə başlandı. Onlar erməni məsələsi ilə bağlı hər nə varsa hamısı barədə tamamilə başqa mənzərə canlandırır. Məsələn, osmanlı sənədləri diqqəti müsəlmanlar sırasından olan qurbanlara cəlb etdiyi halda, Birinci Dünya Müharibəsi hadisələri barədə olan missioner hesabatları ermənilərin partizan dəstələri tərəfindən çox böyük sayda türklərin məhv edilməsi barədə ya az, yaxud heç bir məlumat vermir. Hər iki qrupa daxil olan sənədləri nəzərə almadan tarix yazmaq olarmı? Tarix yazılarkən mənbələrdən belə seçmə üsulu ilə istifadə olunması nədən xəbər verir?

2. Osmanlı imperiyasında olan Amerika diplomatları adətən müsəlmanların çəkdikləri əzabları yada salmağı özlərinə rəva bilmirdilər. Ruslar Qafqaz regionunun milionlarla müsəlmanını öz doğma yerlərindən qovub çıxardıqda, amerikalılar yaranmış şərait barədə öz rəhbərliklərinə ancaq bir neçə məlumat göndərdilər. Hər şeydən əvvəl, onlarda o barədə təəssüf bildirilirdi ki, aclıq çəkən müsəlmanlar xristianların adət etdikləri həyat axarını pozmuşlar. Çərkəzləri qida məhsullarını oğurlamağa görə yamanlayır, lakin onları oğurluğa məcbur edən aclıq barədə susurdular. Ruslar barəsində ittiham isə ümumiyyətlə səslənmirdi.

Birnci Dünya Müharibəsi zamanı yenə də həmin birtərəfli məlumatlandırma modelindən istifadə olundu. Məsələn, Aleppodakı Amerika konsulu C.B.Cekson deportasiya olunan ermənilərin çəkdiyi bəlaların təfsilatını xəbər verir, lakin elə onun konsulluq dairəsində olan yüz minlərlə aclıq çəkən müsəlman qaçqınının meydana çıxmasını sanki



görmürdü. (*Ceksonun məlumatları bizim günlərdə də tez-tez istifadə olunur, özü də onların mətni erməni məsələsini öyrənən tələbələrə paylanır*). Görəsən Ceksonun və onun kimilərinin düşüncə tərzi necə idi? Doğrudanmı onlar müsəlmanlar arasında ölənləri görmürdülər? Buna inanmaq necə çətin olsa da, ola bilər ki, belə insanların xurafatı o dərəcədə güclü olmuşdur ki, onlar ətravfda baş verənləri sadəcə olaraq görməmişlər. Onlardan çox az bir hissəsi müsəlmanlarla sıx insanı əlaqələrdə olmuşdu; əksər hallarda isə onlar avropalılar və yerli xristianlarla münasibət saxlamağa üstünlük verirdilər. Bunun başqa izahı belə ola bilər ki, diplomatlar adi insani zəifliklərə məruz qalmaları üzündən onların rəhbərliyinin eşitmək istədiyini xəbər verməyə meylli olmuşlar. Türklərin olduğu kimi, ermənilərin də cinayətlərindən xəbər verən ilk Amerika diplomatı – Birinci Dünya Müharibəsindən sonra Qafqazda və Şərqi Anadoluda baş vermiş erməni-türk müharibəsi dövründə Amerikanın İstanbuldakı səlahiyyətli nümayəndəsi admiral Bristal olmuşdur. Bristalın göndərdiyi agentlər hər iki tərəfin hərəkətlərinə nəzarət etmişlər. Bristal onların məlumatlarını özünün kinayəli şərhlərilə birlikdə Vaşinqtona göndərmişdir. Görünür təsadüfi deyil ki, Bristalın nə ermənilərə, nə də türklərə xüsusi simpatiyası olmamışdır. O, öz dövrünün xurafatının təsiri altına düşməmiş və beləliklə də kifayət qədər obyektiv məlumat verə bilmişdir.

3. Biz indinin özündə də hər şeyə öz anlayışlarımız və xurafat prizmasından baxırıq, baxmayaraq ki, bizim səhvlərimizə gələcək tarixçilərin qiymət verməsini gözləmək düz olardı. Bizim babalarımız da istisna olmamışlar. Onların təhrif olunmuş anlayışları, onların Osmanlı imperiyasındakı hərəkətlərinə olduğu kimi, orada baş verənlər barəsində yazdıqlarına də təsir etmişdir. Təklif olunan tədqiqatda irqçilik ideyasına böyük diqqət yetirilir. "İrq" olsa-olsa o dövrün ideyalarından biri idi. Sosial-darvinizm, allahın sevimlisi olmaq və "ağ adamın tale yükü" kimi anlayışlar yaxın keçmişin mentalitetinə yaxşı misaldır. Belə ideyaların təhlili Qərbin Osmanlı imperiyasında olmuş təmsilçilərini başa düşməyə kömək edir. Odur ki, onların fikirlərinə qiymət verərkən biz diqqətli olmalıyıq.

4. Birinci Dünya Müharibəsi dövründə birtərəfli məlumatlardan və birbaşa yalanlardan əzab çəkən təkcə türklər deyildi. Almanlar da Müt-

təfiqlərin təbliğat maşınının qurbanı olmuşlar. Kütləvi qətllərə və türklərin ayağına yazılan analoji vəhşiliklərə görə məsuliyyət onların üzərinə qoyulurdu. Məsələn, yazırdılar ki, onlar, onlara müqavimət göstərən xalqları məhv etmək üçün belçikalıları və digər millətlərin nümayəndələrini aclığa məruz qoymuşlar. Amerika və İngiltərə qəzetlərində alman işgəngələri, zorlamalar və s. bu kimi "dəhşətli hadisələr" həqiqət kimi təqdim olunurdu. Lakin müharibədən sonra almanların siması təmizə çıxarıldı. Alimlər almanlara qarşı olan hərbi təbliğatı ətraflı olaraq araşdırdılar və demək olar ki, bütünlüklə onların saxtalaşdırılmış olduğunu qəbul etdilər. Hərbi təbliğatın yalan olmasının klassik nümunəsi onun saxtalaşdırdığı və ictimaiyyət tərəfindən həqiqət kimi qəbul edilən "süngüyə taxılmış belçika körpələri" obrazı oldu. Türklər barəsində elə həmin təbliğat maşını tərəfindən yayılan yalanlara gəldikdə isə, onlar barəsində belə araşdırmalar aparılmadı. Mahiyyətcə onlar elə bu gün də təkrar olunur. Nə üçün belə oldu? Təsadüfi deyil ki, ancaq indi. Qərb sakinləri qeyri-qərb mədəniyyətlərinə daha açıq münasibət göstərdiyi zaman belə araşdırmaların aparılmasına başlanır.

5. Oxucuların çoxu üçün bu səhifələrdə göstərilənlərin böyük hissəsi şübhəsiz ki, tamamilə yeni idi. Lakin Osmanlı imperiyasını öyrənən tarixçilər artıq müəyyən vaxtdır ki, türklərin və ermənilərin tarixinə olan ənənəvi nəzər-nöqtəsinə alternativ baxışlar ifadə edirlər. Əlbəttə kim sə ənənəvi baxışları həqiqət kimi qəbul etməyə üstünlük verir. Lakin qəribə deyilmi, insanların çoxu hətta əks nəzər-nöqtəsinin olduğunu belə bilmir? Bu fakt tarixin təqdim olunması və dərk edilməsi üsulları haqqında kifayət qədər məlumat verir.

Erməni məsələsini öyrənərkən Qərb cəmiyyətinin idealını da öyrənmək olar. Tədqiqatların başlıca qaydalarından biri problemin bütün aspektlərinin nəzərə alınması zərurətidir. Lakin yuxarıdı göstərildiyi kimi, türk tarixindən bəhs olunarkən, bu qaydaya nadir halda riayət olunmuşdu. Hər şeydən başqa, erməni məsələsi Avropa və Amerika siyasi ideallarını işıqlandırır, xüsusilə də qeyri-avropalılardan və qeyri-xristianlardan söhbət getdiyi hallarda.

1. 1918-ci ildə prezident Vudro Vilson özünün "14 bənd"ini irəli sürdü. Onlar böyük rəğbətlə qarşılandı. Müttəfiqlər ən azı müharibənin sonunadək onları sülh tənzimlənməsi planı kimi qəbul etdilər. "14 bənd"in ən əhəmiyyətli məqamlarınqdan biri millətlərin öz müqəddəratını müəyyən etməsi idi. Yaxın Şərqdə və Balkanlarda millətlərə yaşadıqları ərazilərdə öz dövlətlərini təşkil etmək hüququ verilirdi. 12-ci bənd bu hüququ bilavasitə türklərə şamil edirdi. Lakin siyasi reallıq başqa idi. Türklər məğlub olan kimi, onların müharibədən əvvəl və müharibədən sonra çoxluq təşkil etdiyi torpaqlar digər ölkələrə verildi. Fransa, Yunanıstan və İtaliya Anadolunan bir hissəsini və Şərqi Frakiyanı, bu ərazilərdə türklərin böyük əksəriyyət təşkil etməsinə baxmayaraq, idarəçiliyə götürdülər.

2. Fikirləşmək olardı ki, sadəcə olaraq müttəfiqlər paylaşdırdıqları torpaqların əhalisinin tərkibini aydınlaşdırmamışlar. Lakin vəziyyət belə deyildi. Hər bir mili qrup tərəfindən təqdim olunan statistikanın ziddiyyətli olmasına baxmayaraq, bütünlükdə ümumi anlayış mövcud idi ki, qeyd olunan ərazilər türk torpaqlarıdır. Britaniya xirici işlər nazirliyi Anadoluya göndəprdiyi öz nümayəndələrini təlimatlandırırdı ki, osmanlı siyahıyaalması əhalinin tərkibi barədə ən etibarlı məlumatları verir və odur ki, əhalinin tərkibini müəyyən edərkən onu rəhbər tutmaq lazımdır. Həqiqətən də osmanlı siyahıyaalması vəziyyəti aydın təsvir edirdi. Lakin Sülh Konfransında əsil statistika nəzərə alınmadı, nəticədə türklərə onların torpaqlarının ancaq az bir hissəsi çatdı. Hətta türklərin əhalinin əksəriyyətini təşkil etdiyi türk paytaxtı İstanbul Müttəfiqlər tərəfindən tutuldu. Ancaq türk millətçilərinin hərbi qələbəsi Müttəfiqlərin planlarını pozdu.

3. Müttəfiqlər öz planlarını haqq qazandırmağa, yaxud hətta saxta statistikanı dərc etdirməyə xüsusilə ehtiyac duymurdular. Türklərdən söhbət gedəndə, Avropada və Amerikada hüquqlar, yaxud öz müqəddəratını həll etmək mahiyyətcə az adamı rahatsız edirdi.

4. Aldadılanlar təkcə türklər deyildi. Ərəblərin böyük çoxluq təşkil etdiyi Osmanlı-ərəb torpaqları da suverenlik əldə etmədi. İngilislər və Fransızlar sadəcə olaraq onları özlərinə götürdü.

5. Bəyan olunmuş ideallarla reallıq arasındakı uçurum bu gün şübhəsizdir. Lakin 1919-cu ildə Avropada və Birləşmiş Ştatlarda Müttəfiqlərin hərəkətlərini şübhə altına alan az idi.

### TƏQSİR İDEYASININ İNKİŞAFI




Ermsəni məsələsi üzrə populyar işlərdə ancaq ermənilərin həlak olması barədə məlumat verilir. Türklərə və digər müsəlmanlara qarşı ənənəvi xurafat, xtistianlara rəğbət və Şərqi Anadoludakı həqiqi hadisələr barədə məhdud məlumatlar o dövrün tarixinə yalan baxış formalaşdırdı. Tarixin başa düşülməsi və yazılması, "adəti həqiqət"in tənqidsiz dərk edilməsi baxımından bu şərait nədən xəbər verir?



## ƏHALİNİN QARŞILIQLI MİQRASİYASI

| | | |
|---|---|---|
| 1790-cı il | Türklər Zaqafqaziya xanlıqlarını tərk edir | Ermənilər Zaqafqaziyaya köçürlər |
| Krım müharibəsi | Türklər (tatarlar) Krımdan qovulur | Ermənilər Zaqafqaziyaya köçürlər |
| 1864-cü il | Çərkəzlər Qafqaz regionundan köçürülür | Ruslar və digər slavyanlar Çərkəzistana köçürlər |
| 1867-ci il | Abxazlar Qafqaz regionundan qovulur | Ruslar və gürcülər Abxaziyaya köçürlər |
| 1877-1878 | Lazlar Qafqaz regionundan qovulur, türklər və digər müsəlmanlar Rusiyanın işğal etdiyi bölgələrdən köçürülürlər | Ermənilər Rusiyanın işğal etdiyi bölgələrə köçürlər |
| 1878-1914-cü illər | Müsəlmanların Anadoluya sonrakı miqrasiyası | Ermənilərin Zaqafqaziyaya sonrakı miqrasiyası |
| 1915-1918-ci illər | Türklər və digər müsəlmanlar erməni dəstələrindən və rus ordusundan xilas olurlar | Ermənilər kürd tayfalarından və osmanlı ordusundan xilas olur və deportasiya edilirlər |
| 1918-1920-ci illər | Türklər İrəvan quberniyasından (Ermənistan Respublikasından) Anadoluya və Azərbaycana qaçırlar | Ermənilər Azərbaycandan İrəvana qaçırlar |

1921-ci ilədək Ermənistanda bir az türk, Anadoluda isə bir az erməni qalmışdı. Müsəlmanlar Qafqaz regionunun mərkəzi və qərb hissələrini, ermənilər isə Şərqi Anadolunu tərk etmişdilər.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

### ŞƏRQİ ANADOLU ƏHALİSİ

#### Hər iki tərəfin mentaliteti

**Ermənilər:** *Əsrlər boyu bizi öz hüquqlarımızdan məhrum edirdilər. Müsəlmanlar allahın bizə verdiyi özünü idarə etmək hüququnu əlmizdən alaraq bizi idarə edirdilər. Biz kasıbıq, lakin müstəqil olsaydıq varlı olardıq. Bizim tacirlərin və təhsilimizin uğurları bizim üstünlüyümüzü sübut edir. Müsəlmanların torpaqları çoxdur, qoy onlar digər yerlərdə ağalıq etsinlər. Biz isə ancaq bu torpaqlara malikik. Əgər biz öz Ermənistanımızı almasaq, bizim gələcəyimiz necə olacaq? Bizim oğul və qızlarımızın çoxu üçün türk dili artıq əsas dil olmuşdur. Onlar yaxşı tale axtarışında bizi tərk edir, İstanbula, Rusiyaya, yaxud Amerikaya gedirlər. Yəni biz öz dilimizə, mədəniyyətimizə, dövlətimizə layiq deyilikmi? Biz hərəkət etməsək hər şeyi itirəcəyik.*

**Müsəlmanlar:** *Əsrlər boyu biz ermənilərlə birgə yaşamışıq. Bizim torpaqlarımız kasıbdır və bizim hamımız ayrı-ayrı vaxtlarda əzab və aclıq çəkmişik. Biz heç də həmişə dost olmamışıq, lakin birlikdə yaşamışıq. Xaricilər (missionerlər, konsullar, tacirlər) gələndən sonra ermənilər bizdən varlı oldular. İndi onlar deyirlər ki, bizim torpaqlarımızı idarə etmək istəyirlər: onlar Ermənistan yaratmaq istəyirlər. Əgər onlar buna etsələr, bizim başımıza nə gələcək? Biz öz evlərimizdən qovulacağıq. Xaricilər olmasaydı, ola bilsin ki, bu heç zaman baş verməzdi. Belə ki, biz ermənilərdən əhəmiyyətli dərəcədə çoxuq. Lakin xaricilər, xüsusən də ruslar bizə nifrət bəsləyirlər. Əgər biz hərəkət etməsək onlar bizim torpaqları ələ keçirib ermənilərə verəcəklər. Yəni bizim yaşamaq hüququmuz yoxdurmu?*

Əlbəttə, ermənilərin və müsəlmanların çoxu heç vaxt bu fikirləri belə dəqiq ifadə etməmişlər. Şərqi Anadolu əhalisinin əsas hissəsi kəndlilər və çobanlar olmuşlar. Onlar müharibə istəməmişlər. Birinci Dünya Müharibəsini doğuran Avropa siyasəti onların anlayışından kənarda



idi. Onlar ancaq dinc əməklə məşğul olmaq istəyirdilər. Lakin ermənilərin də müsəlmanların da qorxusu əsaslı idi. Rus əsarətindən sonra Qafqazda onların din qardaşlarının başına nə gəldiyini müsəlmanlar bilirdilər. Onlar erməni partizan dəstələrinin günahsız müsəlman kəndlilərinə hücum etdiklərini də bilirdilər. Öz növbəsində ermənilər də bilirdilər ki, onların kəndləri kürdlərin cavab hücumlarına məruz qoyulmuşdur və müsəlmanlar əhəmiyyətli dərəcədə sayca onlardan çodurlar. 1905-ci ildə Zaqafqaziyada baş vermiş etnik qırğınları ermənilər də müsəlmanlar da unutmamışdı. Tərəflərin heç biri digər tərəfə inanmırdı. Hər iki tərəf inanırdı ki, ya öldürməli olacaq, ya öldürüləcək. Buna heyrətlənməyə dəyərmi?

Bu seçimdən hər hansı çıxış yolu varmı? Bu faciənin qarşısını nə isə ala bilərdimi? Osmanlılar və erməni millətçiləri həqiqətən ortaq məxrəcə gələ bilərdilərmi?

Daha geniş mənada desək, şərait və ideologiya bu qədər mürəkkəbləşə bilərmi ki, konflikt qaçılmaz olsun?

### DEPORTASİYA HAQQINDA MƏSƏLƏ

#### 1915-ci il osmanlı nəzər nöqtəsindən

1. Biz düşmən Rusiyaya qarşı durmuşuq. O, yüz ildən çox müddətdir ki, bizim torpaqlarımızı zəbt edir. Rusiya və onun müttəfiqləri bizim qalan torpaqlarımızı da işğal edərək öz aralarında bölüşdürmək barədə razılaşıblar.
2. Biz acı təcrübədə bilirik ki, ruslar müsəlman torpaqlarını ələ keçirdikdə milyonlarla türk və digər müsəlman öldürülür, yaxud qovulur.
3. Yüz ildən çox müddət ərzində enmənilər işğalçılıqda ruslara kömək etmişlər.
4. Erməni əhalisinin əhəmiyyətli hissəsinin kömək etdiyi erməni inqilabçıları bütün Şərqi Anadolunu ələ keçirmək istəyirlər. Biz buna imkan verə bilmərik, belə ki, oranın əhalisinin dördə üçünü müsəlmanlar təşkil edir. Müsəlmanlar nə Osmanlı imperiyasını tərk etmək, nə də rus, yaxud erməni əsarəti altına düşmək istəməzlər.

5. Ermənilər artıq bütün Şərqi Anadoluda qiyam qaldırmışlar. Biz bu qiyamları yatırmaq üçün bütöv diviziyaları rus cəbhəsindən çıxarmağa məcbur olmuşuq.

6. Erməni partizan dəstələri İmperiyanın bütün şərqində müsəlmanları öldürürlər. Müsəlmanlar onlara eyni cavabı verirlər. Əsil vətəndaş müharibəsi alovlanmaqdadır.

7. Ermənilər cənub-şərqdə bizim dayaq şəhərimiz olan Vanı işğal etmişlər və ruslar gəlib çatanadən onu əldə saxlayırlar.

8. Biz əminik ki, əgər ruslar irəli getsələr ermənilər orlara kömək edəcək. Erməni partizanları buna qədər də kommunikasiyaları dağıtmış, əsgərlərə və rəsmi şəxslərə hücumlar etmiş və ümumiyyətlə müharibənin uğurla aparılmasına mane olmuşlar. Erməni partizan dəstələri erməni kəndlərindən kömək alır. Kəndlərin çoxunda gizli silah anbarları aşkar edilmişdir. Şübhəsizdir ki, onların çoxu hələ tapılmamışdır.

9. Biz nə etməliyik? Rusları və partizanları yardımdan məhrum etməyin bir üsulu qalır. Biz erməniləri deportasiya etməliyikmi?



## Mündəricat

Ön söz əvəzi ... 3
I fəsil. Torpaqlar və xalqlar ... 5
II fəsil. İlk konfliktlər ... 27
III fəsil. İnqilabi millətçilik ... 46
IV fəsil. Şərqdə inqilab ... 61
V fəsil. Birinci Dünya Müharibəsi ... 73
VI fəsil. Amerikalıların rəyi ... 108
VII fəsil. Polemika ... 154
Biblioqrafik istinadlar ... 164
Tövsiyyə olunan ədəbiyyat ... 166
Əlavələr ... 169
Diskussiya məsələləri ... 182

**Castin Makkarti, Karolin Makkarti**

# TÜRKLƏR VƏ ERMƏNİLƏR

ERMƏNİ MƏSƏLƏSİ ÜZRƏ
RƏHBƏRLİK

"Səda" nəşriyyatında yığılaraq səhifələnmiş,
11.04.2011-ci il tarixdə çapa imzalanmış və
hazır diapozitivlərdən istifadə edilməklə
"Təknur" mətbəəsində çap olunmuşdur.
Formatı 60x84 1/16.
Şərti çap vərəqi 12.
Tirajı 500.